**Hacı Mirfazil**

# SƏDƏRƏYİN SEYİDLƏR OCAĞI

**"Elm-təhsil"**
**Bakı-2016**

**Redaktor: Kəmaləddin Qədim**

Hacı Mirfazil. Sədərəyin Seyidlər ocağı
Bakı, «Elm və təhsil», 2016, 144 səh.

*Bu kitabda Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunda yaşamış müqəddəs seyidlər nəslinin ulu babası olan Qara Seyidin və onun övladlarının, nəvə-nəticələrinin həyatından, kəramətlərindən bəhs olunur.*

*Kitab olduqca səmimi, real, gözəl dildə qələmə alındığından geniş oxucu kütləsinin dərin marağına səbəb olacağına inanırıq.*

İSBN 978-9952-8176-9-0

**©H.Mirfazil, 2016**
**© «Elm və təhsil», 2016**

# SƏDƏRƏYIN SEYIDLƏR OCAĞININ ƏFSANƏVI HƏQIQƏTLƏRI

Səmimi deyim ki, lap gənclik illərimdən yazı-pozu ilə məşğul olsam da, otuza yaxın kitabım çap olunsa da, nəşriyyat direktoru kimi yüzdən artıq kitabın redaktoru olsam da bu kitab məni möhkəm tutdu və onun müəllifinin çox dəyərli bir mövzuya əl atdığına qəlbən sevindim.

Bu sevincimin bir neçə səbəbləri var idi. Əvvəla ona görə ki, kitabda doğulub boya-başa çatdığım, mənim üçün həmişə müqəddəs olan Sədərək kəndinin ən müqəddəs insanlarının "Seyidlər" nəslinin tarixindən, o nəsildə olmuş bir çox müqəddəslərin tərcümeyi-halının əfsanəyə bənzər həqiqətlərindən - kəramətlərindən bəhs olunur. Kitabın ən üstün cəhətlərindən biri də odur ki, müəllif yeri gəldikcə çox ibrətamiz hədislərdən, dini kəlamlardan, müqəddəs Qurani-Kərimin ayələrindən istifadə etməklə, oxucunu daha dərindən düşünməyə və qeyd olunan əhvalatlardan nəticə çıxarmağa, ibrət dərsi almağa səsləyir.

Kitab ilk oxucu kimi, mənim üçün bir də ona görə çox maraqlı oldu ki, həmin müqəddəslər sırasında adı çəkilən insanların bir çoxunu vaxtilə görüb, tanıyıb, onlarla ünsiyyətdə olmuşdum və bu kitabda yazılan əhvalatların bir çoxunu

da ayrı- ayrı insanlardan, ağsaqqallardan eşitmişdim. Kitabda oxucuların rast gələcəyi 17 dəfə Kərbəla ziyarətində olmuş Kərbəlayi Miryaqub ağanın yoldan dönüb ziyarət barədə kağız (sənəd) alıb qayıtması əhvalatını 90 ilə yaxın ömür sürmüş və kəndin tarixinə dərindən bələd olan atam Cəfər Kərbəlayi Məmməd oğlunun da dilindən eşitmişdim. Müəllifin kitabda qeyd etdiyi Kərbəlayi Miryaqub ağanın həyat yoldaşı, müəllifin təbirincə desək "kəndin ağır tayfalarından sayılan Bəyməmməd nəslindən olan" Səkinə nənə atamın ana babası olan Hacı Həsənin bacısı (kənddəki yaşlı insanların xatırladığı Hacı Həsən oğlu Həsənqulunun bibisi) olub. Buna görə də Kərbəlayi Miryaqub ağanın böyük oğlu rəhmətlik Müzəffər ağa ömrünün sonuna qədər mənim mənsub olduğum Bəyməmməd nəslindən olan kişilərin hamısına (o cümlədən mənim özümə də) "dayıoğlu", "dayınəvəsi" sözləri ilə müraciət edər, hamısı ilə çox səmimi və mehriban şəkildə hal-əhval tutardı. Bu ənənəni onun qardaşları - mənə orta məktəbdə dərs deyən, sonralar uzun müddət eyni kollektivdə pedaqoji fəaliyyətlə məşğul olduğumuz Mirabbas müəllim də, Səttar ağa da, Calal ağa da həyatlarının sonuna qədər davam etdirdilər. Bu ehtiramın nəticəsi idi ki, atamın 1941-1945-ci illər müharibəsində kəndimizdəki

müqəddəs seyidlər nəslinə nəzir-niyaz deyib dəfələrlə od-alov içərisindən qurtarması barədə xatirələrini, Calal ağa cavan yaşında dünyasını dəyişəndə atamın öz evimizdə "Calal ağa ölməli oğul deyildi" deyib hönkür-hönkür ağlamasını, günün-gecənin hansı saatındasa evimizdə xəstə olanda "qaçın, Səttar ağanı gətirin" deməsini və digər əhvalatları üstündən uzun illər keçməsinə baxmayaraq bu gün də xatırlayıram.

Hacı Mirfazilin çox böyük zəhməti və gərgin axtarışları hesabına ərsəyə gələn bu kitabın geniş oxucu kütləsi tərəfindən maraqla qarşılanacağına şübhə etmirəm.

Kitabda haqqında bəhs olunan müqəddəslərin ruhuna bir daha Allahdan rəhmət diləyir, kitab müəllifini isə keçmiş müəllimi, bugünkü ilk oxucusu kimi ürəkdən təbrik edirəm.

**Vaqif MƏMMƏDOV,**
*Tarix elmləri namizədi, Azərbaycan*
*Yazıçılar və Jurnalistlər Birliyinin üzvü,*
*Əməkdar mədəniyyət işçisi*
*01.11.2010-cu il*

# Dini xurafatdan və fanatizmdən uzaq

Söz hər şeydən yuxarıdı, təkcə Tanrıdan aşağıdı. Təsadüfi deyil ki, bizim müqəddəs kitabımız olan Qurani-Kərim də bizlərə məhz söz şəklində gəlib çatıb. Biz onu söz kimi oxumuşuq və qəbul eləmişik. Ulu Yaradanın bir kəlmə "Ol" sözündən bu cümlə-cahan pərvəriş tapıb.

*Nə vaxt ki, dərgahdan qovuldu şeytan,*
*Qurtara bilmirik suçdan, günahdan.*
*Beş kəlmə söz qalıb Xətai Şahdan,*
*Qalan nə qalıbsa sözdən aşağı…*

Bəli, o boyda Şah İsmayıl Xətainin taxtından-tacından, xanədanlığından bu gün bizə miras kimi heç nəyi qalmayıb. Amma gözəl sözləri, əsərləri qalıb ki, bu gün də sevilə-sevilə oxunur və yad olunur.

Qurani-Kərimdə "Qələm" adlı bir surə var. Ulu Tanrı bir neçə şeyə and içir ki, onlardan biri də qələmdi. Buna görə də qələm müqəddəs sayılır. Qələmə xəyanət eləməksə ən böyük günah hesab olunur. Qələm yalnız doğrunu, düzgünü, həqiqəti yazmalıdır.

Niyə bu yazıma sözdən və qələmdən başladım? Çünki bu gün ortada çox halal bir söz

və o halal sözü yazıya köçürən, tarixin yaddaşına götürən bir qələm var. Və bu qələm də çox müqəddəs bir ocağın layiqli davamçılarından olan bir halal din adamının əlindədi.

Bəli, qarşımda "Sədərəyin Seyidlər ocağı" adlı bir kitab var və mən onu bir neçə gündü böyük sevgiylə, məhəbbətlə oxumaqdayam.

Bu kitabın müəllifi bu müqəddəs Seyidlər ocağının layiqli varislərindən olan Hacı Mirfazil Mircəlal oğludu. Doğrudur, Hacı Mirfazil yazı-pozu adamı deyil. Hamı kimi mən də belə bilirəm. Amma kitabı doymadan oxuyub başa çatdıranadək onun yazı qabiliyyətinə, qeyri-adi istedadına həsəd apardım, heyran qaldım. Kitab o qədər sadə, səmimi bir dildə yazılıb ki, oxumadım, su kimi içdim sadəcə olaraq. Ən başlıcası Sədərəyin Seyidlər ocağına məxsus hadisələr, əhvalatlar, onların kəramətləri müqəddəs kitabımız olan Qurana, Qurandakı ayələrə, Peyğəmbər əfəndimizin hədislərinə, İmam Əlinin və digər imamlarımızın xütbələrinə, kəlamlarına əsaslanaraq elə cilalanıb ki, bu kitabın əslində çox peşəkar bir yazara məxsus olduğu aydınlaşır. Demək Hacı Mirfazil əslində çox peşəkar bir yazarımız imiş. Qürur duydum buna görə, çox sevindim.

Kitab tarixi bir filmi xatırladır. Seyidlər ocağının ulu babası Kərbəlayı Qara Seyidin əhatə etdiyi kök, nəsil şəcərəsi bir gözəl mənzərə

kimi, bir tarixi xronika kimi keçir göz önündən. Bu kökün, bu soyun, bu nəslin bu günə qədər davam edən varislərinin ömür-gün yolu, el-oba içində xətir-hörmətləri, xalqa, millətə göstərdiyi xidmətlər, özəl kəramətləri, göstərdikləri möcüzələr çox dəqiqliklə, zərgər dəqiqliyi ilə qələmə alınır.

Kitabdakı bir çox hadisələrin canlı şahidlərindən olmuşam və bir çoxlarını da atam Qədim Abbas oğlundan, kəndin, elin-obanın ağsaqqallarından, ağbirçəklərindən eşitmişəm. Ələlxüsus da Seyid Mirkazım ağanın, Kərbəlayi Miryaqub ağanın, İzzət ağanın öz gözlərimlə gördüyüm Mirabbas ağanın, Müzəffər ağanın, Səttar ağanın, Cəlal ağanın keçdiyi ömür-gün yolunun bu kitabda olduğu kimi yer alması həmin tarixi anları bir daha gözlərim önünə gətirdi.

Uşaqkən həyətində futbol oynadığım Qurbanlı məscidinin həyətindəki qoşa qəbir (bu kitabda geniş şəkildə bəhs olunur onlardan) heç yadımdan çıxmır. Dəyişən bu gün o qəbirlər üzərində Hacı Fazil tərəfindən ucaldılan gözəl məqbərə – tarixi kompleksdir. O seyidlərin niyə burda dəfn olunmasını, onların kimliyini hələ mən düz 40-45 il bundan əvvəl bilirdim. Onlar haqqında müfəssəl məlumatım var idi. Kəndi böyük bəladan qurtaran hər iki – Seyidlər ocağının müqəddəs insanlarını sevə-sevə yad

edirdim. Amma təəssüf ki, onlar haqqında yazmaq mənə qismət olmadı. Bu gün də bir təskinlik tapıram ki, nə yaxşı Hacı Fazil bu tarixi hadisələri, dini əhvalatları, gözəl kəramətləri qələmə alıb bizləri, xüsusən də məni bir utancdan xilas etdi. Buna görə Hacı Fazilə ürəkdən təşəkkür edirəm.

Əziz oxucu! Bir şeyi də xüsusi olaraq vurğulayım ki, dinimizdə fanatizm, xurafat baş alıb gedir, bəzən həddini aşır belə. Yalançı baxıcıların, görücülərin, bəxt açanların, nə bilim daha nələrin və nələrin addımbaşı qarşımıza çıxıb, yol-yoldaşımıza çevrilməsi olduqca ürək ağrıdandır. Bunları vurğulamaqda məqsədim odur ki, bax bu kitabda qələmə alınanlar qeyd etdiyim dini xurafatdan, fanatizmdən çox-çox uzaq və reallıqlara, gerçəkliklərə əsaslanan əhvalatlardır. Çünki onların böyük əksəriyyəti camaatın gözləri qarşısında baş verənlərdir ki, yaddaşlardan-yaddaşlara keçə-keçə bu günə qədər gəlib çıxıblar.

Bu Seyidlər ocağının varislərinin, davamçılarının, ən çox da o kəramət sahiblərinin bir xeyli hissəsini də mən şəxsən öz gözlərimlə görmüşəm, onlarla belə deyim ki, hətta ünsiyyətdə də olmuşam.

Sonda onu da qeyd edim ki, Azərbaycanımızın Qeyrət qalası adlandırılan Sədərək milli-mənəvi və dini dəyərlərimizin yüksək səviyyədə qorunub saxlanıldığı bir tarixi

məkandır. "Sədərəyin Seyidlər ocağı" adlı bu kitab da bu baxımdan çox böyük əhəmiyyət daşıyır. Milli-mənəvi və dini dəyərlərimizə çox qiymətli bir ərməğandır, hədiyyədir.

Dəyərli oxucu! Elə bilirəm ki, bu kitab sizlərin dərin marağına səbəb olacaq, bir dəfə oxumaqla doymayacaqsınız, bir sözlə, stolüstü kitabınıza çevriləcək.

Bu dəyərli kitaba və kitabın ərəyə-ərsəyə gəlməsində, yazılıb sizlərin ixtiyarına verilməsində böyük zəhmətləri olan Sədərəyin Seyidlər ocağının çox dəyərli varislərindən biri, bu kitabın müəllifi Hacı Fazilə uğurlar diləyirəm.

Allah yar və yardımçınız olsun!

**Kəmaləddin Qədim,**
*"Türk Ədəbiyyatına Xidmət" və*
*"Şahmar Əkbərzadə adına" Beynəlxalq Poeziya*
*mükafatları laureatı*
*30 noyabr 2015*

## Müəllifdən

### Bağışlayan və rəhm edən Allahın adı ilə

Həmd olsun o Allaha ki, ona həmd etməyə, nemətlərini əta etməyə, bütün bəlalardan ona sığınmağa kifayətdir. Ləyaqətli bəndələr olmaq üçün bizlərə hidayət neməti və hər cür xeyir və xoşbəxtliyi bəxş edən aləmlərin Uca Rəbbinə həmd olsun heç şübhəsiz ki, ona təvəkkül etmək və ondan yardım istəmək kifayətdir. Çünki o, hər şeyə qadirdir.

Həmd olsun o Allaha ki, o aləmləri yaratdı. Həmd olsun o Allaha ki, aləmlər içərisində Peyğəmbər (s.ə.v) və pak Əhli-beytini yaratdı. Və Əhli-beytin nəslindən gələn Seyidləri yaratdı.

Nə qədər ki, dan yeri doğulub ağarır, ulduzlar çıxıb, batır, rəhmət olsun onlara. Allahın salamı razılığı və rizvanı Peyğəmbər (ə.s) və onun Əhli-beytinə beyyət edən, əhdinə sadiq qalan, vəfalı olan, ondan sonra əhdinin üstündə duran, bu yoldan geri dönməyən, daim şükür edən və qiyamətə qədər onların göstərdiyi yol ilə gedən ilk və son insanlara olsun. Amin!

Mütəal Allah öz müqəddəs kitabı Qurani-Kərimdə bu barədə belə buyurmuşdur: ***Bismillahir Rəhmanir-Rəhim.***

***1) (Ya Peyğəmbər) Həqiqətən, biz sənə Kövsəri əta etdik (çoxlu xeyir, sabid din, baqi kitab, sonsuz elm Həzrəti Fatimə (ə.s), gündən-günə artıb çoxalan baqi nəslini və ifrətini, ümmətin alimlərini Kövsər hovuzu və cənnətdə çay əta etdik).***

***2) Odur ki, rəbbinə itaət et, namaz qıl və qurban kəs.***

***3) Həqiqətən sənin düşmənin özü sonsuz və nəsli kəsilmişdir. Bu mübarək ayədəki sənin nəslin deyəndə məsum imamlardır. Sənin ifrətin deyəndə imamlardan törənən seyidlərdir. Bu gün də görürük ki, Allahın bərəkəti ilə yer üzərində qırx milyon Peyğəmbər (s) nəsli seyidlər yaşayırlar. Yer üzünün ən bərəkətli nəslidirlər. Mütəal Allah buyurub: "Bilin ki, Allahın vədi heç şübhəsiz həqiqətdir. Amma çoxları bilməz" (Yunis surəsi, 55-ci ayə).***

Həzrət Məhəmməd (s.ə.v) buyurub: ***"Həqiqətən Allah məni, Əlini, Fatiməni, Həsən və Hüseyni və imamları bir nurdan yaratmışdır".***

Əziz oxucu! Mən Məhəmmədin (s.ə.v.v.) nəvəsi İmam Rza (ə.s.) nəslindən olan Qara Seyid və onun övladları – Sədərəyin Seyidlər ocağı haqqında olan tarixi həqiqətləri Allahın qüdrəti və seyidlərin cəddinin köməyi ilə siz

əziz oxuculara çatdırmaq istəyirəm.

Pərvərdigara, köksümü yar, qəlbimi genişləndir, işimi asanlaşdır və sözümü başa düşsünlər deyə dilimdəki düyünü aç.

Amin!

## Kərbəlayi Qara Seyid və onun nəsil şəcərəsi

Bir çox müsəlman ölkələrində, o cümlədən də Azərbaycanımızın müxtəlif bölgələrində kifayət qədər tanınmış, müqəddəs ocaqlar mövcud olmuşdur. Bu gün də qorunub, saxlanılan bu müqəddəs ocaqlarda tanınan, sayılan, seçilən, həm də çox sevilən dəyərli din xadimləri yetişmiş, onların nəslindən olan övladlar böyüyüb, boya-başa çatmışdır.

Naxçıvan Muxtar Respublikasının çox qədim yaşayış məskənlərindən olan Sədərək mahalında da Seyidlər ocağı deyilən bir ocaq var. Bu ocağın yaşı olduqca qədimdir, dəyərli övliyalarının, seyidlərinin adı bu gün də dillər əzbəridir. Mənim də təmsil olunduğum bu ocağın təməl daşı, ilkini, əvvəli sayılan Kərbəlayi Qara Seyid adlı bir övliya olub.

Kərbəlayi Qara Seyid XVII əsrin sonlarında maddi durumunun çətinlikləri ucbatından Təbriz şəhərindən Naxçıvana, ordan da Sədərəyə gəlmiş, burda məskən salıb yaşamışdır.

Təbrizdə olarkən Qara Seyidin ailəsi on iki nəfərdən ibarət idi. Ailənin kiçiyi, həm də

zahirən, görkəmindən qumral olduğu üçün ata-anası onun adını Qara qoymuşdular.

İslam dininin möhkəm təməllərinin mövcud olduğu, dinə sevginin, məhəbbətin böyük olduğu Sədərəkdə Qara Seyidi çox səmimi və mehribancasına qarşılayırlar. Camaatın ona olan hörmətini, sayğısını, mehribanlığını görən Qara Seyid bir ömür boyu burda yaşamağı qərara alır. Öz əxlaqı, mədəniyyəti ilə az bir zamanda camaat arasında böyük hörmət, izzət qazanır. Kənd camaatına "fik"dən, "şəriət"dən, Quranın təsvirindən dərs deməyə başlayan Qara Seyid el arasında olur, məclislərdə tez-tez iştirak edir, İslam dininin incəliklərini yaymaqla məşğul olur. O, insanlara izah edirdi ki, Allahı zikr etməkdən xeyirli bir şey yoxdur. Çünki haqqı zikr etmək, xalis bəndəçilik, günahdan pak olmaq, Allahdan başqasına göz yummaq, onun lütf, inayət və zəhmətini görmək, ondan uğur və feyz diləməkdir".

Qara Seyid çox kəramətli bir seyid idi. Belə ki, o yaşadığı yerə ceyranlar, ahular gələrmiş. Evdə olan qız-gəlinlər o ceyranların, ahuların südlərini sağarmışlar. Bunları öz gözləriylə görən kənd camaatının Qara Seyidə sevgisi, məhəbbəti durmadan artırdı. O, təqvada, ibadətdə, səxavətdə başqalarından çox fərqlənirdi.

Yeri gəlmişkən, bu barədə İmam Əli (ə.s.)-nin bir kəlamını xatırlatmaq istəyirəm: ***"Ən xoşbəxt ən çox təqvalı olan şəxsdir".***

Bəli, Qara Seyid təqvalı bir şəxs idi. Elə ona görə də özünü xoşbəxt saya bilərdi.

Qara Seyidin Sədərəkdə məskən salıb yaşadığı bu illərdə İranın Maku şəhərinin valisi İmam Rza (ə.s.)-nın nəvələrindən birinin (yəni, Qara Seyidin) Naxçıvana, Sədərəyə köçüb gəldiyini eşidib, öz adamları ilə birlikdə Xudafərin körpüsündən keçərək onun arxasınca Sədərəyə gəlir. Kəndin girəcəyində qəribə bir əhvalat baş verir. Belə ki, rast gəldiyi ilk şəxsdən Vali Qara Seyid barədə sorğu-sual etməyə başlayır. Onun kimliyini soruşur. Qonağın kim olduğunu tanımayan həmin şəxs qəsdən, bir az da bilərəkdən özünü qonağa Qara Seyid kimi təqdim edir, mənəm Qara Seyid deyir.

Vali çox arif bir adam olduğundan "Mən səndə ona xas bir əlamət görmədim" – deyə vurğulayır. "Çünki Peyğəmbər (s.ə.v.) nəslindən olan haqq seyidlərdə mütləq bir əlamət olmalıdır", - deyir. Kənd sakini Validən üzr diləyərək, bunu bilərəkdən yapdığını və Qara Seyidin daha mötəbər bir adam olduğunu deyərək Valini və adamlarını Qara Seyidin evinə gətirir. Onu da qeyd edim ki, Vali və adamlarının Qara Seyidin evinə 500 metr məsafə qalmış atlar dayanır, nə qədər

eləyirlərsə, atlar yerimək bilmir. Vali atdan düşərək "Qara Seyidin ilk əlaməti görsəndi" deyir və qalan yolu piyada getməyə qərar verir.

Qara Seyidin qonağı olan Vali onunla uzun-uzadı söhbətlər edir, onun İrana, Makuya qayıdıb orda yaşamasını təklif edir. Orda ona torpaq sahələri, mal-qara, ev verəcəyini bildirir. Bunların heç birini qəbul etməyən Qara Seyid "mən burada artıq ailə qurmuşam, Makuya qayıda bilmərəm" – deyir.

Qeyd edim ki, o zaman Sədərək mahalının, Dərələyəz uezdinin bütün vergiləri Maku valiliyinə verilirdi. Makunun valisi yerindəcə bir fərman imzalayıb Qara Seyidə verir. Fərmanda qeyd edilirdi ki, "bütün Sədərək mahalı İmam Rza (ə.s.)-nın nəvəsi Qara Seyidin xatirinə 2 il vergidən azad olunur". Deyilənə görə, bu sənəd – bu fərman hal-hazırda Türkiyədə, İstanbul şəhərinin Osmanlı arxivində saxlanılmaqdadır. Bu sənədi İstanbula səfər edən tarix elmləri namizədi Namiq Əliyev və Sədərək kənd orta məktəbin müəllimi Vahid Seyidov da öz gözlərilə gördüklərini deyirlər.

* * *

Bütün insanlar şübhəsiz xoşbəxt yaşamaq istəyirlər. Amma bu xoşbəxtlik üçün çalışanlar bir-birindən kəskin şəkildə fərqlənirlər. Bir qrup insan öz xoşbəxtlik hədəflərini düzgün seçə bilmədiyindən bədbəxtliyə düçar olurlar. Bir qrup insan isə Peyğəmbər (s.ə.v.) və imamları özlərinə örnək sayaraq, imkanları daxilində onların buyurduqlarına əməl edərək səadət qapısını açıb kamala yetişərlər. Qara Seyid bax belə övliyalardan idi. Rəsuli Əkrəm belə buyurmuşdur: ***"Həqiqətən Allah-təala insanların əxlaqını təkmilləşdirmək üçün məni Peyğəmbərliyə qərar vermişdir".***

İnsan hər şeydən əvvəl özünü tanımalıdı. Öz-özünə sual verməlidi ki, mən kiməm, haralıyam, haradan gəlmişəm və haraya gedirəm? Əgər insan özünə sual versə ki, mən necə yaranmışam və sonum necə olacaq, onda mütləq və mütləq onu yaradanı – yəni Uca Allahı tanıyacaq, doğru, düzgün, həqiqi, ədalətli yollarla addımlayacaq. Çünki insan Ulu Tanrının sevə-sevə yaratdığı, öz nurundan bəxş elədiyi ən müqəddəs varlıqdır. Bütün canlıların, bütün varlıqların ən alisidi, ən öncülüdü və nəhayət, ən kamilidi. Bununçün

də insan elə ilk öncə özünü tanıyaraq öz xaliqinin ona lazım bildiyi və vacib buyurduğu əməlləri yerinə yetirməli, pis, şeytani əməllərdən özünü qorumalı, onlardan uzaqlaşmalıdır. Hər vaxt, hər işdə, hər əməlində Peyğəmbəri, Əhli-beyti (ə.s.) özünə nümunə götürməli, onların həyatının, yaşayışının, əməllərinin və fərmayişlərinin qarşısında itaət etməlidir.

Elə Axirətdə də möminlər ilahi nemətlərdən faydalanarkən onlar öz Allahları ilə raz-niyaz edərlər. Belə möminlər hətta Allaha ünsiyyətdən, başqa bir şeydən ləzzət aldıqda Allahdan bağışlanmaq istərlər. Çünki onlar bu fani dünyanın maddi nemətləri barədə düşünməyənlərdilər.

İmam Səccad (ə.s.) öz dualarında belə buyurur: ***"İlahi, səni yad etməkdən başqa bir şeydən ləzzət aldığıma görə bağışlanmaq istəyirəm. Allahım, dilimi zikrinlə hərəkətə gətir, qəlbimi eşq və məhəbbətinlə məşğul eylə. Qəbulunun gözəlliyi mənə minnət qoy. Ey mənim ağam, yalnız səni yad etməklə qəlbim dirilir və Sənin minacatınla özümdəki qorxu dərdinə təskinlik verirəm".***

Qara Seyidin Qənbər adında bir övladı olub. Seyid Qənbər demək olar ki, gözünü açandan, özünü dərk edəndən evlərində Quran səsi eşitmiş, Quran səsiylə böyümüşdür. Həddi-buluğa çatanda isə atasıyla Kərbəla ziyarətində də olmuşdur.

Bu müqəddəs Qara Seyid ocağının layiqli varislərindən, davamçılarından olan Seyid Qənbər bir ömür boyu böyük iman sahibi kimi, əsl dindar kimi yaşamış, ocaqlarına sədaqətini, layiqliyini nümayiş elətdirmişdir. Zahirdə, üzdə işlə-güclə məşğul olmağına, xalqla, camaatla ünsiyyətdə olmağına baxmayaraq, ağanın qəlbi həmişə Uca Yaradanla olub və günü, ayı, ili Peyğəmbər əfəndimizin, onun Əhli-beytinin (ə.s.) təbliğatı ilə keçib. Allah-təala Sadiq möminlərin sifətləri haqqında belə buyurur: ***"Möminlər o kəslərdir ki, nə ticarət, nə alış-veriş onları Allahı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmaz". (Nur surəsi, 37-ci ayə)***

Seyid Qənbər ağa çox yaxşı bilirdi ki, kimin nəslindəndir və onun vəzifəsi, missiyası nədən ibarətdir. "Ot kökü üstə bitər" - deyiblər. Əslinə, nəslinə, kökünə, soyuna çəkən Seyid Qənbər öz ömrünü-gününü məhz bu özəlliklər üstdə köklədi, yaşadı, fəaliyyət göstərdi.

Seyid Qənbərin 6 övladı olub. Birinci övladı Miryusif, ikinci övladı Mirqasım, üçüncü övladı Mirheydər, dördüncü övladı Kərbəlayi Mirkazım, beşinci övladı Mirbağır və altıncı övladı isə Mircəfər ağa olub.

Seyid Qənbərin ocağında seyidlərə xas olan kəramətlər də diqqəti cəlb edir. Belə ki, onun böyük oğlu Miryusif ağa Həcc ziyarə-

tinə gedərkən evində belə bir niyyət, əhd edir: "Xudavənda, mənim canımı o müqəddəs torpaqlarda al" deyir və atına minib yola çıxır. O müqəddəs yerlərə varıb, Həcc ziyarətinin bütün vacib, gərəkən əməllərini yerinə yetirdikdən sonra elə oradaca haqqın rəhmətinə qovuşur.

Miryusif ağanın da Əhəd ağa adında bir oğlu olub. Əhəd ağa erməni daşnaklarının 1905-ci ildə Azərbaycan torpaqlarına hücumu zamanı qəhrəmanlıqla döyüşərək şəhid olmuşdur.

Qeyd edək ki, Seyid Qənbərin övladlarından olan Mirqasımla, Mirheydərin övladları olmamış və onların haqqında əllərimizdə müfəssəl olaraq heç bir məlumat yoxdur.

Seyid Qənbərin dördüncü övladı olan Kərbəlayi Mirkazım ağa çox təqvalı, imanlı, alim və din xadimi olmuşdur.

Allah və bəndələri arasındakı sıx bağlılıq ilahi feyzlərin onlara çatdırılmasında vasitə rolunu oynayan Peyğəmbərləri (s), eləcə də Allahın lütf və inayətinin məhzərləri sayılan məsum İmamları tanımaq, insanlıq kamalına yetmək heç də asan bir iş deyildir. Bununçün gərək ruhən və cismən Ona – Allaha tabe olasan.

Allah-təala möminlərin bir neçə xüsusiyyətinə bu ayədə işarə verər: ***"Eləcə də bağladıqları əhd-peymanlarına sadiq qalarlar. Çətinliklər, ehtiyaclar və yaxud xəstəliklər üz verdikdə (Cihad meydanlarında əziyyətlərə dözüb səbr***

***edərlər) qəbul etdikləri imanlarında, sözlərində və əməllərində həqiqət olanlardır. Həqiqi təqva bunlardır". (Bəqərə surəsi, 177-ci ayə)***

Bax, Mirkazım ağa da Allahın bu ayədə buyurduğu mömin bəndələrdən idi. Onun yaşadığı Sədərək mahalında bir çox yaddaqalan, əhalini heyrətə salacaq kəramətləri olmuşdur. Həmin kəramətlər camaatımız tərəfindən bu gün də sevilə-sevilə xatırlamaqda, yad edilməkdədir. Onu da qeyd edək ki, bu kəramətlər dini xurafatdan, rəvayətlərdən çox-çox uzaq kəramətlər idi. Çünki gerçəklikdən ibarət idi bu kəramətlər. Ən başlıcası isə camaatın gözləri qarşısında baş verirdi.

Bir gün Bəbir adlı bir kənd sakini ilə yol gedirmiş Mirkazım ağa. Həmin vaxtlar hava da çox quraqlıq keçirmiş. Əkin-biçin adamları çox pəjmürdə imişlər. Bəbir kişi seyidə: "Ağa, cəddini çağır, Ulu Tanrıya dua et, bir yağış yağsın. Mən dəmyə taxıl əkmişəm".

Mirkazım ağa üzünü qibləyə tərəf çevirib: "Ya Allah" deyərək dua edir. Onlar qayıdıb kəndə çatana kimi Tanrı öz mərhəmət yağışını yağdırır. Taxıl zəmiləri, bağlar, bostanlar su içir bu mərhəmət yağışından. Bu hadisənin canlı şahidi olan Bəbir kişi çox heyrətlənir. Evinə gedir və həyətindəki heyvanlardan birini Mirkazım ağaya nəzir aparır. Həyətə

daxil olarkən Mirkazım ağanın ibadətlə məşğul olduğunu görür. İbadətini başa vuran ağa Bəbir kişiyə: "Bəbir kişi, heyvanı kəs, qoy qanı yağışın suyuna qarışsın ki, yağış kəssin" deyə müraciət edir. Bəbir kişi heyvanı kəsib, soyur və Ağaya təhvil verib getmək istəyəndə ağa: "O ətdən bir bişimlik saxla və qalanını isə uşaqlarına apar" deyir.

İman və əmanətdarlıq, sədaqət və ixlas din qardaşı yolunda canından keçmək, gözəl rəftar, özü üçün sevdiklərini müsəlman qardaş-bacıları üçün də istəmək dinin təməl prinsiplərindən hesab olunur.

Məhz Mirkazım ağa da bu cür din adamlarından, dəyərli övliyalarımızdan biri idi. Necə ki, Peyğəmbəri Əkrəm buyurmuşdur: ***"Din möminin silahı, dinin sütunu, yer və göylərin nurudur".*** Bu baxımdan dua etmək, Allahla raz-niyaz etmək ağanın əsas xüsusiyyətlərindən idi.

Mirkazım ağanın ən böyük, yaddaqalan və heç vaxt unudulmayacaq, dünya durduqca böyük sevgi və sayğılarla xatırlanacaq, yad ediləcək kəramətlərindən biri barədə bəhs etmək istəyirik.

Mirkazım ağanın Mirbağır adlı qardaşı vardı. O dövrlərdə ticarətlə məşğul olduğundan Mirbağır ağa tez-tez dəvə karvanları ilə qonşu dövlətlərə alış-verişə gedərdi. Qonşu dövlətlərdən satılıq mallar gətirər, qazancından

kasıb-kusuba yardımını da əsirgəməzdi.

Bu səfərlərin birində məscidə namaz qılmağa gedən Mirbağır ağa namaz bitdikdən sonra bir ağsaqqalın bir qəribə duasını dinləməli olur. "Pərvərdigara, səni and verirəm öz izzət və calalına, bu günlərdə, bu dövlətdə insanlarımızı məhv edən bu taun xəstəliyini Sədərək kəndinə göndər".

Bu qəribə duadan sonra hamı, eləcə də Mirbağır ağa heyrət içində donub qalır. Özünə gəldikdən sonra həmin dua edən ağsaqqala yanaşır: "Bu Sədərək eli-obası, Sədərək camaatı sizə neyləyib ki, bu bədduanı elədiniz, burdakı bəlanın o kəndə getməyini istədiniz Ulu Tanrıdan" – deyə soruşur.

Ağsaqqal Mirbağır ağaya üz tutub deyir: "Oğul, Sədərək mahalı ki var, bax orada Qara Seyidin övladları yaşayır. Onlar da, o torpaqlar da çox müqəddəsdilər. Həm də Sədərək İmam Rza (ə.s.) vəqfinə aiddir. Kərbəlayi Qara Seyidin övladları, qohumları, o kəndin nurani ağsaqqalları, dindarları bu bəlanın qarşısını almaq üçün bir çarə, bir əlac taparlar mütləq".

Kərbəlayi Mirbağır ağa işin nə yerdə olduğunu anlayır, alış-verişini başa çatdırır, yüklü dəvələrlə yola düzəlir. Üzü Vətənə – Sədərəyə doğru.

Evə çatanda Mirbağır ağa qardaşı Mirkazım ağanı soruşur. Anası: "Ay oğul, ağa oğlu Mirbaba ilə məscidə, namaz qılmağa getdi" – deyir. Mirbağır ağa da öz ətrafı ilə məscidə gedir və Mirkazım ağanın məscidin həyətində uca bir yerə çıxıb, əllərini göyə açaraq dua etdiyini görür. Mirkazım ağa: "Camaat, siz şahid olun ki, Allahın hüzurunda mən özümü və bax bu oğlumu bu kəndin camaatına qurban deyirəm. Qoy Allah-təala bizim duamızı qəbul etsin və kənddən bu bəlanı uzaq eləsin" – deyib, oğlu ilə məscidin içərisinə daxil olurlar. İki rükət hacət namazı qılırlar... Bir azdan Mirbağır ağa və məscidin həyətindəki adamlar məscidə daxil olurlar. Ata və oğulun elə bir yerdə, səcdədə öz dünyalarını dəyişdiklərini, haqqın dərgahına qovuşduqlarını görürlər. Mirbağır ağa o ağsaqqalın duasını xatırlayır...

Mirkazım ağanın və övladının uğruna qurban getdikləri bəla kənddə neçə günlərdi insan ölümlərinə yol açan vəba xəstəliyi idi. Demək olar ki, hər gün 15-20 adam bu xəstəlikdən dünyasını dəyişirmiş. Kəndin 3 qəbiristanlığında mollalar ölüləri dəfn-kəfn edib çatdıra bilmirmişlər. Ölü sahibləri də ölüləri özləri yuyub qəbiristanlığa gətirirmişlər. Demək olar mollalar qəbiristanlıqdan evə gələ bilmirmişlər.

Mirkazım ağanın və övladının ölümüylə

kənddə bu xəstəliyə son qoyulur və bu xəstəlikdən ölən olmur. Camaat yığılıb Mirkazım ağanı və oğlu Mirbabanı elə məscidin həyətindəcə dəfn edirlər. O gündən ta bügünəcən Sədərək məscidinin həyətində dəfn olunmuş ağaların qəbirləri əsl ziyarət yerinə çevrilib. El-oba yolunda, camaat uğrunda özlərini qurban verən bu övliyaların kəndin Qurbanlı məscidində qəbirləri üzərində o müqəddəs seyid ocağının layiqli varisləri – xüsusən də onların kötücəsi sayılan Mircalal ağanın oğlu Hacı Fazil tərəfindən möhtəşəm bir abidə – kompleks ucalıb, öz möhtəşəmliyi ilə göz oxşayır. Böyük tarixi bir abidəyə çevrilib.

İmam Əli (ə.s.) buyurur: ***"Din möminlər üçün alınmaz qala, möhkəm zireh, hifzedici bir sipərdir. Hər vaxt bağlı qapını çox döysən, onu yəqin bil ki, axır bir gün qapı sənin üzünə açılacaq" (Üsuli Kafi, 2-ci cild, səh-214).***

Necə ki, Peyğəmbəri Əkrəm belə buyurmuşdur: ***"Ən fəzilətli ibadət duadır. Yer üzündə Allah üçün təqdim olunan ən sevimli əməl duadır. Dua xoşagəlməz hadisələri, bəlanı dəf edir, hər bir dərdin dərmanıdır".***

Belə bir bəlalı gündə Mirkazım ağanın duası da məhz Peyğəmbər əfəndimizin vurğuladığı dualardan idi. Ağanın ən yaddaqalan, unudulmayan, sevə-sevə xatırlanan bu kəraməti doğrudan da heyrət doğuracaq

bir kəramət idi. Əsrlər keçəcək, Qurbanlı məscidindəki qəbirlər, o qəbirlərdə uyuyan övliyaların xatirəsi o möhtəşəm abidə insanların qürur yeri, iftixar yeri, iman yeri kimi yaşayacaq. Sədərək Seyidlər ocağının müqəddəsliyini əsrlərdən əsrlərə ötürəcək bu hadisə, bu abidə.

İlahi, sən pak və müəzzəmsən. Heç nəyi batil yerə xəlq etməmisən. Mirkazım ağanın və onun övladının bu kəraməti bizim el məclislərimizdə tez-tez xatırlanır. Bir yas məscidində idim. Balaca qardaşım Miryaqub da mənim yanımda oturmuşdu. Məclisin aparıcısı Molla Hacı Xəlil bu möhtəşəm tarixi hadisəni bir daha xatırlatdı. Bizim yaxınlığımızda əyləşən həmkəndlimiz Hacı İslam dedi ki, mənim babam İsmayıl kişi 123 il yaşayıb. Ona kənddə Şatırlının İsmayılı deyirdilər. Babam atam Cəbrayıla o taun xəstəliyi haqqında danışarmış. Çünki İsmayıl babam bu hadisənin canlı şahidi olmuşdu. Kənd camaatının qəbir qazıb çatdıra bilmədiklərini, cənazəni aparmağa adam çatmadığını xatırlayırmış babam İsmayıl. Bu övliyaların doğrudan Allahın əsl dostları olduqlarını vurğulayırmış. Sədərəkdəki Seyidlər ocağının elə buna görə çox müqəddəs bir ocaq olduğu barədə danışarmış Şatırlı İsmayıl.

Allah-təala öz müqəddəs kitabı Qurani-Kərimdə belə buyurur: ***"Biz onun duasını qəbul etdik və onu qəmdən qurtardıq. Biz imam əhlinə***

***belə nicat verərik". (Ənbiya surəsi, 88-ci ayə)***

Bəli, doğrudan da Kərbəlayı Mirkazım ağanın duası o gün Sədərək camaatını böyük bir bəladan qurtardı. O, öz imanı, əqidəsi ilə bir daha sübut etdi ki, o, əsl bir övliya idi.

Həzrət Əli (ə.s.) belə buyurur: ***"İzzət istəyirsənsə onu Allaha ibadətdə axtar".***

Mirbabanın iki oğlu olub – Yasin və İzzət ağalar. Yasin Böyük Vətən müharibəsi illərində müharibəyə getmiş və geri qayıtmamışdır.


SEYİD İZZƏT AĞA

* * *

Kərbəlayi Mirbaba ağanın böyük oğlu İzzət ağa 1895-ci ildə Sədərəkdə, Seyidlər ocağında dünyaya gəlib. İzzət ağanın doğulması babası Mirkazım ağanı və bütün ailəni, qohumları çox sevdirmişdir. Elə onun adını da babası Mirkazım ağa qoymuşdur. İzzət bu gözəl ocaqda, bu mömin ailədə böyüyür. Atasından, babasından ədəb-ərkan, gözəl tərbiyə alır. Dinin incəliklərini öyrənir. İzzət ağa elə yeniyetmə yaşlarından namaz qılmağa başlayır. Oruc tutur, məscidə gedir. Onun həyatı çox keşməkeşli keçib. Ən çətin vaxtları isə Sədərək kəndində baş verən taun xəstəliyi dövrlərində olub. O vaxt İzzət ağanın altı yaşı var imiş. Bu xəstəlik, müsibət, bu bəla bir çox insanların həyatını, qaraltdığı kimi İzzət ağanın da həyatında ağır və kədərli iz buraxmış, ağa hələ uşaq ikən öz əzizlərini – atasını və sevimli babasını itirmişdir. Bu itkilər onunçün nə qədər ağır olsa da, bir kamil insan kimi yetişməsində də az rol oynamamışdır. Ağa böyüdükcə olub-keçənləri, o tarixi hadisələri daha dərindən dərk edir, atası Mirbaba, babası Mirkazım ağayla qürur duyurdu, fəxr edirdi. Çünki onlar bu el-oba, bu insanlar uğrunda öz şirin canlarını fəda etmişdilər, qurban vermişdilər.

Qürur duyurdu, fəxr edirdi ona görə ki, bu cür övliyaların övladıdır və damarlarında məhz bu müqəddəs insanların qanı axır. İzzət ağa yaxşı bilirdi ki, onun atası və babası Allahın həqiqi, pak varlığına ibadət ediblər və elə buna görə də onların duaları müstəcəb olub – şəhid olublar. Necə ki, İmam Hüseyn (ə.s.) həqiqi ibadət barədə belə buyurur: ***"Həqiqətən də dünyada bir dəstə camaat behiştə getmək üçün behişt eşqinə Allah-təalaya ibadət edirlər. Belə ibadət tacirlərin ibadətidir. Bir dəstə camaat var ki, cəhənnəm əzabının qorxusundan Allah-təalaya ibadət edirlər. Belə ibadətlər də nökərlərin ibadətidir. Bir dəstə camaat da vardır ki, Allah-təalanın ona verdiyi saysız-hesabsız nemətlərin qarşısında şükr etmək üçün və bir də Allahın həqiqi varlığına görə ibadət edərlər. Bu ibadət azad və mərifətli insanların ibadətidir. İbadətlərin bəyənilmişi, gözəli belə ibadətdir".***

Bəli, İzzət ağa ona görə fəxr edirdi, qürur duyurdu ki, onun atası Mirbaba və babası Mirkazım ağa məhz cəddimiz İmam Hüseyn (ə.s.) buyurduğu, işarə etdiyi azad, mərifətli insanlardan olublar ki, həqq-təala onların duasını qəbul edib, doğulduqları kəndi, onların adamlarını böyük bəladan xilas edib. Neçə-neçə körpələrin, cavanların, qarıların, qocaların ölümünün qarşısını alıb.

Bu gün o amansız taun xəstəliyinin cay-

naqlarından qurtaran insanlardan doğub-törəyən, dünyaya gələn Sədərək camaatının o müqəddəs seyidlərə bir minnətdarlıq, şükranlıq borcları var. Bu borc o müqəddəslərin ruhuna böyük ehtirama, sayğıya, sevgiyə, məhəbbətə dönüb bütün sədərəklilərin arasında. Bütün sədərəklilər o müqəddəsləri, övliyaları bu gün də dərin ehtiramla xatırlamaqda, yada salmaqda və sevib-sevələməkdədirlər.

Peyğəmbər əfəndimiz (ə.s.v.) necə də gözəl buyurub: ***"Bütün yaxşılıqlardan üstün bir yaxşılıq vardır. İnsan Allah yolunda öldürüldükdə, daha bundan da üstün yaxşılıq yoxdur".***

İzzət ağa da öz ulu babaları kimi çox mömin, dindar, həm də kəramətli seyidlərdən olub. Onun bir çox kəramətli əhvalatları var.

Qərbi Azərbaycanın Masis rayonunun Zəhmətli kənd sakini Cəfər kişi bir gün çox ağır surətdə xəstələnir. Yeri gəlmişkən, el arasında ona Qoluyox Cəfər deyirmişlər.

Övladları Cəfər kişini o həkim qalmır ki, aparmasınlar. Heç yerdən lazımi nəticə almadıqlarından kişini məcburən evə gətirirlər ki, öz evində rahatca ölsün barı.

Sonralar Cəfər kişi özü danışırmış ki, halım günü-gündən pisləşirdi. Özümü getdikcə pis hiss edirdim. Artıq bütün ümidlərim kəsilmişdi...

Bu gün necə oldu heç özüm də bilmədim. Bilmədim ki, yuxuda idim, yoxsa ayıq idim, ancaq onu dəqiq bilirəm ki, mənə deyirlər: "Cəfər, sən cümə günü ayaga qalx və get İrəvana, orada Qara bazarın arxasında dayanacaqda gözlə. Avtobusdan bir kişi düşəcək. Onun əlində bir bağlama olacaq. Sən ona heç nə demə. Onun ardınca get. O, Mustafa adlı bir kişinin evinə girəcək, sən də onun ardınca o evə girərsən. Həmin kişi özü ilə gətirdiyi bağlamanı açacaq. O, bağlamadan çörək, üzüm və ət qovurması çıxaracaq. Sən o ağadan icazə al. Əgər icazə versə o yeməkdən yeyərsən. Elə sənin şəfaətin o yeməkdədir". Cəfər kişi ona deyilənləri edir. O, cümə günü gedib həmin yerdə gözləyir. Bir də görür ki, avtobusdan bir kişi düşdü, başında börk, əlində bağlama. O, yəqin bilir ki, ona deyilən adamdı və onun arxasınca düşür. Görür ki, o, Mustafagilə gəlir. İcazə alıb içəri keçir. Görür ki, İzzət ağa bağlamanı açdı və ona deyilən nemətləri süfrəyə düzdü. Bunu görən Cəfər kişiyə lap yəqin olur ki, elə mənə deyilən adam bu imiş. O, İzzət ağadan icazə alır. Ağa da öz növbəsində ona deyir ki: "Cəfər kişi, bu halal tikədən ye. Bu sənin qismətindir". Cəfər kişi çox təəccüblənir. Axı onu İzzət ağa hardan tanıyırdı? Bu sual onun fikrini qarışdırır. Bunu görən İzzət ağa ona deyir ki: "Mənə yuxuda sənin kim olduğunu deyiblər. Elə ona görə də gəlmişəm.

Sən əməli-saleh müsəlmansan ki, bu Allahın lütfü sənə qismət olub. Sənə bizim ocağımızın kəraməti ilə şəfa verilib". Bu hadisədən sonra Cəfər kişi sağalır və hər vaxt Sədərəyə gəlib İzzət ağanı və onun ocağını ziyarət edərmiş. Hətta o, öz nəvələrindən birini İzzət ağanın qucağına qoyub kirvəlik ediblər.

İzzət ağa həqiqi bir mömin kimi yaxşı bilirdi ki, insanı ibadətdə güclü edən onun könlündəki ilahi eşqdir. Əgər bir insan Allaha doğrudan da ibadət etmək arzusunda olsa və bu yolda müqavimət göstərsə şübhəsiz ki, müvəffəq olar. Ən əsası odur ki, insan bunu qəlbən istəsin və bu yolda bütün zəhmətlərə qatlaşsın. Bu yolda çəkilən zəhmətlər, gözəl və saleh əməllər nəticəsində, Allaha yaxınlaşaraq tədricən aradakı hicabları qaldırmaq olar. Və qaranlıq hicablar götürülər və onun əvəzində insanın nuraniyyəti artar. Bütün bunların təməli isə ilahi eşqdir. Əziz Peyğəmbərimiz (s.ə.v) bu haqda belə buyurub: ***"İmanın ən yaxşısı, fəzilətlisi, qiymətlisi odur ki, şəxs harda olursa olsun, yəqin bilsin ki, Allah-təala onunladır".***

İzzət ağa yəqin bilirdi ki, insanın Allaha olan imanını, eşqini, məhəbbətini artırmaq üçün onun verdiyi sonsuz nemətləri barədə düşünməlidir. Maddi nemətlərlə yanaşı, mənəvi nemətləri də xatırlamalıdır. Mərifətli insanlar üçün mənəvi nemətlər maddi ne-

mətlərdən qat-qat üstündür. Allaha yaxın insanlar mənəvi nemətlərdən daha çox ləzzət alırlar. İzzət ağa yəqin bilirdi ki, onu da bilmək lazımdır ki, Allah-təala öz yaratdığı bəndələrinə qarşı çox mehribandır və onlarla mərhəmətli rəftar edir. Çünki onun rəhməti hər şeyi əhatə edir. O, öz bəndələrinə Peyğəmbərlər vasitəsi ilə hətta Allahla necə danışmaq da öyrədir. Namazda xəyalımız kənara uçarkən bu xəyalı geri -özümüzə qaytaran da odur. Çünki namazın özü mərifətin mərkəzidir. Zəhmət çəkib qəflətdən qurtarıb Allaha qarşı diqqətli olmaq üçün müxtəlif yollar var. Bu şərafətli yollar insanı mərifətə, həqiqətin kəşfinə aparır. Namazda müti (təslim) olmaq istəyiriksə, yenə də sığınıb bizi qəflətdən oyatmağını istəyirik. Qəlbimizi özünə qarşı müti et. Namazlarımızı Sənə xuşi ilə ibadət edənlərin namazlarından qərar ver. Bizləri bağışla və bizləri Muhəmməd və Ali Muhəmmədin yolunda sabit qədəm et. Səni and veririk on dörd Məhsuma ki, bizim dualarımızı qəbul et. Amin!"

İzzət ağa 1976-cı ildə Sədərək kəndində vəfat etmişdir. Allah rəhmət eləsin. İzzət ağanın dörd oğlu, iki qızı olmuşdur. Böyük oğlu Hidayət, Hüseyn, Səyyad və Yavər, qızları Nənə və Gümüş. Hidayətin üç oğlu olmuşdur: Baba, Həsən və Qamət. Mirhüseynin dörd övladı olmuşdur. Böyük oğlu Rza, İlqar, Oqtay

və Müşfiq. Səyyadın övladı olmamış və gənc yaşlarında rəhmətə getmişdir. Yavərin isə iki övladı olmuşdur: Dilavər və Əfqan. İzzət ağanın qız nəvəsi Rəşid, Bayram və Elxan. İzzət ağanın nəticələrindən Hidayət, Vüsal, Cavid, Tural, İmran, Emil, İzzət, Səyyad, Elvin, Yasin, Orxan, Elcan, və Mirşahin. Bu Kərbəlayi Mirbaba ağa tərəfindən davam etdirilən nəsildir.

* * *

2000-ci ilin mart ayı idi. Mən Həcc ziyarətindən qayıtdıqdan sonra Sədərəyə getmişdim. Günorta vaxtı idi. Azan oxunurdu. Mən məscidə getdim. Kənd camaatı, möminlər səf-səf oturmuşdular. Hamı Molla Sadığı gözləyirdi ki, namaza başlasın. Mən salam verib arxa cərgədə oturmaq istədim. Rəhmətlik Molla Sadıq bunu görüb mənə tərəf dönüb dedi: "Hacı, Seyidin balası, sən gəl bura. Bura sənin yerindir". Əvvəla mən başa düşmədim və cavab verdim ki, məscidin içinin nə fərqi var, ya orada namaz qılmış, ya burada. Onsuz da biz hamımız Allahın evindəyik. Ancaq Sadıq əmi mənim yanıma gəldi və qolumdan tutub məni apardı mehrabın sol tərəfindəki boş yerdə əyləşdirdi. Mən buna görə çox utandım. Axı məsciddə ağsaqqallar var idi. Özü də o ağsaqqallar ki, atam Mircalalın dostları idi - Nəsib əmi, Bayram kişi, Qadir əmi və s. Molla Sadıq namaza başladı, biz namazları onunla bir yerdə qılıb qurtardıq. Sadıq əmi arif insan idi. O, mənim utandığımı hiss etmişdi. Namazı qurtarıb dua edirdik. Növbə gəldi ata-oğul, yəni Kərbəlayi Mirkazım ağa və onun oğlu Mirbaba haqqında ki, onların ruhuna dualar dedilər. Yeri gəlmişkən deyim ki, bu gün olduğu kimi, həmişə məsciddə onların ruhuna hər namazdan sonra dualar oxunur. Sadıq əmi

dedi ki: “Ay Seyidin oğlu, bilirsən səni niyə orada oturtdum?”. Mən ona cavab verməmiş özü sözünə davam etdi: - Ona görə ki, o vaxt Sədərək kəndində taun xəstəliyi baş verəndə məhz Kərbəlayi Mirkazım ağa həyətdə dua oxuduqdan sonra məscidin içinə keçir və məhz bu yerdə mehrabın önündə niyyət edib 2 rükət hacət namazı qılıb, alnı səcdədə rəbbinə dua edir: “Pərvərdigara, mən özümü və oğlumu o məsum körpələrə və ağzı dualı ağbirçək analara qurban deyirəm. Səni and verirəm ikimizin arasında olan dostluğa, duamı qəbul etməyincə səcdədən qalxmaram. İlahi, bu kənddən bu bəlanı götür. Məni və oğlumu bu camaatın yolunda öz dərgahına apar”. Kərbəlayi Mirkazım ağanın duası çox uzun çəkir. Bunu görən qardaşı Mirbağır ağa məscidə daxil olub Mirkazım ağanı hələ də səcdədə görüb təəccüblənir və yaxınlaşıb qardaşını qaldırmaq istəyir. Ona toxunub hiss edir ki, qardaşı çoxdan ruhunu canından çox sevdiyi Rəbbinə təslim etmişdi. Mirkazım ağanı məscidin eyvanına çıxarırlar. Ağsaqqallar belə məsləhət edirlər ki, ağanı elə məscidin həyətində də dəfn etsinlər. Ağa ölən sonuncu sədərəkli olur. Allah sanki möcüzəsi ilə insanları böyük bir imtahan sınağından çıxarırdı. Mirkazım ağanın ölümü bu müqəddəs Seyid ocağının möcüzələrindən biri və ən yadda qalanı idi. Çünki cəddi

İmam Hüseyn (ə.s.) öz şirin canını, övladlarını, əhsabını, qardaşlarını sevdiyi Rəbbinə təslim edərkən demişdi: ***“Əgər cəddim Məhəmmədin dini mənim qanımla ayaqda qalacaqsa ey iti qılınclar doğrayın məni”. Mirkazım ağa cəddini getdiyi yolu anbaan izləyirdi. Onun üçün Rəbbinə qovuşmaq daha şirin idi. Ağa İmam Hüseyn (ə.s.) məktəbini öyrənib onun yaşam tərzini özünə örnək seçmişdi. Onun duası bu yerdə qəbul olub. İbadət təkcə ilahi məsuliyyətdən qurtarmaq deyil. İbadət vasitəsi ilə ağıl yetkinləşir. İnsan vücudunda qüvvələr tarazlanır. İbadət insan ruhunu maddi bulaşıqlardan təmizləyir. Riyasız yerinə yetirilən ibadət ən üstün ibadət sayılır. İbadət sırf Allaha görə olduqda insanda təqva sifəti yaranır”.***

O vaxtdan bu günə kimi bu yerdə kənd camaatından heç kəs namaz qılmır. Ehtiram olaraq, bu yerdə ancaq Mirkazım ağanın oğlu Mirağa ağa, ondan sonra Mirağanın oğlu Miryaqub ağa, ondan sonra atan Mircalal, ondan sonra Səttar ağa bu yerdə namaz qılıb. Necə ki, cəddiniz İmam Baqir (ə.s.) buyurub ki: ***“Allah yanında ən sevimli iş namazdır və o, Peyğəmbərlərin insanlara son tövsiyəsidir”.*** Bir sözlə, bu yerdə ancaq siz seyidlərə ehtiram olaraq siz namaz qılırsınız, bu gün isə sənin növbəndir. Bu ənənə bu gün də davam edir. Yenə hər namazdan sonra ata-oğula, yəni Mirkazım

ağaya, Mirbaba ağaya dualar oxunur. "Allah-təala! Bu müqəddəs seyidlərin hörməti xatirinə torpaqlarımız düşmən tapdağından azad olsun. Silaha bir daha ehtiyac olmasın. Cəddiniz Peyğəmbər xatirinə! Amin!".

Məhəmməd Peyğəmbər (s.ə.v) buyurmuşdur: ***"Ana öz övladını süd ilə qidalandırdığı kimi, Allah da öz mömin bəndələrini bəla və çətinliklərlə qidalandırır".***

* * *

Kərbəlayi Mirkazım ağanın ikinci övladı Mirağadır. O, çox təqvalı və kəramətli seyidlərdən olmuşdur. O, zəmanəsinin həm də din alimi idi. Mirağa ağa çox gözəl əxlaq sahibi idi. O, insanlara dini məsələləri izah edib, dərslər verirmiş. Allaha həqiqi ibadət edən şəxslər Allahın varlığına, qiyamət gününə inanır və onlar bilirlər ki, Allah-təala və bütün hesabsız nemətləri həqsiz, minnətsiz onun ixtiyarında qərar verib. Bu cür insanlar yaxşı başa düşürlər ki, nemət sahibinə təşəkkür etmək lazımdır. Bu cür insanlar onu da bilirlər ki, nemət sahibi bu nemətlərin hesabını çəkəcək. Buna görə də özünü məxluq bilən hər bir şəxs Xaliq qarşısında özünü zəlil və aciz hesab edir. Allaha həqiqi iman gətirən mömin insanların istər çətinliyi olsun, ya olmasın, hacəti qəbul olsun, ya olmasın, Allaha həmişə eşqlə ibadət edib ona sığınar. İbadətin ilkin şərti eşqdir. Əgər eşq olmasa heç nə əldə etmək olmaz. İnsanın uca rəbbinə olan eşqi onun daim başını ucaldır. İnsanın Yaradanına olan eşqi onun imanı ilə ölçülür. Nə qədər eşqi, sevgisi çox olsa, bir o qədər imanı kamil olur. Bəzən elə olur ki, bir insan gözəl elm öyrənsin, hər şeyi kamil bilsin. Amma ona qarşı eşqi olmasa, bu onun heç dadına çatmaz. Bəzən də elə olur ki, bir insan heç bir elmi savadı olmur, amma uca xaliqinə

çox böyük eşqi olur, onun verdiyi nemətləri daim yad edir və nemətlərinin qarşısında daim şükürlü olur. Bu onun nicatı olur. Bunların hər ikisindən o yaxşıdır ki, həm elmin ola, həm eşqin ola, bu bütün sahələrdə belədir. Məsələn, əgər bir şair öz şeirini eşqlə yazmasa, onun heç bir təsiri olmur. Əgər şair bir şeiri eşqlə yazanda onun şeiri illərlə yadda qalır. Məsələn, Məhəmməd Füzulini belə böyük şair edən onun eşqidir. İnsanın imanı, eşqi olarsa, öz işində məsuliyyət hiss edəcəkdir. Öz vəzifəsini yaxşı biləcək, vəzifəsini yaxşı yerinə yetirəcək, öz işində güzəştə gedəcəkdir. Öz daxilində əməllərini izləyən mənəvi bir keşikçi hiss edəcəkdir.

Məhz Kərbəlayi Mirağa ağa öz daxilində uca rəbbinə eşqlə ibadət edir, əməllərini daim izləyirdi. Mirağa ağa gənc yaşlarənda bir dağın mağarasına çəkilmiş və 40 gün orada qalıb gündüzləri oruc tutub, gecələri namaz qılacağına özünə söz vermişdir. Lakin 38 gün orada qaldıqdan sonra qorxmuş, xoflanmış və kəndə qayıdacağını qərara almışdır. O, yolda gedərkən dağların arasında üç nəfərlə qarşılaşır. Mirağa ağa bunları tanımadığından kənardan keçmək istəyir. Lakin o üç nəfər ağanı öz adı ilə çağırır. Ağa isə təəccüblə bunların yanına tərəf gedir. Onlar ağanı süfrəyə dəvət edirlər. Mirağa ağa zənn edir ki, seyid olduğu üçün

bu insanlar onu tanıyırlar, ancaq nə bilsin ki, bu ilahi tərəfdən ona göndərilən bir imtahandır. Onlar ağanı yeməyə dəvət edirlər. Süfrəyə ağ tikə ətlər qoyurlar. Mirağa ağa bu yeməklərdən ehtiyat edir. Onlar ağaya deyirlər: "Bu ətlər ağ ilanın ətidir". Bunu bilən ağa süfrədən əlini çəkir. Onlar süfrəni yığışdırdıqdan sonra ağaya deyirlər: "Sən 38 gündür mağarada qalırsan elm öyrənəsən, ancaq bu ətlərdən bir tikə yesəydin istədiyin şey sənə veriləcəkdi". Bunu eşidən ağa çox məyus olur, dönüb atına tərəf baxır görür ki, heç kəs yoxdur. Bundan sonra ağa evə qayıdır.

İmam Əli (ə.s) belə buyurur: ***"İnsanların ən bəsirətlisi öz eyiblərini görən və öz günahlarından əl çəkən şəxsdir".***

Mirağa ağanın ən böyük kəramətlərindən biri də kəndin çayxanasında baş vermişdir. Günlərin bir günü Mirağa ağa çayxanada oturub söhbət edirdi, birdən ağa sağ əlini göyə qaldırır. Oturduğu yerdən Ağrı dağına tərəf dönüb deyir: "Allah sən saxla". Bu kəlməni üç dəfə təkrar edir. Bunu görən ətrafdakı insanlar ağaya tərəf təəccüblə baxırlar. "Sənə nə oldu, sənə nə oldu" – deyərək narahat olurlar. Mirağa ağa camaata xitab edərək deyir: "Ey insanlar bu Ağrı dağının o biri tərəfində bir dəvə karvanı keçirdi. Axırıncı dəvənin ayağı sürüşürdü. Mən dedim: "Allah sən saxla". Camaat bu sözlərdən çox təəccüblənir. Ancaq bilirlər ki, Mirağa ağa yalan danışan adam

deyil.

Mirağa ağa camaatın çox təəccübləndiyini görüb camaata: "Ey insanlar, siz mənə inanmırsınızsa, sabah bu vaxt bura gəlin. Mən öz sözümü sizə isbat edəcəm" - deyir və evinə tərəf yola düşür. Bu xəbər camaat arasında çox tez yayılır. Səhəri gün hamı kəndin mərkəzinə axışır. Ağa da evindən çıxıb kəndin mərkəzinə gəlir. Ağa gəlib bir stolda əyləşir. Kəndin mərkəzinə bir sakitlik çökür. Heç kəsdən səs çıxmır. Ağanın qarşısına bir stəkan çay qoyurlar. Bu dəmdə kəndə bir atlı daxil olur. Atlının yüyənində də bir qoç. Bu qərib adam camaatla salamlaşıb deyir: "Bu eldə, bu obada ağır Seyid kimdi?" Bütün insanlar Mirağa ağanın üzünə baxıb heç nə demirlər. Ağa atlıya deyir: "Oğul, olanları sən danışırsan, yoxsa mən danışım?". Atlı ağaya təəccüblə baxaraq deyir: "Necə yəni ağa, o nə deməkdir?". Ordakı insanlar dünən ağanın danışıqlarını atlıya danışırlar. Atlı da and içərək deyir: "And olsun Allaha ki, mən dünən bu dağın ən çətin yerindən keçirdim. Axırıncı dəvənin ayağı sürüşdü. Mən də elə bu eldə, bu obada olan ağır seyidin cəddinə nəzir dedim. Allaha şükürlər olsun ki, mən də, dəvə karvanı da sağ-salamatdı". Ağa ayağa durub deyir: "O heyvanı kəs və burdakı insanlara payla. Ey camaat, bilin ki, cəddim İmam Sadiq (ə.s) belə buyurub: "Allah-təala dünyada

dostuna da, düşməninə də verər, amma dinini tənha, seçilmiş, bəyənilmiş şəxslərə verər". Bu sözləri deyib evə yola düşür.

Bütün bunlar Kərbəlayi Mirağa ağanın kəramətlərindəndir. Müqəddəs kitabımız Qurani-Kərimdə Allah-təala belə buyurur: ***"Yaxşılıq təkcə üzünü gün çıxana və ya gün batana çevirməklə deyil. Yaxşı əməl odur ki, insan Allaha, axirət gününə mələklərə xitab və Peyğəmbərlərə inanıb olanından Allah yolunda sərf etsin" (Bəqərə surəsi, 177-ci ayə).***

1918-ci ildə erməni daşnakları Azərbaycanın bir neçə mahalında azərbaycanlılara qarşı soyqırım törədiblər. Bu hadisələrin biri də Vedi rayonunun Qaraxaç kəndində baş vermişdi. Belə ki, Mirağa ağa həmin vaxtda Qaraxaç kəndində yaylaqda idi. Ağanın qaynı Yadulla kişi bu hadisənin olacağını Ağaya xəbər verir ki, gəl buradan gedək. Ağa ona cavab verir ki: "Sən get, mən camaatın yanında qalmalıyam". Erməni quldurları Azərbaycan kəndlərinə hücum edib camaatı əsir edirlər. Qaraxaç kəndinin taleyi də belə olub. Silahsız camaata hücum edib, onları bir dama toplayırlar. Mirağa ağa da camaatın arasında imiş. Quldurlar dama od vurub yandırmaq üçün damın ətrafına odun parçaları, çör-çöp yığıb yandırmaq istəyirlər. Ermənilər nə qədər edirlərsə, oranı yandıra bilmirlər. Ermənilərdən baş bilən bir keşiş quldurlara

yaxınlaşıb deyir: "Bu insanların içində mamağan (seyidə deyərmişlər) var. Ona görə də bu dam yanmayacaq. Yerli ermənilərdən Mirağa ağanı tanıyanlar var idi. Onlar ağanı nişan verirlər. Quldurlar göstəriş verirlər ki, Mirağa ağanı camaatın içərisindən çıxarsınlar. Ağanı çıxarandan sonra dama od vururlar. Dam alışıb adamlarla bərabər yanıb. Ağanı əsir saxlayıb, belindəki yaşıl şalı açıb onu boğmaq istəyəndə ilahi qüdrət tərəfindən necə olursa Mirağa ağa qeybə çəkilir. Bu hadisənin canlı şahidləri Arazdəyən kəndindən iki nəfər - Beytullah və Əli kişi olmuşdur. Əli kişi 107 il ömür sürmüş və hadisəni təfsilatı ilə həmişə el arasında söyləyərmiş. Onlarınsa sağ qalmağı belə olmuşdur. Erməni quldurları damı yandıranda onlar damdakı buxarıya girib gizləniblər. Bu hadisə bir daha təsdiq edir ki, Mirağa ağa həqiqi Allah bəndəsi və zəmanəsinin övliyası olmuşdur. Bu hadisədən sonra Mirağa ağanın necə olduğu bilinmir. Onun qəbrinin yeri də belə bilinmir.

Allaha məhəbbətə aparan ən sadə yol onun övliyalarına məhəbbət yoludur. Allah dostları ilə əlaqələr gücləndikcə Allaha məhəbbət də güclənir. Bir şərtlə ki, övliyalar hansısa fərdi xüsusiyyətlərinə görə yox, yalnız Allaha bağlılığına görə sevilsinlər. Hz. İmam Səccad (ə.s) buyurur: *"Qiyamət günü Allah hamını*

***bir yerə toplayar, bu vaxt bir nida ucalar. Biri-birini Allaha görə sevənlər haradadır. Bu vaxt insanların bir dəstəsi qalxar, onlara deyərlər ki, hesab çəkilmədən behiştə daxil olun".*** Allahın övliyalarına məhəbbət ilahi məhəbbətin budaqları və yarpaqları kimidir. Allah bizləri öz dostları övliyalara xatir, hesabımızı yüngül etsin və bizləri bu ağalara xatir bağışlasın. Amin!

Müqəddəs kitabımız Qurani-Kərimdə mütəal Allah belə buyurub: ***"Allah kimi istəsə hidayət edər, kimi də istəməsə yolundan azdırar. O yenilməz qüdrət sahibidir (İbrahim surəsi, 4-cü ayə)".*** Hz. Əli buyurur: ***"Əsla heç bir şey səni axirət üçün əməl etməkdən saxlamasın. Çünki fürsət çox azdır".***

Kərbəlayi Mirağanın 4 oğlan övladı olmuşdur. Böyük oğlu Mirlətif ağa, ikinci oğlu Miryaqub ağa, üçüncü oğlu Mirsəccad ağa və axırıncı oğlu Mirqəzənfər ağa olmuşdur. Mirlətif ağanın övladları olmamışdır və onun haqqında heç bir tarixi məlumat yoxdur.


Kərbəlayı seyid
Miryagub Ağa

* * *

Kərbəlayi Mirağanın ikinci övladı Miryaqub ağadır. Miryaqub ağa 1887-ci ildə Sədərək kəndində anadan olmuşdur. O, gözünü açandan evlərində Quran səsi eşitmiş və atasından şəriətin hökmlərini öyrənmişdir. O, hələ gənc yaşlarından islam dininə xüsusi bir məhəbbət bəsləmişdir. Miryaqub ağa 63 il ömür sürmüşdür. Bu illərdə Miryaqub ağa 17 dəfə Kərbəla ziyarətinə getmişdir. Bu 17 dəfənin 5 dəfəsini piyada, qalan 12 dəfəni atla-araba ilə getmişdir. Kərbəlayi Miryaqub ağa zəmanəsinin çox kəramətli, təqvalı seyidlərindən idi. O, çox səxavətli bir ömür yaşamışdır.

Saleh əməl insanı Allaha yaxınlaşdıran ən böyük amildir. Məhz gözəl əməlin nəticəsində bəndə uca yaradanın razılığını qazana bilər. Qurani-Kərimdə əsasən saleh-əməl Allaha yaxınlaşma məqsədi ilə görülmüş xeyir əməldir. Belə gözəl əməllər insanı xalis möminlik dərəcəsinə qaldırır, onu kamil insan dərəcəsinə yüksəldir. İslam dinində bu əməl ibadət adlanır. İbadət dedikdə təkcə namaz, oruc və ya Həcc nəzərdə tutulmur. Allahın razılığını qazanmaq məqsədi ilə görülmüş hər bir şey, hər bir xeyir iş ibadətdir. Hətta öz valideyninə xoş bir təbəssüm də ibadətdir. Susamış bir insana Allaha xatir bir stəkan su vermək də ibadətdir. Hər şeyin əvvəli

və sonu olduğu kimi, hər şeyin səbəbi və nəticəsi var. İnsan bir ömür yaşayır, namaz qılır, oruc tutur, Allahın əmrlərinə tabe olur ki, nəticə əldə etsin. Əgər o nəticə Allahın razılığıdırsa, onda o insan xoşbəxtliyə çatır. Allah-təala öz müqəddəs kitabında belə buyurur: ***"Ey mütməinə nəfs, dön Rəbbinə, sən ondan, o da səndən razı olan halda. Bəndələrimin zümrəsinə daxil ol. Cənnətimə varid ol (Fəcr surəsi, 27-ci ayə)".***

Allah qarşısında bəndəlik göstərilməsi bəndəliyin ən uca mərtəbəsidir. Hz. Əli (ə.s) buyurur: ***"İlahi izzətim üçün təkcə sənin bəndən olmağım, iftixarım üçün yalnız sənin mənə Allah olmağın bəs edər".*** Məhz Kərbəlayi Miryaqub ağa öz müqəddəs dinində əməl və ibadətində, səxavət və kəramətində hər vəsilə ilə çalışırdı ki, Allahın razılığını qazansın. O Allahın əzəməti qarşısında zəlil bir bəndə olması və öz miskinliyini anlaması onu ucaldırdı. Miryaqub ağanın hörməti, təvazökarlığı nəinki Sədərək kəndində, hətta başqa kəndlərə və mahallara da yayılmışdı. Hz. Əli (ə.s) belə buyurmuşdur: ***"Allah bir bəndəsini sevən zaman ibadət məhəbbətini onun qəlbinə salar. Yaxşılıq etmək sənin peşən olsun ki, ən xeyir gətirən maldır".***

Belə ki, Qərbi Azərbaycanda Vedibasar, Zəngibasar mahalında ağaya tez-tez nəzir verərmişlər. Bəzən elə olurdu ki, hər evdən bir

heyvan, bir quzu, bir keçi verərdilər. Miryaqub ağa topladığı bu nəzirləri Sədərək mahalının bir başından düşüb kəndin ən kasıb insanları arasında paylayarmış. Həzrəti Peyğəmbər (s.ə.v.) buyurur: ***"Allah-təala yalnız rəhm edənlərə rəhm edər".*** Miryaqub ağa oğlu Mirabbası yuxudan oyadıb əlinə bir siyahı verib deyərmiş: "Oğlum, bu gün nəzir gətirəcəklər. Onları bu insanlar arasında bölərsən". Mirabbas ağa da bu işdən çox təəccüblənib atasına deyirmiş: "Ağa, bunlar bizim evdə yoxdu ki". Miryaqub ağa da təbəssüm edib deyərmiş: "Oğul, sənin işin bunları mən dediyim adamlara çatdırmaqdır". Günorta namazına kimi ağanın dediklərini gətirərmişlər. Mirabbas ağa da onun dediklərini yerinə yetirərmiş. Ağanın dediklərində nə bir artıq, nə bir əskik yoxmuş.

Kərbəlayi Miryaqub ağa çox kəramətli seyidlərdən olub. Günlərin bir günü Vedi rayonunun Xalsa kəndindən Məhərrəm adında bir kişi ot almaq üçün Sədərək kəndinə gəlib. O, kənddə kimdə ot olduğu ilə maraqlanıb. Ona deyiblər ki, Miryaqub ağada ot var. Məhərrəm kişi ağanın evinə gəlir, ağa ilə uzun söhbət edir. O, ağanın kəramət sahibi olduğunu görüb ona sual vermək istəyir. Ancaq abrından utanıb, çəkinir. Ağa onun sözlü olduğunu görüb nə dərdi olduğunu soruşur. O, ağaya deyir ki: "Mənim bir müşkülüm var". Ağa onda deyir: "Nə dərdin var

de, biz də dua edərik”. Məhərrəm çəkinərək ağaya deyir: “Ağa, mənim övladım olmur, dua elə bizim də üzümüz gülsün. Artıq neçə illərdir ki, mən evliyəm”. Miryaqub ağa Məhərrəm kişini yola salandan sonra ona sidqi-ürəkdən dua edir. Bu hadisədən bir il sonra Məhərrəm kişi bir erkək dananı Miryaqub ağaya nəzir gətirir və deyir ki: “Mən keçən il burdan çıxanda ocağına nəzir demişdim ki, mənim bir övladım olsun. Allaha şükürlər olsun ki, bu gün mənim oğlan övladım olmuşdur. Elə buna görə də bu heyvanı sənin ocağına nəzir gətirmişəm. Bu, sizin cəddinizin bərəkətindəndir”. Miryaqub ağa övladlarına göstəriş verir ki, bu heyvanı kəsib camaata paylasınlar. Uzun söhbətdən sonra öz qəlbində bir niyyət tutub ocaqdan ayrılır. Bir müddətdən sonra Məhərrəm kişinin ikinci oğlan övladı olur - Cəmşid və Məhəmməd adında. Məhərrəm kişi niyyət etdiyi kimi övladlarına Miryaqub ağanı kirvə tutur. Bu kirvəlik yetmiş ildir ki, davam edir. Hal-hazırda bu kirvəliyi Füzuli, Nizami, Telman qardaşları davam etdirirlər.

Miryaqub ağanm ən böyük kəramətlərindən biri də Sədərək kəndində Səlimlər tayfasında olmuşdur. Belə ki, bu tayfada iki uşaq çox ağır xəstələnir. Onların istiliyi o qədər çox olur ki, ölüm yatağına düşürlər. Uşaqların anası Səkinə xanım çox narahat olur. O, yola çıxır, ağanı

görür və dərdini ağaya deyir. Miryaqub ağa həyətə daxil olur və uşaqları görür. O, uşaqların anasına deyir ki: "Mənə bir az pambıq gətir. Pambığı eşərək dua oxuyub uşaqların qoluna bağlayır. Durub həyətdən çıxanda uşaqların anasına deyir: "Hindəki qara toyuğu gətir". Halbuki hindəki toyuqlardan heç kəsin xəbəri yox idi. Uşaqların anası təəccüblə ağanın dediyi kimi hinə tərəf gedib, hindəki qara toyuğu gətirib ağaya verir. Əli versə də, könlü razı olmur. Çünki müharibə dövrü idi, toyuğun verdiyi bir yumurta uşaqların səsini kəsirdi. Miryaqub ağa toyuğu alıb həyətdən çıxan kimi qonşunu səsləyir. Ağa toyuğu ona verib deyir: "Qızım, al bu toyuq sizin həyətdə olsun. Sizin həyətdə toyuq yoxdu". Onlar kasıb ailə imişlər. Bu hadisədən bir az keçəndən sonra ağır xəstə olan uşaqlar – Abbas və Yusif ayağa qalxıb analarından yemək istəyirlər. Bu iki qardaş Miryaqub ağanın gələcəkdə də kəramətini görəcəkdi.

Abbas və Yusif qardaşları 15-16 yaşlarında əmiləri Bayram kişi ilə birlikdə heyvandarlıqla məşğul idilər. Kənddən 8-10 km aralı Qarxanoy deyilən yerdə - fermada Miryaqub ağanın bir danasını saxlayırdılar. Qardaşların qaldığı damda bir ov tüfəngi var idi. Lakin tüfəngin lüləsində güllə şişib qalmışdı.

Abbas istəyirdi ki, onu çıxarsın, bunun üçün

çox əziyyət çəkdi, axırı əsəbləşib tüfəngi divara çırpdı. Tüfəng atəşlənib dananın qaşqasından dəyir və heyvan haram olur. Qardaşlar çox qorxurlar. Heyvanı tövlədən çıxarmaq istəyirlər, lakin danaya gücləri çatmır. Onlar çölə çıxıb bir ağacın kölgəsində oturub fıkirləşirlər ki, ağaya nə cavab verəcəklər. Bu vaxt onlara tərəf bir atlının gəldiyini görürlər. Qardaşlar təşvişə düşürlər. Çünki ağa 10 gündən bir dananı yoxlamağa gəlirdi. Ağa gəlib çatır, atdan düşüb salam verir və qardaşlara deyir: "Qorxmayın, gəlmişəm deyəm ki, dana halal xoşunuz olsun. Heyvana görə narahat olmayın. Bu sözlərimi Bayram kişiyə deyərsiniz" – deyib, atına minib yola düşür. Qardaşlar bu hadisədən çox təəccüblənirlər. Çünki onlardan başqa bu hadisədən heç kəsin xəbəri yox idi.

Bu hadisə Miryaqub ağanın bəsirət sahibi olduğunu bir daha sübut edir. Onu da bilmək lazımdır ki, bu dünyada hər hansı bir yaxşı və ya pis əməllərin nəticəsini axirətdə öz sahibinə qaytaracaqlar. Allah-təala öz müqəddəs kitabında belə buyurur: ***"Hər bir şəxs bu dünyada zərrə qədər yaxşı iş görmüşdüsə, onun xeyrini görəcəkdir. Hər bir şəxs zərrə qədər pis iş görmüşdüsə, zərərini də görəcəkdir" (Zəlzələ surəsi, 7-8-ci ayələr).***

Başqa bir yerdə Ulu Tanrı belə buyurur: ***"Həqiqətən Allah-təala zərrə qədər zülm etməz.***

***Əgər yaxşı bir iş görmüş olsa, onu iki qat artırar və öz tərəflərindən də ona onun bərabərində böyük mükafat verər (Nisa surəsi, 40-cı ayə)".*** Başqa bir sadə misalla desək, insanın əməli öz kölgəsinə və ya anasının əlindən tutan uşağa bənzər. İnsan da öz əməlini Allahın razılığına görə etsə qiyamət günü utanmaz.

Günlərin bir günündə Vedi rayonunun Cəfərli kəndindən bir ağsaqqal kişi Miryaqub ağanın evinə gəlir: "Ağa, mən bu yaxınlarda evə gəlin gətirmişəm. O, suya gedəndə onu cin tutub, havalanıb. Camaatın içində üst-başını açıb tökür. Biz də məcbur qalıb onu həyətdəki tut ağacına bağlamışıq". Miryaqub ağa Qurban kişini öz atının tərkinə qoyur yola düşürlər. Bu hadisəni Qurban kişinin özü nağıllayırmış ki: – Miryaqub ağa məni atın tərkinə aldı. Biz Cəfərli kəndinə tərəf yola düşdük. Həmin ağsaqqalın həyətinə daxil olanda gördük ki, bir qadını iplə ağaca bağlayıblar. Miryaqub ağa atdan düşdü və bir cam su istədi. Suyu ona gətirdilər. Ağa suya bir neçə Quran kəlamları oxuyub üflədi. Sonra gəlinə yaxınlaşıb suyu gəlinin üzünə çırpdı və yanındakılara dedi ki, gəlin qızən əllərini açın. Ev sahibləri tərəddüd etsələr də, ağanın sözündən çıxmadılar. Onlar gəlinin əl-ayağını açan kimi gəlin abır edib üzünə yaşmaq çəkdi. Miryaqub ağa gəlinə dedi: "Qızım, səhəngi götür, get bulaqdan su gətir, bizə çay qoy. Biz uzaq yoldan

gəlmişik". Gəlin səhəngi götürüb suya getdi. Ev sahibi hələ də təəccüb içində idi. Bir az sonra gəlin Miryaqub ağaya çay gətirdi. Miryaqub ağa Qurban kişini də götürüb Sədərəyə qayıdırlar. Həmin gəlin evlərində xoşbəxt yaşayıb və altı övladları olub.

Həqiqətən də Allah istədiyi neməti istədiyi bəndələrinə verər. Dünyada maddi olmayan ləzzətlər də var insan nəfsini tərbiyə etməklə ibadətdən böyük ləzzət ala bilər. Əslində dünya nemətləri içərisində olan ən üstün ləzzət "namazdan duyulan ləzzətdir". Allah-təala bu ləzzəti yalnız saf bəndələrinə hədiyyə olaraq daddırır. Onlara məxsusi bu neməti verir. Uca rəbbimiz Qurani-Kərimdə buyurur: ***"Heç kəs bilməz ki, onlara etdikləri əməllərin əcri olaraq gözlərini işıqlandıracaq necə şeylər gizlədilmişdir".*** Bəli, ibadətdən aldığı bir anlıq ləzzəti bütün dünyaya dəyişməyən bəndələr var. Bunun ən bariz nümunəsi Kərbəla qəhrəmanlarıdır. Necə ki, məhərrəm ayının doqquzunda Tasura günü İmam Hüseyn (ə.s.) öz əshabini bir yerə yığıb belə dua etmişdir: ***"Mən Allahıma çətinliyə və rahatlığa görə ən yaxşı şükürlər edirəm. Ey Rəbbim, bizi nübuvvət şərəfi ilə əzizlədiyin üçün sənə şükür edirəm. Sən bizə təlim edib dinin müşkül məsələlərini agah etdin. İlahi, sən bizə eşidən qulaq, görən göz və agah ürək verdin. İlahi, bizi sənə şükür edənlərdən qərar ver".***

Bu cür ibadətin ləzzətini bilən mövlamız və ağamız İmam Hüseyn (ə.s.) bizlərə nümunədir. Məhz Kərbəlayi Miryaqub ağa ċəddi İmam Hüseyn (ə.s.) özünə nümunə seçmişdi. O, həqiqi Hüseyn aşiqi idi. Buna görə də ömründə on yeddi dəfə Kərbəla ziyarətinə getmişdi. Bununla da ürəyi rahat olmamışdı. Bu səfərlərin beş dəfəsini piyada Sədərək kəndindən Kərbəlaya qədər getmişdir.

Kərbəlayi Miryaqub ağa atdığı hər addımda bir təsbih demiş və salavat çəkmişdir. Bu hadisənin şahidləri çoxdur. Biri də Kərbəlayi Salman kişidir. Kərbəlayi Salman Kərbəlayi Miryaqub ağa haqqında çoxlu hadisələr danışmışdı.

Böyük Vətən Müharibəsi illərində Azərbaycanın hər yerində olduğu kimi, Sədərək kəndindən də cəbhəyə çox adamlar getmişdi. Sədərəkdən 1941-ci ildə müharibəyə çağrılmış Vəli kişi 1945-ci ilə qədər müharibənin bütün çətinliklərini görmüşdü. Belə ki, bu illərdə bir neçə dəfə yaralanmış, amma sağalıb yenidən müharibəyə getmişdi. O, müharibənin son günlərində Berlinin küçə döyüşlərində mühasirəyə düşür. Vəli kişi düşmən mərmilərindən başını qaldıra bilmirmiş. Onun bu çətin anında Miryaqub ağa yadına düşür. Vəli kişi qəlbən çox inanclı bir insan idi, O, Miryaqub ağanın böyük kəramət sahibi

seyidlərdən olduğunu bilirdi. Ona görə də Miryaqub ağanın cəddini çağırıb niyyət edir ki; “Əgər bu mühasirədən çıxıb sağ-salamat evə qayıtsam, evdəki samovar dəstini və alacağım ilk məvacibimi Miryaqub ağaya nəzir edəcəm”. Bir az sonra Sovet əsgərləri gəlib mühasirəni yarırlar. Vəli kişi sağ-salamat mühasirədən qurtarır.

Artıq müharibənin son günləri idi. Sovet ordusu faşistlər üzərində qələbə çaldı. Müharibənin ilk günlərində çağrılan əsgərləri ehtiyata buraxdılar. Vəli kişi bunların arasında idi. O, məvacibi alanda Miryaqub ağa onun yadına düşür. Vəli kişi şinelini kəsib aldığı pulu ora tikir. O, üç aydan sonra evinə gəlib çatır. Bir neçə gün evində qonaq qəbul etdiyi üçün baş qarışır, nəziri vermək bir qədər ləngiyir. Nəhayət, bir gün kəndin mərkəzinə çıxır. O, yol ilə gedərkən Miryaqub ağa ilə qarşılaşır. Vəli kişi ağanın yanına gəlib onunla görüşür, bir az söhbətdən sonra Miryaqub ağa Vəli kişiyə deyir: “Vəli, müharibədən sağ-salamat qayıdıbsan. Orada dediyin nəziri niyə gətirmirsən?”. Bunu eşidən Vəli kişi çox təəccüblənir. Çünki, bu barədə heç kimə bir kəlmə də olsun deməmişdi. O, evə gedib şinelin paqonundakı pulu çıxarır və samovar dəstini götürüb ağaya gətirir. Miryaqub ağa samovar dəstini kənddəki çayxanaya bağışlayır. Pulu

isə xırdalayıb kasıblara paylayır. Miryaqub ağa bax belecə xalq arasında gözəl rəftarı ilə seçildiyi kimi başqalarına, xüsusilə də gənc nəslə həmişə nümunə olmuşdur. Həzrət Əli (ə.s.) nümunəvi şəxslər barədə belə buyurur: ***“İmanlı mömin şəxs özünü həmişə əzab-əziyyətə qərar verər. Camaat isə onun sayəsində əxlaqının nurundan asayişdə rahat yaşayırlar”.***

Kərbəlayi Miryaqub ağa çox səxavətli seyidlərdən biri idi. Belə ki, kəndin mərkəzindən keçən çayın bir tərəfindən o biri tərəfinə keçməyə camaat çox əziyyət çəkirmiş. Miryaqub ağa öz şəxsi vəsaiti hesabına kənddə ilk dəfə körpü saldırmışdır. İnsanlar bu körpüdən istifadə edib ağanın ruhuna həmişə fatihə oxuyurmuşlar. Körpünün tikintisində taxta-şalbanı İrandan gətirmişlər. Bu işdə işləyən fəhlələrdən bir nəfər gətirilən mallardan iki taxta və bir az da düyü oğurlamışdı. Bu hadisədən bir müddət keçəndən sonra həmin adam ölüm yatağına düşür və sayıqlamağa başlayır: “Üstümdən taxtanı götür, üstümdən düyünü götür” - deyir. Xəstənin yaxınları təəccüblə xəstədən soruşurlar. Xəstə birtəhər əhvalatı danışır. Xəstənin yaxınları gəlib ağaya olan hadisəni danışırlar. Onlar ağadan xəstəyə halallıq verməyi xahiş edirlər. Miryaqub ağa gələn adamlarla bir yerdə xəstənin yanına gedir. Xəstənin vəziyyətini görüb başının üstündə bir neçə dua oxuyub ona haqqını halal

edir. Bir az keçir xəstə canını tapşırır.

Olan hadisələrdən biri də budur. 1937-ci ildə repressiyanın ən şiddətli vaxtları idi. Belə ki, o zaman Sovet quruluşu Azərbaycanın hər yerində olduğu kimi, Naxçıvanda da amansız repressiya həyata keçirirdi. Alimləri, din xadimlərini, xalqın başbilənlərini tutub Azərbaycandan sürgün edirdilər. Məscidləri anbara çevirir, bağlayırdılar. Haqsızlıq hər yerdə baş alıb gedirdi. İnsanlar gecə çölə çıxa bilmir, Stalinin casusları hər yerdə gəzirdilər. Günlərin bir günü Sədərəyə gəlirlər. Onlar yaxşı bilirdilər ki, Miryaqub ağa bu eldə nüfuzlu şəxslərdən biridir, ona görə də onu bu eldən sürgün etmək istəyirdilər. Onların əsas bəhanələri bu idi ki, özlərini camaata qurban verən bu insanların qəbirlərini məscidin həyətindən çıxarıb qəbiristanlığa basdırsınlar. Məmurlar birbaşa məscidə gəlib Miryaqub ağanı ora çağırırlar. Miryaqub ağa səbrlə məscidə tərəf yola düşür. Ağa məscidin həyətinə daxil olur, hamıya salam verib məmurlardan soruşur: “Nə olub, məni niyə çağırmısınız?” Məmurlar Miryaqub ağaya kinli baxışlarla baxıb deyirlər: “Bu qəbirlər kimin qəbirləridi? Niyə məscidin həyətində basdırmısınız?” Miryaqub ağa onlara deyir: “Bunlar mənim babam və əmimin qəbridi, bu kəndə vəba xəstəliyi gələndə özlərini kəndə

qurban veriblər". Onlar Miryaqub ağaya istehza ilə baxıb deyirlər: "Boş-boşuna danışma". Bu söz ağanın qəlbinə toxunur. Bu vaxt məscidin həyətinə kənd sovetindən bir adam gəlib məmurlara deyir: "Sizi Naxçıvandan telefona çığırırlar". Onlar telefona cavab verməyə gedəndə Miryaqub ağa qəbirlərin yanında oturub ağlayaraq Allaha yalvarır ki: "İlahi, sən özün kömək ol ki, bu qəbirlər burdan çıxmasınlar". Məmurlar gəlib görürlər ki, Miryaqub ağa ağlayaraq dua edir. Məmurun biri ağaya deyir ki: "Sən kimdən kömək istəyirsən? Onsuz da sənə heç kəs kömək olmayacaq. Bizi Naxçıvandan çağırırlar. Mən sabah gələcəm və gəlib görəcəm ki, bu qəbirlər burda yoxdu, qəbiristanlıqdadı. Belə olmasa səni Sibirə sürgün edəcəm". Bu sözü eşidən ağa onlara belə cavab verir: "İnşallah, siz bu kənddən sağ çıxmazsınız. Bu seyidlərin cəddi sizə qənim olar". Onlar gülümsəyərək maşına oturub kənddən çıxıb gedirlər. Bu söhbətlərdən camaat da çox narahat olur. Çünki, Miryaqub ağanın kəramət sahibi olduğunu bilirdilər. Hava yavaş-yavaş qaralırdı. Artıq ağa evinə gəlmişdi. Birdən səs-küy düşür. Görürlər ki, bir qərib adam həyətə daxil olur. Onun üst-başı qan içində idi. Bu həmin məmurların sürücüsü idi. Ağa evdən həyətə çıxanda sürücü ağanın ayaqlarından yapışıb ağlayaraq yalvarırdı ki, mənim bu işdə heç bir günahım yoxdur. Mən

sadəcə sürücüyəm. Ağa evdəkilərə deyir ki, sürücünün yaralarını sarısınlar. Ağa sürücüdən soruşur: “Nə baş verib? Bir danış görüm nə olub?”. Sürücü dilə gəlib deyir: “Ağa, kəndin çıxacağında maşının təkərləri partladı və maşın yolun kənarındakı dərəyə düşdü və içindəkilər öldülər. Mən maşından çıxıb yolun kənarında qalmışdım, kəndə gələn bir maşın məni xilas etdi. Sürücüdən xahiş etdim ki, məni sizin evinizə gətirsin ki, sizdən halallıq alım”. Ağa yerindən durub sürücüyə yaxınlaşdı və dedi: “Mən bilirdim ki, sənin bu işdə günahın yoxdur. Ona görə də Allah səni bu bəladan saxlayıb”. Ağa sürücünü həmin gün evində qonaq saxlayıb, onunla xeyli söhbət edir. Ağa sürücüyə deyir ki, mənim cəddim İmam Baqir (ə.s) mömінin və kafirin niyyəti, əməlləri barədə belə buyurur: ***“Mömin şəxsin niyyəti yerinə yetirdiyi əməllərdən çox yaxşıdır, bu cəhətdən ki, imkanı, şəriəti yoxdur ki, nəzərdə tutduğu niyyətlərini yerinə yetirsin. Lakin kafirin niyyəti həyata keçirdiyi bəd əməllərdən də çox pisdir, qorxuludur bu cəhətdən ki, imkanı, şəraiti yoxdur ki, nəzərdə tutduğu bəd niyyətlərini həyata keçirsin”.*** Miryaqub ağa belə misallar çəkib sürücüyə haqqı, ədaləti başa salırdı. Səhəri günü sürücünü yola salanda onun üzündən görünürdü ki, ağanın söhbətləri ona çox yaxşı təsir bağışlayıb.

Kənd sakini olan Abbas kişinin də qəlbində bir arzu var idi. Abbas kişinin 4 qız övladı var idi. O, həmişə oğlan övladı arzu edirmiş. Günlərin bir günü o, gəlib ağanın onun üçün dua etməyini xahiş edir. Miryaqub ağa Abbas kişinin xahişini qəbul edir və ona deyir get evinə Allah-Kərimdir. Bu dəfəki övladın oğlan olar, inşallah. Adını da Abutalıb qoyarsan. Həqiqətən də Abbas kişinin oğlan övladı olur, adını da Abutalıb qoyurlar. İndi Hacı Abutalıb Miryaqub ağanın ehtiramını saxlayan insanlardandır. Belə oxşar hadisələr Miryaqub ağanın həyatında çox olmuşdur. Bir nəfər kasıb adam da övladı olsun deyə ağaya öz qoruğundan yonca nəzir demiş və övladı olmuşdur. Miryaqub ağa gətirilən yonca bağlarını mal-heyvanı olanlara paylamışdır.

"Səxavət kərəm səciyyəsindən doğur və cəmiyyətdə fərdlər arasında məhəbbəti bərqərar edir. Səxavətli şəxsin hər hansısa bir eybi olsa xalq onu sevməkdə davam edir". Sədərək kənd sakini olan Qazıyev Şamil kişinin dilindən deyilən sözlərdir. Hal-hazırda Şamil kişi Sədərəkdə yaşayır. Deyir ki, mən ömrüm boyu sürücü işləmişəm. O vaxt hələ erməni-müsəlman davası yox idi. 1987-ci ilin əvvəlləri idi. Mən Gəncə şəhərindən Sədərəyə yük gətirirdim. Ağır yük maşını sürürdüm. Axşam saat 5-6 olardı ki, Gəncə şəhərindən yükü vurub yola çıxdım. Hava həm soyuq, həm də dumanlı idi. Maşını

işə salanda dedim ki: "Təvəkkül Allaha, gecəyə düşəcəyik" və qəlbimdən keçdi ki: "Ya Kərbəlayi Miryaqub ağanın cəddi mənə kömək ol, evimə sağ-salamat çatım, nəzir edirəm ki, kəndə çatanda ağanın ruhuna Yasin oxutduracağam" - bunu deyib yola düşdüm. Gəlib Qazax rayonunu keçəndə hava lap qaralmışdı. Ondan sonra yolun ən çətin hissəsi, Dilican aşırımları idi. Hava dumanlı olduğundan mən maşını çox diqqətlə idarə etməyə çalışırdım. Birdən heç özüm də bilmədən maşın yoldan çıxdı. Az qalırdı ki, maşın dərəyə düşsün. Özümdən asılı olmayaraq çox qorxdum və dedim ki: "Ya Kərbəlayi Miryaqub ağanın cəddi mənə kömək ol". Bunu demişdim ki, necə oldusa sanki bir əl maşını götürüb düz yolun ortasına qoydu. Nəhayət, Allaha şükürlər olsun ki, sağ-salamat gəlib kəndə çatdım. Artıq səhər saat təxminən 11-12 olardı. Mən maşının yükünü boşaltmamış düz kəndin mərkəzinə sürdüm ki, həm bir stəkan çay içim, həm də ki, görüm mollalardan kim var, ağanın ruhuna Yasin oxutdurum. Maşını körpünün yanında saxlayıb yerə düşdüm, çayxanaya girdim. Bu an Miryaqub ağanın oğlu Müzəffər ağa məni görüb dedi: "Şamil, çox şükür ki, sağ-salamat gəlibsən. Mən bu gecə yuxumda görmüşəm ki, sən çətin dağ yolları keçirsən. Ağam Miryaqub da sənə öz əlləri ilə kömək edir və deyir ki,

Şamilə deyərsən ki, mənə Yasin oxutdursun Molla Sadığa". Mən bir daha təəccübləndim. Axı mən bu barədə heç kəsə heç nə deməmişdim. Bir də necə ola bilər ki, mən kəndə indi çatmışam. Mənim başıma gələn bu əhvalatı çayxanadakı camaata danışdım. Onlarla bir yerdə Miryaqub ağanın ruhuna salavat dedik.

Allahı tanımaq və qeyb aləminə iman gətirib axirətə yəqinlə inanan şəxslər haqqında Allah-təala müqəddəs kitabında belə buyurur: ***"O kişilər ki, qeyb aləminə inanıb namaz qılır və onlara verdiyimiz ruzidən infaq edir axirətə də şəksiz inanırlar" (Bəqərə surəsi, 3-4-cü ayə).***

Miryaqub ağa xalq arasında çox gözəl rəftarı ilə seçildiyi kimi, həmişə başqalarından xüsusilə öz əxlaqı ilə seçilirdi. Həzrəti Əli (ə.s) buyurur: ***"Həyanın zirvəsi insanın özü-özündən həya etməsidir".***

Ağanın ən böyük və yadda qalan kəramətlərindən biri də bu idi ki, ağa öz zəvvar dostları ilə Kərbəla ziyarətindən qayıdırdı. Bu səfər Miryaqub ağanın sonuncu səfəri imiş. Bu hadisəni bir neçə adam söyləyib. Bunlardan biri Hacı Abdullanın atası Kərbəlayi Salman kişi deyirdi ki: "Biz Kərbəlanı ziyarət edib, bütün hazırlıqları görüb vətənə qayıdırdıq. Demək olar ki, 40-50 km yol gəlmişdik. Hamılıqla qərara aldıq ki, çadırları quraq, istirahət edək. Bizimlə birlikdə qonşu kəndlərdən və Şərurdan zəvvarlar

var idi. Bu zəvvarların on altısı Sədərəkdən idi. Zəvvarlar arasında 4 nəfər qonşu kənddən çox cavan yeniyetmə də var idi. Bu cavanlar tez-tez öz aralarında zarafat edərdilər. Bunlar bu dəfə də sözlərini bir araya qoyub, öz aralarında belə qərara alıblar ki, Miryaqub ağa ilə zarafat etsinlər. Biz hamılıqla çadırları qurduq ki, istirahət edək. Uşaqlar samovar saldılar, yemək hazırladılar. Miryaqub ağa yavaş-yavaş atınan karvanın arxasınca gəlirdi. O, atdan düşdü, dəstəmaz aldı (o, həmişə tez- tez dəstəmaz alardı, bu onun adəti idi). Cavanlar ona tərəf gəlib dedilər: "Ağa, biz Kərbəladan çıxanda bizə vəsiqə kimi bir sənəd veriblər ki, biz həqiqətən Kərbəla ziyarətini etmişik. Bu sənəddən sən də alıbsan? Miryaqub ağa bu sözlərdən təəccübləndi, çox narahat oldu və tez ağ atına mindi, elə atın üstündə üzünü mənə tutub dedi: "Salman kişi, mən gedirəm Kərbəlaya o kağızdan mən də alam. Siz yaxşı olar ki, məni gözləməyin, istirahət etdikdən sonra yolunuza davam edin. Mənə görə narahat olmayın, mən arxadan gəlib inşallah sizə çataram".

Ağa çox tələsirdi. Bunu deyib atını Kərbəlaya tərəf sürdü, sanki onu kimsə çağırırdı. Təpəni aşıb gözdən itdi. Biz oradakılar hamılıqla cavanları danladıq ki, siz qoca kişi ilə belə rəftar etdiniz. İndi o, çox əziyyət çəkib, yol gedib, geri qayıdacaq. Mən bu işə görə çox

narahat idim. Bu cavanlar etdikləri bu əmələ görə çox peşiman oldular. Onlar atlarını yəhərləyib ağanın arxasınca getmək istəyirdilər ki, bu vaxt təpənin arxasından ağanın ağ atı göründü. Qəlbən çox sevindik ki, ağa çox uzaqlaşmayıb. Ağa bizə çatana qədər cavanları başa saldıq ki, ağa gəlib sizə bir söz deyər, siz ona bir kəlmə də cavab verməyin. O həm seyiddi, həm ağsaqqaldı, günah sizin özünüzdədir.

Ağa yavaş-yavaş gəlib biz olan yerə çatdı. Atdan düşdü. Onun rəngi ağappaq olmuşdu. Əvvəl biz onu başa düşmədik, elə bildik ki, aldandığına görə belədi. Heç kəs cürət edib ona bir söz demədi. Mən bu günə qədər Miryaqub ağanı belə görməmişdim. Ağa bizdən su istədi. Biz hamılıqla ona xidmət etmək istəyirdik. Tez ona su verdik. O, suyu içəndən sonra şükür etdi. Bir az gözlədi. Hamının diqqəti ağada cəmlənmişdi. Sonra ayağa durdu. Artıq özünə gəlmişdi. Bunu onun sifətindən hiss etmək olurdu. Biz istədik ki, ağadan üzrxahlıq edək. Ancaq o, əli ilə işarə etdi ki, danışmayın. Özü sözə başladı: “Bilirsiniz mən niyə qayıtdım?”. Heç kəs dinmədi. Miryaqub ağa sözünə davam etdi: “Mən Kərbəlaya gedirdim, o təpələri təzə aşmışdım ki, gördüm Ağam İmam Hüseyn (ə.s) özü məni qarşıladı”. Bunu deyib Miryaqub ağa susdu. Heç kəs dinmirdi. Axı bu necə ola bilər. Bu ki, həqiqi möcüzədir. Bir də ki, Miryaqub ağa heç vaxt yalan danışan adam

deyil. Ancaq dediyi söz çox qəribədi. Miryaqub ağa ayağa durdu və əlini salıb çuxasının altından bir yumru bükülmüş, qıraqları ipək sapla hörülmüş ipləri olan bir kağız çıxardı. Biz hamımız çox təəccübləndik. Ağa asta-asta kağızları açdı və məktubu bizə göstərdi. Biz istədik ki, təbərrük olsun deyə əlimiz o məktuba dəysin. Ağa bizə icazə vermədi ki, siz buna layiq deyilsiniz, əlinizi vurmayın, ancaq baxa bilərsiniz. Hamılıqla məktuba yaxından baxdıq, məktubdan çox gözəl müşk iyi gəlirdi. Məktub ərəb dilində gözəl xətlə yazılmışdı. Məktub Kərbəlayi Miryaqub ağa haqqında idi və məktubun sonunda İmam Hüseyn (ə.s) möhürü vurulmuşdu.

Bu həqiqətən çox böyük kəramət idi. Həmin hadisədən sonra zəvvarlar bildilər ki, Miryaqub ağa Allahın dostlarındandır. Vətənə qayıdana qədər zəvvarlar arasında ona çox böyük hörmət və ehtiram olunurdu.

Həmin məktub Miryaqub ağa Allahın rəhmətinə qovuşana qədər bizim ocaqda idi. Bu məktubu bir çox adamlar öz gözləri ilə görüblər. Ancaq Miryaqub ağa dünyasını dəyişəndən sonra məktub yox oldu. Allah-təala belə şəxslər haqqında belə buyurur: ***"Onu bilin ki, Allahın dostlarının, övliyalarının heç bir qorxusu yoxdur. Onlar qəm-qüssə etməzlər. Şübhəsiz, Allah bizim***

***rəbbimizdir deyəndən sonra da öz imanlarına sadiq qədəmlə qalanlara rəhmət mələkləri nazil olub, onlara belə müjdə verərlər. Qorxmayın və kədərlənməyin. Peyğəmbərlərin vəd verdikləri behiştlər sizin üçündür" (Fussilət surəsi, 30-cu ayə).***

Kərbəlayi Miryaqub ağa 1950-ci ilin yanvar ayının 9-da Sədərək kəndində rəhmətə getmişdir. O, 63 il çox şərəfli ömür sürmüşdür. Qəbri nurla dolsun. Amin!


Seyid Müzəffər
Ağa

* * *

Miryaqub ağanın beş oğlu, bir qızı olmuşdur. Kərbəlayi Miryaqub ağanın birinci övladı Müzəffər ağadır. O, 1921-ci ildə Sədərək kəndində Seyidlər ocağında dünyaya göz açıb. Müzəffər ağının həyatı çox keşməkeşli olub. O, öz ata-babalarının inandığına iman gətirən bir dindar kimi Allahın lütf və inayətinə çatmaq üçün Uca Rəbbimizin yaxınlığını, dostluğunu, mərhəmətini və razılığını qazanmaq üçün bu yolda daimi cani-könüldən çalışıb. O, yaşadığı bu illərdə evin böyük oğlu olduğu üçün atasına hər cür kömək edir, əkinçilik və təsərrüfatla məşğul olurdu. Müzəffər ağanın ömrünün ən çətin illəri Böyük Vətən müharibəsi illərinə təsadüf edir. Belə ki, Müzəffər ağa 1941-ci ildə vətənin müdafiəsinə yola düşür və 1945-ci ilə qədər vətənin azadlığı uğrunda vuruşur. O, bir neçə dəfə müharibədə ağır yaralanır. Lakin sağaldıqdan sonra yenə də müharibənin ön sıralarına vuruşa yola düşür. Müharibə qurtardıqdan sonra ağa öz doğma kəndinə qayıdır. Ağa həmişə çox təəssüflə deyirdi ki: “Mən Ukraynanın azadlığı uğrunda gedən döyüşlərdə qardaşım Mirəlini gördüm. Bu bizim son görüşümüz oldu”.

Ağanın həyatında ən çətin illərdən biri də bu olub ki, 1946-cı ildə əmisi Qəzənfər ağa və

Mirsəccad ağanın uşaqlarından ayrılır. Çünki onları öz doğma ocaqlarından uzaq ellərə sürgün edirlər. Onların bu ayrılığı 20 il sürür. 20 ildən sonra qovuşurlar.

Müzəffər ağa əməli-saleh adam olduğu kimi, həm də tarixi bilən insan idi. O, Sədərək kəndinin və onun insanlarının, tayfalarının tarixini çox yaxşı bilirdi və bizlərə izah edirdi. Elə bu kitabın yazılma səbəbinin biri də Müzəffər ağanın bizlərə öz ata-bablarımızın keçmişini, onların şəxsiyyətini və ocağımızda olan kəramətləri dönə-dönə, geniş və ətraflı şəkildə danışması idi. Bizlərə də vəsiyyət edərdi ki, bunları yaxşı yadda saxlayın və gələcək nəsillərə çatdırın.

Müzəffər ağa da kəramətli seyidlərdən olub. Belə ki, Sədərək kənd sakini Heydərov Vəli ağır xəstə olub. Ağa onun ziyarətinə gedib. Çünki Vəli kişi çox qeyrətli və seyidlərə daim hörmət edən və onların ehtiramını saxlayan bir dindar olub. Müzəffər ağa Vəli kişidən soruşur ki, ürəyin nə istəyir? O, Müzəffər ağaya cavabında: "Artıq mənim üçün çox gecdi. Bircə Allah mənə bir-iki ay möhlət verəydi ki, oğlum Akifı görəydim. Axı əsgərliyini qurtarmağına az qalıb". Müzəffər ağa bu sözləri eşidəndə gözləri yaşla dolur, öz əynindəki gödəkçəni çıxarıb Vəlinin əyninə geyindirir və ona çoxlu dua edir. Vəli kişi bu hadisədən sonra üç ay

yaşayır və oğlu Akifi görür. Allah-təala hər ikisinə də rəhmət eləsin. Amin!

Müzəffər ağa 1989-cu ilin yanvar ayının 25-də Sədərək kəndində vəfat edib. Qəbri atası və qardaşlarının yanındadı. Ağanın altı övladı olub. Gülən, Məhərrəm, Lətif, Mirağa, Banu və Seyidəbəyim. Müzəffər ağanın oğlan nəvələrindən İlkin və İntiqam bu gün biz Seyidlər ocağına ağadan yadigardır.

* * *

Kərbəlayi Miryaqub ağanın ikinci övladı Mirəlidir. O, 1918-ci ildə Sədərək kəndində Seyidlər ocağında dünyaya gəlmişdir. Mirəli böyüyüb boya-başa çatır və hərbçi olmaq qərarına gəlir. Hərbi məktəbə daxil olub, oranı fərqlənmə diplomu ilə bitirir. O, 1939-cu ildə gənc zabit kimi məzun olur. Və elə o vaxt da hərbi xidmətə gedir, sonra 1941-ci ildə məzuniyyətə kəndə gəlir, on gün qalandan sonra Böyük Vətən müharibəsinə yola düşür və bir daha geri dönmür. Onunla yalnız Müzəffər əmi bir dəfə təsadüfən cəbhədə görüşürlər. Rəhmətlik Səkinə nənə deyərdi ki, Mirəlini ağasının qarğışı tutdu. O, bu əhvalatı belə danışardı: Biz yaylağa getmişdik. Mirəlinin nişanlısı qonşu obada idi. Mirəli atası Miryaqubdan icazə almadan ağanın atını götürüb getmişdi. Atı o qədər bərk sürmüşdü ki, heyvan obaya çatanda ürəyi partlayıb öldü. Bunu görən ağası çox hirsli halda üzünü Mirəliyə tutub dedi: “Səni itkin düşəsən”. Elə o vaxtdan bu sözü yaddan çıxara bilmirəm. Səkinə nənə həmişə bu sözləri deyərək öz oğlunun yolunu intizarla gözləyirdi. Həqiqətən də Mirəlidən heç vaxt bir xəbər, bir soraq çıxmadı.

Müharibədən sonra lap son vaxtlara qədər Mirabbas və Səttar əmim nə qədər etdilərsə,

hara yazdılarsa, qardaşlarından bir məlumat, bir xəbər əldə edə bilmədilər. Mütəal Allahın bəzi insanları fəqir, bəzisini xəstə, bəzisini sağlam, bəzisini müəyyən bəlalarla, bəzisini asayiş içində qərar verməsinin səbəbini bilməsək də, ümumi şəkildə bilirik ki, nemət, əzizlik, məhrumiyyət, mərhəmətdən uzaqlıq nişanəsi deyil. Əksinə, Allah sevdiyi bəndələrinə axirətdə böyük səvab və əcr verməsi üçün bu dünyada həmin bəndələrini müəyyən çətinliklərə və bəlalara düçar edir və onları bu yolla imtahana çəkir. Həzrət Əli (ə.s)-dan nəql olunmuş bir rəvayətdə deyilir: ***"Bəla və çətinlik zalimlər üçün cəza, möminlər üçün imtahan, Peyğəmbərlər üçün məqam, övliyalar üçün isə kəramətdir".*** Şübhəsiz ki, bu müsibətləri öz səbirləri ilə ram edən bəndələr Allahın sevimli bəndələridir. Mütəal Allah müqəddəs kitabı Qurani-Kərimdə buyurur: ***"Yer üzündə baş verən, sizin başınıza gələn elə bir müsibət yoxdur ki, dünyada baş verməmişdən qabaq kitabda yazılmamış olsun. Bu Allah üçün çox asandır" (Hədid surəsi, 22-ci ayə).***



Seyid Mirabbas Ağa

* * *

Kərbəlayi Miryaqub ağanın üçüncü övladı Mirabbas ağadır. O, 1929-cu ildə Seyidlər ocağında dünyaya gəlib. Mirabbas ağa öz doğma qardaşları ilə böyüyüb boya-başa çatıb və orta təhsilini Sədərək orta məktəbində alıb. O, məktəbi nümunəvi şagird kimi bitirdikdən sonra 1952-ci ildə Naxçıvan şəhərindəki Müəllimlər İnstitutuna daxil olur və təhsilini burada davam etdirir. İnstitutu fərqlənmə ilə bitirdikdən sonra doğma kəndi Sədərəyə gəlir və orta məktəbdə kimya-biologiya müəllimi kimi fəaliyyətə başlayır.

Mirabbas əmi həmişə öz xatirələrində deyirdi ki, biz hələ uşaq olanda atamız Miryaqub ağa bizi ocağın başına yığıb bizə nəsihətlər verərdi. O, hər şeyi gözəl izah edirdi və bizi başa salırdı ki, elm öyrənin. Yadımdadır ki, atam Miryaqub ağa bir gün bizə İmam Həsən (ə.s)-in həyatı haqqında danışırdı və deyirdi ki, cəddimiz İmam Həsən (ə.s) elm haqqında çox ibrətamiz sözlər deyib və bunlardan biri də budur: "Elminizi başqalarına öyrədin və başqalarının da elmini siz öyrənin". O gündən sonra bu sözlər mənim yaddaşıma həkk olundu. Ağamın dediyi bu sözlərdən sonra özümə söz verdim ki, mən mütləq elm öyrənəcəm və başqalarına da bundan xeyir verəcəm. Elə ona görə də müəllim olmaq

qərarına gəldim ki, daha çox insana kömək edim. Həzrəti Peyğəmbər (s.ə.v) buyurur: ***"Elmin fəziləti ibadətin fəzilətindən çoxdur".***

Mirabbas müəllim 50 ildən artıq bu yolda çalışmışdır. Yetişdirdiyi yüzlərlə həkim, müəllim, aqronom, mühəndis, müxtəlif peşə sahibləri bu gün də o fədakar insanın ruhuna dualar oxuyur və onu xoş xatirələrlə yad edirlər.

İmam Sadiq (ə.s) necə gözəl buyurub: ***"Böyüklərimizə ehtiram göstərməyən, kiçiklərimizə isə rəhm etməyən kəs bizdən deyildir".***

Mirabbas ağa yaxşı müəllim kimi işlədiyi dövrdə məktəbin ictimai işlərində də fəal iştirak edir və praktiki konfranslarda qabaqcıl təcrübədən öz metodikasında istifadə edərdi. O, həm də alovlu vətənpərvər və gözəl şair idi. O, asudə vaxtlarında vətənə, xalqa aid şeirlər yazmaqla məşğul olardı. Mirabbas müəllimin ən böyük xidmətlərindən biri bu idi ki, kimya üzrə testdə min suala min cavab yazmışdır. Bu Naxçıvan Muxtar Respublikası müəllimləri arasında böyük rəğbətlə qarşılanmışdı.

Həzrət Əli (ə.s) buyurmuşdur: ***"Elm və bilik var – dövlətdən üstündür. Elm səni saxlayar, var-dövləti isə sən saxlayarsan".***

Mirabbas ağa Seyidlər ocağının fəxri idi. Onu hamı sevər və hörmətini saxlayardılar. Mirabbas ağa ömrünün 79-cu ilində Sədərək kəndində 2008-ci ilin noyabr ayının 20-də cümə

günü gözünü əbədi yumdu. Allah əmimə rəhmət eləsin. Amin!

Mirabbas əmimin 7 övladı olub - Yəhya, Sitarə, Gülarə, Asəf, Südabə, Qəndab və Yusif. Ağanın oğlan nəvələrindən Ceyhun, Elnur, Tural, Nicat, Kənan. Nəticələrindən Mirabbas və Miryəhya.

* * *

Kərbəlayi Miryaqub ağanın 4-cü övladı Sultaniyə, 5-ci övladı Mirsəttar ağadır.



Seyid Səttar Ağa

* * *

Mirsəttar ağa 1931-ci ildə Sədərək kəndində müqəddəs Seyidlər ocağında dünyaya gəlmişdir. Mirsəttar ağa Miryaqub Ağanın 5-ci övladıdır. Bu uşağın anadan olması Miryaqub ağanı çox sevindirmişdi. Ağa bu uşağın adını uca Yaradanın adından olan Səttar qoyur. Səttar ağa zahirən ağbəniz olduğu üçün Miryaqub ağa bu övladına çox maraq edir, onun böyüməsinə xüsusi fikir verirdi. Səttar ağa böyüdükcə atasından tərbiyə alır, ondan ədəb-ərkanı, əxlaqı və dini vəzifələrini öyrənir. Səttar ağa atasından aldığı dərslərdə öyrənir ki, Allah-təala insanın mənəvi ruhi kamilliyə çatmasını istəyir. Kamilliyin və kamil insanın əlamətlərindən biri də budur ki, insan nemətlərin olub-olmamasından narahat olmamalıdır. Allah üçün heç bir iş çətin deyil. Bütün varlıq aləmi onun hüzurundadır. Bütün mövcudlar və hadisələr Allah üçün aşikardır. Ona görə də nemət əta olunmuş insan qürrələnməməlidir. Əksinə, uca yaradanın qarşısında daim şükür etmək lazımdır. Onun verdiyi sonsuz nemətlərə görə uca rəbbimizi daim yad edib, onun buyurduqlarına eşqinən itaət etmək lazımdır. Səttar ağa atası Miryaqub ağadan öyrənib ki, cəddimiz Peyğəmbər (s.ə.v) və onun pak

nurundan dünyaya gələn məsum imamlar və onların sülfündən gələn həqq seyidlər daim Allahın zikrindən ayrılmaz. Necə ki, mütəal Allah öz müqəddəs kitabı Qurani-Kərimdə belə buyurur: ***"Allahın nuru ucaldılmasına və öz adını zikr edilməsinə icazə verdiyi o evlərdir ki, səhər-axşam onu təsdiq edib şəninə təriflər deyərdilər" (Nur surəsi, 36-cı ayə).***

Həmd olsun o Allaha ki, Qara Seyidin ocağı belə evlərdəndir ki, uca rəbbimizə daim şükürlər edir və onun şəninə təltiflər deyirdilər. Məhz Səttar ağa o evin övladlarındandır ki, bu ənənəni öz dövründə layiqincə yerinə yetirmişdir. Səttar ağa öz dövründə istər dini, istərsə də ictimai vəzifəsini layiqincə yerinə yetirib. Onun qəlbində olan Allaha imanı onun əməllərində açıq-aydın görünürdü. İslam Peyğəmbəri Hz.Məhəmməd (s.ə.v) mübarək kəlamlarından birində belə buyurub: ***"Əməllərinizi Allah üçün xalisliklə yerinə yetirin. Həqiqətən Allah yalnız onun üçün xalisliklə yerinə yetirilmiş əməlləri qəbul edir".***

O, bir mömin kimi, həm də gözəl bir həkim kimi Sədərək camaatına misilsiz xidmətlər göstərib, onların dərdlərinə şərik olub. Elə bir ev, elə bir ailə yoxdur ki, Səttar ağanın o evdə bir əməyi olmasın. İstər gecə, istər gündüz, günün bütün saatlarında onu nə vaxt çağırsaydılar, insanların xidmətində onların şəfa tapmasında

cani-dildən gedərdi, özü də bu işini Allahın rizası üçün edərdi. Neçə-neçə insanların qoca, cavan, uşaq Səttar ağanın apardığı düzgün müalicə nəticəsində şəfa tapmışdı. Onun həkim dostları deyərdilər ki, "Səttar ağanın əlində sanki şəfa var. Kimi müalicə edirdisə o, mütləq müsbət nəticə alardı".

Səttar ağanın ən böyük fəaliyyəti məhz ermənilərin doğma torpağımıza hücum etdiyi vaxtlarda daha geniş şəkildə özünü göstərdi. Belə ki, hər yerdə olduğu kimi Sədərək camaatı demək olar ki, hamı qoca, cavan, uşaq, hətta qadınlar da kəndimizin müdafiəsinə qalxmışdılar. Cavanlar könüllü dəstələrdə vuruşur, qadınlar onlar üçün ərzaq tədarük edir, qocalar və uşaqlar isə onu müdafiəçilərimizə çatdırırdılar. Bu, Sədərək camaatının qəhrəmanlıq dövrü idi. Elə buna görə də öz müqəddəs torpağımızı yadelli işğalçılardan qoruya bildik. Allaha şükürlər olsun ki, bu mərdliyi və qəhrəmanlığı bu kəndə nəsib etmişdi. Səttar ağa vətənimizin bu ağır günlərində bir həkim kimi öz vəzifəsini layiqincə yerinə yetirib insanlara hər cür tibbi yardım göstərib. Ağa istər dağda, səngərdə, istərsə də arxada, xəstəxanada yaralılara xidmət edib, onlara hər cür tibbi yardım göstərirdi. Əziz peyğəmbərimiz Həzrəti Məhəmməd (s.ə.v.) buyurub: ***"İslamın zirvəsi Allah yolunda cihaddır ki, yalnız ən üstün müsəlmanlar bu zirvəyə yetişər".***

Məhz Səttar ağa öz müsəlman qardaşlarına hər cür yardımı ilə cihad etmişdir. Sədərək kənd sakini Heydərov Akif kəndimizin müdafiəsində fəal iştirak edən igidlərdən biridir. O, deyir ki, xəstəxanaya yaralı gətirəndə Səttar ağa onlara başqalarından daha çox fəal tibbi yardım göstərərdi. Hətta dərmanların tapılmadığı bir vaxtda ağa öz şəxsi vəsaiti hesabına əldə etdiyi şəxsi dərmanlardan onlara yardım edirdi. Özü də bütün bunları o yalnız Allah rizası üçün edirdi.

Əziz Peyğəmbərimiz Məhəmməd (s.ə.v) necə də gözəl buyurub: ***"Allah qarşısında ən sevimli bəndə onun bəndələrinə daha faydalı olan kəsdir".***

Səttar ağanın bir mömin kimi ən böyük istəyi məhz Allahın razılığıdır. Hədislərdə oxuyuruq ki, mütəala Allah öz bəndələrinə buyurur: ***"Ürəyindən keçəni məndən istə. Mən də əta edim. Məndən təmənna et ki, səni bağışlayım, bu mənim behiştimdir, orda özünə yer seç. Mənim mərhəmət civarımda sakin ol"***. İlahi, biz də öz günahlarımıza görə səndən bağışlanmağımızı istəyirik. Sənin mərhəmətinə ümid edərək yalnız səndən kömək istəyirik və səni and veririk əziz peyğəmbərimizin xatirinə, bizləri haqq yoluna hidayət et və cəza günü günahlarımızı bağışla. Amin!

Bir çox sədərəkli kimi, mənim də əmim

Səttar ağaya minnət borcum var. Böyük oğlum Mircalal uşaq ikən qıc (sudurğa) xəstəliyinə tutulmuşdu. Bu halı keçirəndə anam və bizlər çox narahat olurduq. Mən uşağı bir çox yerlərə həkimlərə aparırdım, hətta Gəncəyə və Bakıya da gətirib həkimlərə göstərmişdim. O həkimlər isə mənə demişdilər ki, bu xəstəlik yaşla əlaqədardır. Uşağın bu xəstəliyi on bir yaşından sonra keçəcək. Mən oğlum Mircalalı kəndə gətirmişdim. Uşaq həyətdə anamın yanında idi. Birdən yenə həmin hal Mircalalda oldu. Qardaşım Mirkazım barmağı ilə uşağın dilini tutdu, hamımız çox narahat olmuşduq. Elə bu vaxt elə bil Allahdan idi ki, Səttar ağa bizə öz ata ocağına gəlirdi. Anam tez əmimin qabağına çıxıb ona dedi ki, Səttar, sən də bir bu uşağa bax, axı, bu uşaq bizim ürəyimizi üzüb. Əmim uşağı müayinə edib zarafatla dedi: "Hə, Fatimə, bunun xərci var". Anam isə cavab verdi ki: "Hər nə istəyirsən sənə qurbandı, təki uşaq sağalsın". Əmim yenə zarafat olaraq dedi: "Mənə bir qutu siqaret alın, mən də bu balaca qardaşımı sağaldım". Mən onun şahidi oldum ki, Səttar əmim balaca Mircalala üç dəfə iynə vurdu, bununla da xəstəlik o uşaqdan getdi.

Səttar ağanın insanlara etdiyi xidmətdən yazılsa, bir kitab ona bəs etməz. Onun bir həkim kimi ən üstün cəhəti o idi ki, o, həqiqi bir mömin, bir dindar idi. O, Qara Seyidin ocağının fəxri idi. Hz. Əli (ə.s) necə də gözəl buyurub: ***"Xalqa daha***

***çox xeyir verən kəs xalqın ən fəzilətlisidir"***. Bir xeyirxah insan kimi Səttar ağa daim Allaha təvəkkül edən qəlbində və dilində uca rəbbinə zikr edər və onun şəninə təriflər deyərdi. O, imkanı olan kimi məscidə gedər və orada saatlarla məsciddən ayrılmazdı. Səttar ağa yaxşı bilirdi ki, cəddi peyğəmbər belə buyurub: ***"Qiyamət günü hər bir şəxsdən əvvəlin hesabı ki, alınacaq o namazdır. Allahı tanıyan şəxs Allahdan qorxar. Allahdan qorxan şəxs də özünü bu müvəqqəti dünyaya ucuz satmaz".*** Elə ona görə də o, öz ibadətlərini həmişə vaxtlı-vaxtında yerinə yetirir, ibadətinin mükəmməl olmasına çalışırdı.

Məşədi Səttar ağa çox dəqiq və çox təmizliyə fıkir verən, hər şeyin yerli-yerində olmasını tələb edən bir insan idi. Onun uşaqlara olan məhəbbəti bambaşqa idi. İstər öz uşaqları, istər qardaşlarının balaları, istərsə də başqaları olsun.

Mirsəttar ağa ömrünün 63-cü ilində bu fani dünyaya gözünü yummuşdu. Onun ölümu isə belə olmuşdu. Səttar ağanın xanımı Zinyət xala deyirdi ki: "Orucluq idi, ağa da həmişəki kimi oruc idi, işdən təzəcə evə gəlmişdi. Günorta azanına bir az qalırdı. O, gəlib dəstəmaz aldı. Biz elə bildik ki, ağa namazı evdə qılacaq. Elə ona görə də canamazı hazırladım. Amma ağa dəstəmazı alıb qurtardı və dedi: "Mən gedirəm

məscidə, namazı orada qılacam”. Mən Səttara dedim ki: “Hava istidi, həm də orucsan, yaxşı olar namazı evdə qılasan, həm də bir az istirahət edərsən”. O, isə mənə cavab verdi ki: “Allahın evi hər yerdən üstündür. Oranı boş qoymaq olmaz”. Zinyət xala sonra sözünə belə davam etdi: “Səttar ağa həyətdən çıxanda bizlərə bir həsrətlə baxdı və məscidə tərəf yola düşdü. Ağa məscidin həyətinə çatanda ürəyindən möhkəm ağrı tutur və orada yıxılır. Oradakı möminlər köməklik edib onu evinə gətirirlər.

Bir çox mötəbər hədislərdə gəlib ki, əgər insan oruc ola, o insan dəstəmaz alıb öz evindən çıxıb məscidə - Allahın buyurduğu vacibatı yerinə yetirmək üçün gedərsə və həmin vaxt o insan ölərsə, demək o insanın məqamı Allah yolunda şəhid olmuş birisinin məqamı kimidir. Məhz Allah-təala bu şərafətli ölümü Məşədi Səttar ağa üçün layiq bilib. Bu ağanın etdiyi gözəl əməllərdir ki, onun qabağına çıxıb və Səttar ağanın cənazəsinə bütün kənd qoşulmuşdu, çoxları ağa üçün “elin ağası” deyərək ağlayırdılar. Çünki, o, hamının dərdinə yanan həkim idi. Elə ona görə də “el ağası” deyərək ağlayırdılar. Allah sənə rəhmət eləsin, əmi. Amin!

Məşədi Səttar ağanın 8 övladı Seyidlər ocağında ağadan yadigardır. Onun övladları - Dilarə, Arif, Nüşabə, Akif, Əli, Səkinə, Namiq və Yeganə. Ağanın oğlan nəvələri Əziz, Məhəmməd,

Yunis, Səttar, Sultan və Natiq. İnşallah, bu balalar da öz babaları kimi şərəfli və ləyaqətli bir mömin kimi ömür yaşayıb və öz müqəddəs ocaqlarına layiqli övlad olarlar.


Seyid Mir Cəlal Ağa

* * *

Kərbəlayi Miryaqub ağanın 6-cı və sonuncu övladı Mircalal ağa idi. O, 1937-ci ildə Seyidlər ocağında dünyaya gəlib. Kərbəlayi Miryaqub ağa bu uşağın da dünyaya gəlməsinə çox sevinmişdi. Ağa həqiqi dindar olduğu üçün uca yaradanına ixlasla pərəstiş etdiyi üçün bu uşağın adını öz rəbbinin adlarından olan "Calal" qoymuşdu. Calal ucalıq, böyüklük, gözəllik mənasındadır. Mircalal ağa böyüyür və öz ata-babasına və nəhayət, öz adına layiqli bir övlad olur. O, hələ uşaq ikən on bir yaşından öz atası ilə birlikdə namaz qılmağa başlayır. Dini məsələləri atasından öyrənir. Mircalal ağa atası Kərbəlayi Miryaqub ağadan irs alaraq öyrənir ki, "Din və İslam Allahı tanımaq, ona pərəstişdən ibarətdir və pak və pakizə olan la-ilahə- ilallah kəlməsi ilə ifadə olunmuşdur. Uca Yaradanın qarşısında layiqli bir bəndə, layiqli bir insan olmaq Allahı pərəstişə, ibadətə layiq bildikdən sonra bu müqəddəs və şərafətli yolda əzm və iradə, eşq və məhəbbətlə namus və qeyrətlə çalışıb səy göstərmək lazımdır. İnsan bu müqəddəs ülvi kamalı öz qarşısında məqsəd qoyub çalışaraq belə bir nöqtəyə çatmalıdır ki, sözləri vicdanla, səmimi qəlbdən deyə bilsin. Mən özümü aləmlərin uca rəbbinə təslim eləmişəm. İmam

Zeynalabdin (ə.s) buyurub: ***"Bilmək lazımdır ki, həqiqətən Allahın yanında ən hörmətli, əziz olanınız təqvalı olanlarınızdır".***

Mircalal ağa daim bu yolda iradə və əzmlə çalışaraq özünü həqiqi Allaha təslim edən bəndələrindən idi. O, atası Miryaqub ağadan aldığı dərslərdən öyrənirdi ki, iman və iradəni əldə etmək üçün bu yolda çoxlu zəhmət çəkmək, öz nəfs və istəklərinə hakim olmaq və bu zəhmətlərə eşqlə, sevərək qatlaşmaq lazımdır. Ona görə də Allah-təala Qurani-Kərimdə ilahi məhəbbətin əldə olunması haqqında belə buyurur: ***"Əgər Allahı sevirsinizsə, onun göstərişlərinə əməl edin ki, Allah da sizi sevsin (Ali İmran surəsi)".***

DeməK, ilahi məhəbbət sorağında olan insan Hz.Peyğəmbərin (s.ə.v) yolunu tutmalıdı. Peyğəmbərin yolunu tutan insan eynən onun kimi, Allahın dostu olur, ilahi məhəbbətə çatmağın ən mühüm yollarından biri Hz.Peyğəmbərlərə (s.ə.v) yaxınlıqdı. Çünki əziz peyğəmbərimiz (s.ə.v) Allahın mütləq məhbubu olmuşdur. Olsun ki, Allahın digər məhəbbətləri də həmin bu məhəbbətin sayəsindədir. Doğrudan da bütün mövcudlar ən kamil mövcudda cəmləşmişdir. Kamil mövcudda sığınan kəs onun üzərinə düşən işıqdan faydalanır. Yaxşı bilmək lazımdır ki, başqaları ilə dostluq əlaqələri onların Allahla əlaqələri arasında qurulsun. Allah və onun

Rəsulu ilə dərin əlaqələrə malik olan insanları tanımaq, onlarla əlaqə qurmaq bu yolla ilahi məhəbbəti əldə etmək lazımdır.

Mircalal ağa yaşadığı bu qısa 38 illik mənalı ömründə həyatın çox sərt sınaqları ilə qarşılaşır. O, hələ yeniyetmə çağında on üç yaşında ikən bu dünyada ən əziz adamını – atası Miryaqub ağanı itirir. Atasının ölümü onu çox kədərləndirir. Calal ağa elə bu yaşlarında özünü həyatın çətinliklərinə ataraq, onunla mübarizə edərək öz ailəsinə, anası Səkinə nənəyə və qardaşlarına kömək olmaq istəyir. Calal ağanın anası Səkinə nənə çox ismətli, möminə xanım kimi ağır bir tayfanın - “Bəyməmməd” tayfasının qızı idi. Elə ona görə də bu xanım uşaqların tərbiyəsinə çox ciddi fikir verirdi. Mircalal ağanın böyük qardaşları Mirabbas və Səttar ağa ali məktəbdə oxuyurdular. Ona görə də ağa çalışırdı ki, öz ailəsinə kömək etsin. O, ustalıq edirdi, ot biçirdi, qəssablıq edirdi ki, onun ailəsi heç kəsə möhtac olmasın. Bəzən elə olurdu ki, ağa bu işləri təmənnasız edirdi.

Bir gün bir sədərəkli gəlib ağaya deyir ki: “Ağa, mən ev tikmək istəyirəm. Özüm də nə lazımdır almışam. Bir də niyyət eləmişəm ki, inşallah evi tikib qurtararam, Allah qoysa namaz qılmağa da təzə evdə başlayacam”. Ağa ona deyir ki, bəs niyə işə başlamırsan? Həmin adam deyir ki, usta pulum qalıb, onu da

düzəldim. İnşallah, sonra başlayacam. Mircalal ağa ona cavab verir ki: "Narahat olma, elə günü sabah işə başlayırıq". İşə başlayıb evi tikirlər. Həmin kişi ağaya demək istəyir ki, işin haqqı nə qədər edir? Ağa ona belə cavab verir: "Mən sənin evini Allah rizası üçün tikmişəm. Bütün çəkdiyim əməyim halal xoşun olsun. Mən bunu etdim ki, sən namaz qılasan. Bizim cəddimizin gətirdiyi dini şəriəti yaşadasan". Bu hadisə ağanın el arasında hörmətini daha da artırdı.

Hz.Əli (ə.s) buyurub: ***"Mömin şəxsin niyyəti yerinə yetirdiyi əməllərinin əcrindən də qiymətlidir". Başqa yerdə isə belə buyurur: "Axirət işlərini qaydaya salanın dünya işlərini Allah özü qaydaya salar".***

Mircalal ağanın dostu Allahyar kişi deyirdi: Biz ağa ilə Dəhnədə ot biçirdik. Yolumuz uzaq idi, həm də yolumuz sovxozun üzüm bağlarının yanından keçirdi. Hər gün səhər tezdən namazı qılıb ot biçiminə gedirdik. Günortaya qədər işləyib geri dönəndə söyüd ağacının altında oturub dincələrdik. Mən həmişə ağaya deyərdim ki, bu üzümlərə lap tamahım düşüb, icazə ver bir-iki salxım yığım gətirim yeyək, bir az gücümüz artsın. Ancaq ağa təkidlə məni qoymurdu ki: "Bu xalqın malıdı, onu yemək haramdır". Biz ağa ilə bir aya yaxın həmin yolu gedib gəldik. Amma ağa bizi qoymadı ki, o üzümdən bir salxım dərib yeyək. Mən o vaxt yəqin etdim ki, Mircalal ağa

necə də Allahdan qorxan, öz nəfsinə hakim olan bir insandır. O, sadəcə Allahın bir sevimli, layiqli bəndəsi idi. Amma Allaha müti (təslim) olduğundan elə bir əzəmət və izzət əldə etmişdi ki, onunla qarşılaşanlar ona həqiqi bir seyid kimi, mömin bir insan kimi ehtiram və hörmət edirdilər.

İmam Məhəmməd Baqir (ə.s) buyurub: ***"Təqvalı mömin şəxs dağdan da möhkəm olar, əgər istəsən bir şey qopardasan, çətin olsa da qopara bilərsən, amma hər nə qədər çalışsan da möminin qəlbindən, imanından, Allaha olan eşqindən bir şey azaldıb xaric edə bilməzsən".***

Mircalal ağanın ən böyük və yaddaqalan kəraməti Şahbuz rayonunda dağlarda baş verib. Belə ki, o vaxt kasıbçılıq olduğu üçün kənddən bir neçə insan Şahbuz rayonundakı dağlara gedib, orada bitən otlardan yığıb gətirərdilər. Həmin otları aparıb Ermənistanda ərzaqla dəyişdirərdilər. Əvəzində isə kartof, soğan və s. qida məhsulları alıb gətirərdilər. O vaxt Mircalal ağanın bir motosikleti var idi. Ağanın yoldaşları İsa və Cəlil kişi də öz motosikletləri ilə axşamdan yola çıxardılar. Səhər sübh açılanda dağlara çatardılar.

Səfərlərinin birində gəlib dağın ətəyinə çatırlar. Axşamdan dağlara çoxlu yağış yağıbmış. Mircalal ağa öz yoldaşlarına deyir ki, sübh namazının vaxtıdı, bir az səbr edin, məni

gözləyin, mən namazımı qılım, sonra yolumuza davam edərik. Ağa namaza başlayanda onlar öz aralarında bir-birinə deyir ki: "Calalın namazı çox çəkəcək, biz bunu tanıyırıq, gəl biz gedək, o, sonra arxamızca gələr. Çünki, dağlara yağış yağıb, burada çox gözləsək, sel-su gələ bilər, sonra bu yeri keçə bilmərik". İsa və Cəlil kişi bu fıkirlə Mircalal ağanı orada qoyub yollarına davam edirlər. Calal ağa namazı qurtarıb dualar etdikdən sonra görür ki, yoldaşları yoxdu. Yerindən qalxıb motosikleti işə salır və dərəni yenib sudan o biri taya keçmək istəyir. Lakin dərənin ortasında motosiklet birdən-birə sönür, işləmir. Ağa elə bilir ki, motorun üstünə su düşüb. Tez motoru işə salmaq istəyir. Ancaq nə edirsə motor işə düşmür. Bu vaxt başını qaldırıb görür ki, dağların ətəyindən sel-su gəlir. Özü də elə sel ki, özü ilə böyük ağac kökləri gətirir. Sel gəlib motosikletin altından keçir. Su o qədər çox və güclü olur ki, ağa görür motosikleti su aparır. Calal ağa deyirdi ki: "Bu vaxt mən özümü motosikletin üstünə atdım ki, bəlkə mənim ağırlığım motosikleti saxlasın. Baxdım ki, elə mən qarışıq su ikimizi də aparır. Onda başımı qaldırıb belə dua etdim: "İlahi, səni and verirəm həzrəti Abbasın hörməti xatirinə, mənə kömək ol". Bir anın içində heç özüm də bilmədən necə oldu gözümü açıb gördüm ki, suyun o biri tayındayam. Mən motosikletin üstündə uzanaqlı

halda idim. Bir də gördüm başımın üstündə qara rəngdə gözəl bir at dayanıb. Üstündə də üzü bağlı, gözləri qara, uca boylu, gözəl bir oğlan dayanıb. Mən bu hadisəyə görə çox təəccübləndim. Dilim-ağzım söz tutmadı ki, bir söz deyib danışım. Bu an atın üstündəki oğlan mənə belə dedi: "Mircalal, motorun üstündəki çöpləri təmizlə, yoxsa motor işə düşməz". Mən dönüb motora baxdım, birdən özümə gəldim. Qəlbimdə özümə sual verdim ki, ilahi, görən bu Həzrəti Abbas (ə.s.) ağadır? Geri dönüb baxdım ki, heç kəs yoxdur.

Bu hadisədən sonra Calal ağa geri – evə qayıdır. Anam Fatimə deyir ki: Ağanız gəldi. Həyətdə bir qara qoçumuz var idi. Onu tez qurban kəsdi və qonşulara payladı. Bu hadisəyə görə düz 7 gün danışmayıb. O, yalnız namaz vaxtı durub namazını qılardı, sonra sanki susmaq orucu kimi yerində uzanardı.

Mircalal ağa yaxşı bilirdi ki, imanı gücləndirməyin ilkin şərti səmimi qəlbdən istəyin güclənməsidir. Yəni bunu qəlbən istəməkdir. Allahın vacib buyurduğu əməlləri vaxtında və qüsursuz eşqlə əta etməkdir. O gün Mircalal ağanın eşqlə qıldığı o iki rükət sübh namazı onun dadına çatdı. Əziz Peyğəmbərimiz Məhəmməd (s.ə.v.) bu haqda belə buyurub: ***"Allaha diqqətlə qılınan iki rükət namaz, Allahdan qəflətdə qılınan min***

***rükət namazdan üstündür".***

Mircalal ağanın heç bir elmi savadı yox idi. Ancaq o yaxşı bilirdi ki, iman və iradə təkcə elm və mərifət yolu ilə yaranmır. İman və iradəni qazanmaq üçün təkrara da ehtiyac var. İnsan öz ruhiyyəsini və mənəviyyatını gücləndirmək üçün bir sıra təkrarları yerinə yetirmişdir. Mircalal ağa yaxşı bilirdi ki, vacib namazın beş vaxt təkrar təyin olunmasının fəlsəfəsi də budur. Gün ərzində ibadətin təkrar olunması möminlərin iradəsini qüvvətləndirir. Həzrət Əli (ə.s)-dan soruşurlar: ***"İman nədir?" Həzrət onlara belə cavab verir: "İman bunlardan ibarətdir: Allahı qəlbən tanıyıb, dilində etiraf etmək və bütün vücudu ilə ruhən və cismən Allahın əmrini qəbul edib ona əməl etməkdir".***

Həqiqətən Mircalal ağa Allahı qəlbən tanıyıb, onun varlığına iman edib ruhən və cismən Uca Rəbbinin itaətində bacardığı, gücü çatdığı qədər xidmət edib.

Mütəal Allah öz müqəddəs kitabı Qurani-Kərimdə belə buyurub: ***"Hər kim Rəbbinin hüzurunda durmaqdan qorxmuş və nəfs istəklərindən qorunmuşdusa, həqiqətən onun yurdu cənnətdir (Naziat surəsi, 40-cı ayə)".***

Mircalal ağanın Sədərək camaatı içərisində böyük hörməti var idi. Hamı ona bir əsl seyid kimi, bir mömin dindar kimi ehtiram edərdi. Ağanın mömin dindar dostları çox idi.

Xüsusilə bunlardan Molla Sadıq, Qədimli Həsən, Usta Məhəmməd, Qara Nəsib kişi, Bığlı Cabbar, Bağır kişi, Bəbirli İsmayıl və s. Ağa hər il Şahverdiyev Məhəmmədlə Əshabi-Kəhfə ziyarətə gedərdilər. Calal ağa dünyasını dəyişəndən sonra usta Məhəmməd on yeddi il yaşadı və bu illərdə o, öz ailəsini Əshabi-Kəhfə ziyarətə göndərərdi. Amma özü getməzdi və deyərdi ki, mən Calalsız heç yerə getmərəm. Dostluq haqqında Hz. Əli (ə.s.) belə buyurub: ***"İmanın ən möhkəm bağı Allaha görə dostluq və Allaha görə düşmənçilikdir".*** Məhz Mircalal ağanın insanlara olan dostluğu yalnız Allaha görə idi.

Rəhmətlik Molla Sadıq Sədərək kəndinin baş mollası idi. O, nəinki Sədərəkdə, hətta bütün Naxçıvanda və Vedibasar mahalında da tanınan ruhani idi. Onun apardığı məclislər çox yüksək səviyyədə keçirdi. Onun çox gözəl nitq qabiliyyəti və izahatı var idi. Sözün əsl mənasında, bir alim idi. Həm də gözəl insan, həqiqi dindar və mömin idi. Molla Sadıq Mircalal ağanın yaxın dostu və din qardaşı idi. O, Mirçalal ağa ilə uzun illər dostluq etmiş və aralarında bir-birinə qarşı böyük hörmət yaranmışdı. Günlərin bir günü Asnı məhəlləsində Molla Sadıq böyük bir məclis aparırdı. O, məclisdə öz dili ilə seyidlər haqqında və Mircalal ağa haqqında danışırdı.

Mən də o məclisdə iştirak edirdim. Molla Sadıq deyirdi ki: "Mən bir gün yuxuda gördüm ki, kolxozun idarəsinin tərəfindən asfaltın üstü ilə kəndə tərəf gəlirəm. Gəlib xırmandakı qəbiristanlığın yanından keçirəm. Görürəm ki, 4 nəfər ağ paltarda, Kərbəlayi Miryaqub ağanın qəbrinin yanında bir qəbir qazırlar, amma bizim kəndin camaatından deyil. Mən onlara yaxınlaşıram, salam verib soruşuram: "Siz kimsiniz? Burada nə edirsiniz? Bu qəbir kimindir qazırsınız?" Onlarsa mənə cavab verirlər ki: "Bu qəbir Miryaqub ağanın oğlu Calal ağanındı. O ki qaldı bizə, onu sən bilməzsən ki, biz kimik. Bu qəbrin sahibi isə bu kənddə Allahın həqiqi qulu və gözəl bəndəsidir. Elə ona görə də onun qəbrini biz özümüz hazırlayırıq".

Mən yuxudan ayılıb gördüm ki, artıq sübh azanı oxunur. Tez namazı qılıb kəndin mərkəzinə gəldim. Yol boyu bu yuxunu fikirləşirdim. Bir də o qəbrin yerini dəqiq yadımda saxlamışdım. Bu fikirlə mən kəndin mərkəzinə çatdım, bazara tərəf getdim. Gördum ki, Calal ağa heyvan kəsib soyur, mən ona salam verib yanından keçib, o biri tərəfə getdim. O da mənim salamımı alıb öz işi ilə məşğul oldu. Bir az o tərəfə keçib səbr etdim, qəlbimdə ağanı sağ gördüyümə görə şükür edirdim ki, Calal ağa sağdı, o adi yuxuymuş. Bir az keçəndən sonra ağaya tərəf geri gəldim, həm də ev üçün ət almaq istəyirdim. Elə ağanın

yanına çatanda mənə dedi ki: "Ay Molla Sadıq, sənə nə olub belə narahatsan? Yoxsa yuxuda görübsən ki, mən ölmüşəm, özü də 4 nəfər adam Miryaqub ağanın qəbrinin yanında mənə qəbir qazırlar". Mən Calal ağanın bunları deməsinə mat-məəttəl qaldım. Axı bu haqda mən heç kəsə bir kəlmə də olsun bəhs etməmişdim, deməmişdim. Sonra ağa sözünə davam edib mənə dedi ki, "o qəbrin yerini dəqiq yadında saxla, elə ora mənim yerimdi, məni dəfn edəcəklər. Özü də buna düz bir ay vaxt var".

Söz bura çatanda Molla Sadığın gözündən yaş axırdı. O, həzin-həzin ağlayırdı. O, cibindəki dəsmalı çıxarıb üz-gözünü sildi. Məclisdəki camaat isə sakitcə qulaq asırdı. Molla Sadıq sözünə belə davam etdi: - Camaat, bu bir ayın hər gününü Ağa üçün narahat idim və hər namazda ona dua edirdim. Elə ki, vaxt gəlib çatdı, bu bir ay tamam oldu. Elə o vaxtda da Calal ağa rəhmətə getdi. Məni təəccübləndirən bir məsələ də var idi. Ağanın qəbrini əvvəlcə Miryaqub ağanın ayaq tərəfində qazmaq istəyiblər. İndi həmin yer qəbiristanlıqda yarımçıq qalır. Amma nə qədər eləyiblərsə, oranı qaza bilməyiblər. Sonra isə düz mənim yuxuda gördüyüm yerdə qəbri qazıblar. Elə Calal ağa da həmin yeri deyirmiş. Onu həmin yerdə dəfn ediblər.

Molla Sadıq sözü burada bitirib Calal ağanın və bütün Qara Seyidin ocağından gedənlərin ruhuna dualar oxudu. Allah onların hamısına rəhmət eləsin. Həzrət Əli (ə.s) belə buyurub: ***"Dünya və axirətin xeyirli əməli-saleh insanlarla sirdaşlıq və dostluq etməkdə cəm olmuşdur".***

Calal ağanın yaxın dostlarından olan Bəbirov İsmayıl kişi son zamanlarda rəhmətə gedib. İsmayıl kişi deyirdi ki, mən Mircalal ağa ilə uzun müddət bir yerdə yoldaşlıq eləmişəm, onunla bir çox yerlərdə bənna işləmişəm, onun ölümü mənə çox təsir edib. Yaxşı yadımdadır, biz bir yerdə işləmişdik, amma əmək haqqını ala bilməmişdik. Mən evdə idim. Bir də gördüm məni çağırırlar. Küçəyə çıxıb gördüm ki, Calal ağadır. Onu görəndə çox sevindim və ağanı təkidlə evə dəvət etdim. Amma o, içəri keçmədi. Əlini salıb cibindən pul çıxardı və dedi ki, İsmayıl, mən gedib pulu aldım. Bu da sənin haqqındır. Pulu mənə verib sağollaşıb getdi. Mən isə yerimdəcə qalıb onun arxasınca baxırdım. O, bir az getmişdi ki, dönüb geri baxdı və gördü ki, mən elə durduğum yerdəcə qalmışam. Ağa məni belə boynu bükük görüb geri döndü. Mən onun geri döndüyünü gördüm və qəlbimdə sevindim ki, ağa yəqin nə isə unudub ki, geri qayıdır. Calal ağa mənə çatdı, heç nə demədən məni bağrına basdı və üz-gözümdən iki-üç dəfə öpdü. Mən onun bu hərəkətində lap mat qalmışdım. Axı bu

hərəkət qeyri-adi idi. Mən Calal ağaya dedim ki: "Ağa, sənə nə olub? Nə yadına düşüb?" O isə mənə belə cavab verdi: "İsmayıl, mən gedirəm, bu bizim son görüşümüzdü, geri döndüm ki, halallaşaq". Mən onun nə dediyini başa düşmədim. Elə bildim ki, ağa harasa səfərə gedir. Elə biz oradaca evin qabağında onunla ayrıldıq. Bu hadisədən üç-dörd gün keçmişdi ki, mən başqa bir yerdə işdə işləyirdim, ev tikirdik. Bizə xəbər gəldi ki, Calal ağa rəhmətə gedib. Bu xəbər mənə çox pis təsir etdi, az qala divarın başından yerə yıxılmışdım. Əlimdəki daş baltası yerə düşdü. İsmayıl kişinin oğlu Fərhad deyirdi ki, atam bir il hər namazdan sonra Calal ağa üçün ağlayıb və onun ruhuna ölənə qədər dua oxuyurdu. Allah hər ikisinə rəhmət eləsin. Amin!

Həzrət Məhəmməd (s.ə.v) buyurub: ***"Qiyamət günü möminin əməl tərəzisinə xoş xasiyyətindən üstün olan bir şey qoyulmayacaqdır".***

Calal ağanın dostlarından biri də Allahyar kişidir. Anam deyir ki, ağanız evə gəlib, dedi ki: "Uşaqlardan birini göndər gedib Səttarı çağırsınlar". Səttar əmimə xəbər çatan kimi o, tez-tələsik bizə gəldi, bu xəbər seyidlər arasında tez yayıldı. Onların hamısı bizə gəlmişdilər. Sonra kimsə gedib Mamed həkimi də gətirmişdi. O da ağamı müayinə edib dedi ki, elə bir şeyi

yoxdu, Şərur rayonuna xəstəxanaya aparmaq lazımdır. Ancaq Səttar əmim çox narahat idi. Onlara etiraz etdi ki, mütləq Calalı Naxçıvana cərrahiyyə şöbəsinə aparmaq lazımdır. Ağam və əmilərim deyirdilər ki, Mamed həkimdən ayıbdı, onu elə Şərura aparaq. Belə də elədilər. Maşının gəldiyini xəbər verdilər. Hazırlıq gördülər, ağanın yanında rəhmətlik Narey və Nini bibilər oturmuşdu. Ağam bir az dikəldi və öz gödəkcəsini istədi. Rəhmətlik Narey bibim qalxdı ki, gödəkcəni gətirsin, ağam isə dedi, heç kəs gətirməsin, qoy gödəkcəni Fazil gətirsin. Onda mənim 8 yaşım var idi. Mən tez qaçıb o biri otaqdan ağamın qara rəngdə olan gödəkcəsini taxtın üstündən götürüb gəldim. Bu anı heç vaxt yadımdan çıxarmaram. Mən gödəkcəni gətirib ağama vermək istədim. O isə gödəkcənin bir tərəfindən tutdu, o biri tərəfi isə hələ də mənim əlimdə idi. Ağam mənim gözlərimə baxırdı, mən də onun qapqara olan gözlərinə baxdım. Bir də gördüm ki, onun o qara gözləri yaşla dolubdur. Elə bu an o məni qucağına bərk-bərk basdı. Mən də onun boynunu qucaqladım. İkimiz də ata-oğul ağladıq, sonra isə kömək etdik ki, maşına minsin. Bu onun evdən sonuncu gedişi idi. Onu xəstəxanaya yola saldıq. Ağam evdən çıxandan iyirmi dörd saat sonra rəhmətə getdi.

Rəhmətlik Allahyarov Allahyar ağamın vəfalı dostlarından idi. O, deyirdi ki, mən

xəstəxanada Calalın yanında idim. Günortaya yaxınlaşmışdı, saat düz birin yarısı idi. Mən ağaya təsəlli vermək üçün ordan-burdan söz açıb danışırdım. O isə tez-tez divardakı saata baxırdı. Mən ona deyirdim ki: "Ağa, niyə saata elə tez-tez baxırsan?" Ağa mənə cavab verdi ki: "Allahyar, namaza görə narahatam. Allah-təala imkan versin ki, mən namazımı qılım". Mən isə ona yenə ürək-dirək vermək məqsədilə dedim ki, inşallah, sən hələ çox namaz qılacaqsan. Saat birə on dəqiqə qalmışdı. Ağa mənə dedi ki, Allahyar, dur mənə kömək elə dəstəmaz alım. Mən də onun qolundan tutub ona kömək etdim. Ağa da durub dəstəmaz aldı, sonra isə canından çox sevdiyi namazını qıldı. Elə o namaz əsnasında Allahın rəhmətinə qovuşdu. Həzrət Məhəmməd (s.ə.v) buyurub: ***"Allah öz gəncliyini Allaha itaətlə həsr edən cavanı sevər".***

İnsanın həyatı təbii şəkildə ehtiyaclarla müşahidə olunur. İnsanların ehtiyaclarını ödəyə biləcək yeganə mövcud Allah-təaladır. O, öz müqəddəs kitabında belə buyurur: ***"Ey insanlar, siz Allaha möhtacsınız, Allah isə möhtac deyildir. Və hər cür şükürə və tərifə layiqdir" (Fatir surəsi, 15-ci ayə).***

Ona görə də Allahın dostları daim onun dərgahına əl açmış vəziyyətdədirlər. Onlar Allahın sonsuz qüdrətindən faydalanmaqla öz

istəklərinə çatırlar. Belə insanlar axirət görüşünə qədər Allahın zikri ilə məşğul olur və qəlbini bu zikr vasitəsilə işıqlandıraraq öz ruhunu Rəbbinin dərgahına pərvaz edirlər. Məhz Calal ağa belə mömin bəndələrdəndi ki, o, həyatının son anlarında belə öz Yaradanının zikri ilə məşğul olub. Belə mübarək ölüm Allahın hər bəndəsinə nəsib olmur.

Mircalal ağanın altı övladı Seyidlər ocağına yadigardır. Onun övladları Cəmilə, Mirkazım, Səmilə, Mirfazil, Miryaqub və Mürsəl. Ağanın oğlan nəvələrindən Mircalal, Mircamal, Mirkamal, Fatimə, Yaqut, Günay, Murad, Erol, Elvin və Malik. İnşallah, bu balalar da öz babaları kimi şərəfli ömür yaşayar və öz ocaqlarına layiqli övlad olarlar.

Bu kitabın tərtibatında oğlum Mircamalın xüsusi əməyi var. Allah-təala ondan da razı olsun. Allah bizim qəlbimizi hidayət nuru ilə daha da nurlandırsın. Amin!

* * *

Mirağa ağanın 3-cü övladı Mirsəccad ağadır. O, 1889-cu ildə Sədərək kəndində anadan olmuşdur. Bu uşağın dünyaya gəlməsi Mirağa ağanı çox sevindirmişdi. Elə ona görə də onun adını cəddi İmam Səccad (ə.s) adından qoymuşdur. Mirağa ağa bu övladına çox maraq edir, onun sağlam böyüməsinə fikir verirdi. Mirsəccad böyüdükcə atasından tərbiyə alır, ondan ədəb-ərkanı, əxlaq və dini məsələlərin incəliklərini öyrənirdi. Mirsəccad ağa mömin ailədə böyüyürdü. Çünki bu ailənin danışığı, qəzəbi, məhəbbəti Allaha görə idi. Mirsəccad ağa yaxşı bilirdi ki, dünyada özünü Allah-təalanın əmirləri qarşısında təslim edən şəxs izzət və şərafət tapar. İzzəti və şərafəti olan şəxs də heç vaxt zalim qarşısında əyilməz. O, hələ lap gənc yaşlarında atası Mirağa ilə birlikdə ibadət edir, dini məsələləri dərindən öyrənirdi. Mirsəccad ağa şücayət, səbr, dözüm, ürəyi açıqlıq, xoşxasiyyətlik və güzəştə getmə xüsusiyyətlərini öz ata babalarından irs almışdı. Mirsəccad ağa öz qardaşları Miryaqub və Qəzənfər ağa ilə birlikdə təsərrüfat işlərində atalarına kömək edir, boş vaxtlarında isə dini məsələlər öyrənirdilər. Hz.Əli (ə.s) necə də gözəl buyurub: ***"Bu dünya bir əkin sahəsinə***

***bənzər. Əgər səadət toxumu əksən, axirətdə onun şirin meyvəsindən bəhrələnərsən".***

Mirsəccad ağanın kəramətlərindən biri bu olub ki, onlar yay vaxtı yaylağa gedibmişlər. Axşamdan onların suyu qurtarıb. Uşaqlar su istəyirmişlər. Lakin bulaq çox uzaq imiş. Suyun qurtarmasını evin xanımı Zəhra nənə bilirdi. Uşaqlar ağlayanda ağa xanıma deyir ki, get uşaqlara su gətir. Xanım gedib qayıdır və deyir ki, su yoxdur, səhənglər boşdur. Səccad ağa ikinci dəfə təkidlə deyir ki: "sənə dedim ki, get su gətir". Xanım sanki məcbur gedir səhəngi gətirsin və göstərsin ki, su yoxdur. Ancaq gedir görür ki, bu dəfə səhənglər ağzına qədər su ilə doludur. Özü də elə soyuqdur ki, səhəngin sol tərəfi tərləmişdi. Zəhra nənə çox sevincək öz uşaqlarına su içirdir.

Mirsəccad ağa 1942-ci ildə Böyük Vətən müharibəsinə gedir və bir daha geri dönmür.



| | |
|---|---|
| *Oturanlar:* | *Sağdan: Qəzənfər Ağa,*<br>*Seyid Qasım Ağa,*<br>*Bəhlul Ağa* |
| *Ayaq üstdə duranlar:* | *Soldan: Seyid Mehdi,*<br>*Seyid Kazım,*<br>*Qonşu Firudin* |

* * *

Mirsəccad ağanın 6 övladı olmuşdur. Böyük oğlu Bəhlul 1932-ci ildə Sədərək kəndində dünyaya gəlir və orada boya-başa çatır. Bəhlul əmim öz ailəsi ilə birlikdə 1946-cı ildə Sədərəkdən Neftçalaya köçmüş və oradan da Bərdə rayonunun Həsənqaya kəndinə gəlmişdi. Hal-hazırda həmin kənddə yaşayır. Bəhlul əmim el arasında ağsaqqal kimi böyük nüfuza malikdir. Onun 5 övladı var. Böyük oğlu Mirhüseyn, Mirqafar, Novruz, Saqi və Ələddin. Ağanın nəvələrindən Ceyhun, Emin, Ağası, Rəşad və Bəhlul. Bu balalar Mirsəccad ağanın Bəhlul əmim tərəfindən davam etdirilən nəslidir.

* * *

Mirsəccad ağanın 2-ci övladı Mehdi 1934-cü ildə Sədərək kəndində anadan olmuşdur. Mehdi əmim Sədərəkdə böyüyüb boya-başa çatıb. O, atasına təsərrüfat işlərində kömək edərdi. Mehdi əmim çox mülayim, qəlbən həssas və xoşxasiyyət bir insan idi. O, xalq arasında gözəl rəftarı ilə seçildiyi kimi, həmişə başqalarından öz əxlaqı ilə fərqlənirdi. Atasından çox tez məhrum olan Mehdi əmim həyatda çox çətinliklərlə üzləşir. Başqa əmisi Qəzənfər ağa öz qardaşları ilə çiyin-çiyinə verib kəndin kolxoz tarlasında pambıq əkib becərməli olurlar. Əməkdə çox fədakarlıq göstərdiyinə görə, Mehdi əmimi briqadir təyin edirlər. O, həm də dinə çox bağlı idi. O, vaxtlı-vaxtında namaz qılan, oruc tutan, insanlara bacardığı qədər yardım edən bir insan idi. Mehdi əmimin həyatında çox qəribə hadisələr olub. Bunlardan biri də Ucar rayonunda baş verib. Belə ki, Həsənqaya kənd sakinləri olan Toflq və Sahib Ucar rayonunda avtomobil qəzası keçirirlər. Onların işi məhkəməyə düşür. İşi aparan hakim bunlardan 4 min manat pul istəyir ki, bu işə son qoysunlar. Bunlar isə çox kasıb idilər. Öz dərdlərini Mehdi əmiyə deyirlər və ondan xahiş edirlər ki, onlara kömək etsin. Mehdi əmim zəng edib Ucarda yaşayan Vilayət

Seyidovun qohumu olan Nofəldən xahiş edir ki, getsin o hakimin yanına və ona desin ki: “O uşaqlar çox kasıb ailədəndirlər. Onların işini bir az yüngül etsin”. Nofəl gedib hakimə Seyid Mehdinin xahişini deyir. Hakim isə Nofələ deyir ki: “Sən nə danışırsan. Nə seyid, nə xahiş, artıq bu iş tamamlanıb, qurtarıb. Şahidlər də hazırdır”. Həmin günün axşamı hakim evinə gedir. Gecə yatıb yuxuda görür ki, bunu ayağından “qır qazanına” başı üstə salır, sonra yuxarı qaldırırlar. Hakim yuxudan qışqırıb ayılır. Xanımı deyir, sənə nə olub? O, yuxuda gördüklərini xanımına danışır. Arvadı ona bir stəkan çay gətirir. Hakim çayı içib yenə yatır və həmin yuxunu yenə təkrar görür. Durub deyir ki: “Mən gərək o seyid Mehdinin xahişini yerinə yetirəydim”. Səhəri gün hakim öz maşınına minib gəlir Bərdə rayonunun Həsənqaya kəndinə, Seyid Mehdinin evinə. Ondan xahiş edir ki, ağa, məni bağışla, mən sənin xahişini qəbul edib, cəddinin hörməti xatirinə bu işə xitam edirəm. Ancaq sən də mənə dua et ki, Allah məni bağışlasın.

Mehdi əmim 1997-ci ildə Həsənqaya kəndində dünyasını dəyişib. Onun üç oğlan, altı qız övladı olub - Məleykə, Mətləb, Gülüm, Əsmər, Minayə, Mərdan, Zöhrə, Zərniyar və Mehman. Oğlan nəvələrindən Səccad, Coşqun, Süleyman və Mirəli. Bu balalar Mirsəccad ağanın Mehdi əmim tərəfindən davam etdirilən nəslidir.


Seyid Qasım ağa

* *

Mirsəccad ağanın 3-cü övladı Mirqasım ağadır. O, 1936-cı ildə Sədərək kəndində Seyidlər ocağında anadan olub. Mirqasım ağanın həyatı çox keşməkeşli olub. Belə ki, o, hələ uşaq ikən 5-6 yaşı olanda onun atası Mirsəccad ağanı Böyük Vətən müharibəsinə aparırlar. Bu ağrılı-acılı çətin günlər azmış kimi, çətin illərin ardınca onların talelərində bir də öz doğma yurdlarından, isti ocaqlarından məcburi köçmək də varmış. O zaman zalım Stalinin əmri ilə yüzlərlə, minlərlə azəri ailələri öz yurdlarından deportasiya olunurdular. Taleyin bu qara günləri Seyidlər ocağından da yan keçmədi. Hökumət Mirqəzənfər və Mirsəccad ağaların ailələrini də məcburi öz yurdlarından köçürür. Bu hadisə 1946-cı ilin yaz günlərində baş vermişdi. Bu illərdə Mirqasım ağa uşaq olmağına baxmayaraq öz ailələrinə kömək olsun deyə çobanlıq etməyə başlayır. Ağa öz ailəsi ilə və əmisi Qəzənfər ağanın köməyi ilə Bərdə rayonuna gələndən sonra kolxozda fəhlə kimi işləməyə başlayır. Bir müddət davam etdikdən sonra kolxoz sədri Zinyət arvad və rəhbərlik görür ki, Mirqasım çox ləyaqətli, işinə düz və çox namuslu insandır. Elə ona görə də onu kolxozda anbardar qoyurlar. O, bu işdə 35 il - yəni kolxoz dağılana qədər işləyir. Bu illərdə o heç kəsin

haqqını heç kəsə vermir, neçə dəfələrlə dövlət tərəfindən yoxlama olur, amma heç vaxt anbardan taxıl əskik olmur. Çünki o, Allahdan qorxan və öz ruzisini halal qazanan bir insan idi. Mirqasım ağa yaxşı başa düşürdü ki, insanların yeganə yol göstərəni "Quran"dır. Mirqasım ağa yaşadığı ömür payında çalışmışdı ki, daim başqalarına öz xeyri toxunsun. Onun bu gözəl əxlaqının nəticəsi idi ki, o, heç bir tibbi təhsili olmadan insanları müalicə edirdi. Bu ona İlahi tərəfdən bir lütf idi. O, mahir sınıqçı idi, sınıq, qırıq işlərini çox gözəl müalicə edirdi. Belə insanların haqqında danışıb, onların adını çəkməklə sayıb qurtarmaq olmaz. Doğma Azərbaycanımızın hər bölgəsindən onun yanına gəlirdilər və elə onun ocağında şəfa tapırdılar.

Yaxşı yadımdadır. 1983-cü il idi. Böyük qardaşım Mirkazım əsgərlikdən gəlmişdi. Anamla mən heyvanları tövləyə qatırdıq. Birdən necə oldusa heyvanların içindəki qoç anamı vurdu. Anam yerə yıxıldı və sağ çiyninin lülə sümüyü qırıldı. Nə qədər müalicə etdiksə də, yenə anam düz on bir il qolunu qaldıra bilmədi. Bu hadisədən on bir il sonra anamla Bərdəyə getmişdik. Əmim bizi qonaq çağırmışdı. Elə bu vaxt əmimin yanına qonşu kənddən bir qadın gətirmişdilər. O qadının da qolu çıxmışdı. Mirqasım əmim o qadının qolunu

salıb, yaxı qoyub bağladı. Birdən mənim yadıma anamın qolu düşdü. Mən əmimdən xahiş etdim ki, anamın da qolunu müalicə etsin. Anam isə utanırdı. Mənə deyirdi ki: "Lazım deyil, ayıbdır". Əmim anamın qoluna baxıb dedi ki: "Bu sınıq çox bərkiyib. İndi onu müalicə etmək lazımdır". Mirqasım ağa oğlu Faiqi çağırıb tapşırdı ki: "Get meşəyə, orada bulağın gözündə bitən ot var. El arasında o həmin ota "qıcı" deyərlər. Get həmin otdan gətir". Faiq maşını işə salıb meşəyə getdi və bir neçə saatdan sonra həmin otdan yığıb gətirdi və verdi anasına. Xanım xala ocağı qalayıb, həmin otları tökdü suyun içinə və onu qaynatmağa başladı. Elə ki, su qaynadı, Xanım xala otların suyunu süzüb, otları çıxarıb anamın qırıq qoluna döşədi və sonra Mirqasım ağa anamın qırıq qolunu saldı.

Mirqasım ağa Sədərək kənd sakinləri Abbasov Eldar, Rzayev Hüseyn və Yəhyanı da müalicə edib. Bunlar erməni daşnaklarının Sədərək kəndinə hücumu zamanı yaralanmışdılar. Hz. Məhəmməd (s.ə.v) buyurub: ***"Mənim ümmətimə qarşı mehriban olalar, Allah da onlara qarşı mehriban olar".***

Mirqasım ağanın həyatı boyu bir çox kəramətləri olub ki, bunlardan biri də Ağdam rayonunun Güllücə kənd sakinləri - Namiq və İradənin həyatına təsadüf edir. Belə ki, bu gənclər 6 il idi ki, evli idilər. Ancaq onların

övladları olmurdu. Bu gənclər nə qədər müalicə alırdılarsa da, heç bir nəticə yox idi. Nəhayət, onlar öyrənirlər ki, Bərdə rayonunun Həsənqaya kəndində bir seyid var, özü də ocaqları çox kəramətlidir. Bu gənc ailə Mirqasım ağanın yanına gəlirlər. Ağa onlara baxır və öz üsulu ilə onları otlarla müalicə edir. Düz bir il tamam olandan sonra bu gənc ailənin bir qız övladı olur. Bu uşağın adını Mirqasım ağa Nübar qoyur.

İmam Əli (ə.s) buyurub: ***“Əməl etmədən behişt istəmək axmaqlıqdır”.***

Mirqasım ağanın kəramətlərindən biri də Yevlax rayonunun Qara İmanlı kənd sakini Çingizin həyatında baş verib. Çingiz traktorçu işləyirdi. Tarlada şum edirdi. Birdən necə olursa traktorun arxa tərəfindən səs gəlir. Çingiz traktoru saxlayıb düşür ki, arxaya baxsın, görsün nə olub. O, baxır heç nə anlaya bilmir və yanındakı yoldaşına deyir ki, traktoru arxaya ver görək, bu nə səsdi. Yoldaşı traktoru arxaya verəndə necə olursa Çingizin ayağı şumdakı çör-çöpə ilişir və traktorun altına yıxılır. Traktor onun üstündən keçir. Xoşbəxtlikdən Çingiz şumlanmış torpağın ortasına yıxılır. Onu tez taxtanın üstə qoyub gətirirlər Mirqasım ağanın yanına. Ağa Çingizə baxır və ordakılara deyir: “Bu çox ağır sınıqdı. Onu tərpətmək olmaz”. Mirqasım ağa həmin

xəstəni on doqquz gün evində saxlayıb, hər gün onun qırıq-sınığını düzəldirmiş. Nəhayət, Çingiz Mirqasım ağanın ocağında sağalıb şəfa tapır. Allaha şükürlər olsun ki, Çingiz bu günə kimi sağ-salamatdır. O, Mirqasım ağanın bu alicənablığını görəndən sonra əhd edir ki, düz yeddi il ağanın heyvanlarına traktorla ot gətirəcəm və belə də edir.

Belə oxşar hadisələr Mirqasım ağanın həyatında çox baş verir. O, həm də bir el ağsaqqalı kimi çox xeyirxah və vətənpərvər insan idi. O, öz şəxsi vəsaiti ilə kənddə artezian quyusu vurdurmuşdu. Kəndin işığının çəkilməsində və yolun asfaltlanmasında fəal iştirak etmişdi.

Həzrət Əli buyurur: ***"Həqiqətən insanların dünya və axirətdə ağaları (üstün olan) səxavətli olan insanlardır".***

Ağanın ən böyük aliliyi və ucalığı onda idi ki, o, xəstələri təmənnasız müalicə edirdi. Heç kəsdən heç nə ummadan yalnız Allah rizası üçün bu xeyirxah və gözəl əməlləri edirdi. Bəzən elə olurdu ki, elə ağır xəstə olurdu ki, onlar bu ocaqda şəfa tapdıqdan sonra peşkəş kimi öz maşınlarının açarlarını belə ağaya verirdilər. Ancaq Mirqasım ağa bu işləri Allah rizası üçün gördüyünü deyirdi.

Mirqasım ağa həm də gözəl şair idi. Onun islam dininə olan bağlılığı şeirlərində öz əksini tapmışdı. O, 2008-ci ilin dekabr ayının 5-də cümə

günü Allahın rəhmətinə qovuşmuşdur.

Ağanın ölümü çox qəribə olub. Belə ki, onun ölümünə 3 gün qalmış Ağa İmam Hüseyn (ə.s)-a mərsiyə deyib ağlayırmış. Övladları ona deyir ki: "Ata, hələ məhərrəmlik deyil. Aşuraya iyirmi gün qalıb. Sən indidən belə mərsiyə deyib ağlayırsan". Ağa isə onlara belə cavab verir ki: "Mömin bəndə gərək həmişə İmam Hüseyn (ə.s)-ı yad etsin və onun qəhrəmanlığını xatırlasın. Onun əqidə və imanından ilham alıb, öz iradəsini kamilləşdirsin. Çünki "Şəhidlər ağası" İmam Hüseyn (ə.s) öz şəhadəti ilə bütün islamı ayaqda tutdu. Əgər o gün cəddimiz İmam Hüseyn (ə.s) zalımlara qarşı durmasaydı, bu gün İslamın şəriətindən əsər-əlamət qalmazdı. Bu gün bütün dünya müsəlmanları İmam Hüseyn (ə.s.)-a mənəvi cəhətdən borcludurlar. Necə ki, cəddi Peyğəmbər Məhəmməd (s.ə.v) onun haqqında belə buyurub: ***"Hüseyn hidayət çırağıdır. Nicat gəmisidir".***

Mirqasım ağa ağlaya-ağlaya Allahın rəhmətinə qovuşmuşdur. İnşallah, qiyamət günü də İmam Hüseyn (ə.s) özü ağaya şəfayətçi olar. Amin!



***Mirqasım ağa nəvələri Mircəlal, Mircamal və Mirkamal ilə***

Oğlum Mircalal 2010-cu ildə Seyid Qasım Ağanı onun ölümündən iki il sonra yuxuda görür. Seyid Qasım ağa Mircalala belə bir şeir söyləyir:

*Yaxşılıq elədin arxası gəlsə,*
*Ömür boyu belə getsə yaxşıdı.*
*Bir toxum düşübdü Seyid nəslinə,*
*Xudam özü nəzər etsə yaxşıdı.*

*Ərənlər naminə başın əyəcək,*
*Dayan da igidlik meydanında tək.*
*Gözləyirsən vədə nə vaxt gələcək,*
*Sahib Zaman dəvət etsə yaxşıdı.*

*Mən bilirəm siz orada dardasız,*
*Seyid Qasım haqda, siz nahaqdasız.*
*Şahı Mərdan mərdə əlin uzadar,*
*Ağam özü əl uzatsa yaxşıdı.*

Mircəlal yuxudan ayılır və Seyid Qasımın yuxuda ona pıçıldadığı bu şeiri elə olduğu kimi, deyildiyi kimi də kağıza köçürür.

Şeirdən söz düşmüşkən dəyərli eloğlumuz, dəyərli insan, şair Hacı İlyasın (ruhu şad olsun) 28 avqust 2003-cü ildə mənə həsr etdiyi bir şeirin də burda yer almasını istədim, daha doğrusu, ürəyimdən belə keçdi. Eləobaya çox gərəkli bir insan idi Hacı İlyas. Öz

xeyirxahlığı, xeyriyyəçiliyi, köməyi, yardımı ilə seçilirdi. Sədərəyin ağır günlərində igidliklə döyüşmüşdü. Bir sözlə, elin-obanın kisəsindən getdi Hacı İlyas. Bir daha ruhu şad olsun.

## Fazilin

*Hatəmdi, Səccaddı, böyük bir zatdı,*
*Himinnən isməti olub Fazilin.*
*Seyiddi, Hacıdı, iman əhlidi,*
*Taledən qisməti olub Fazilin.*

*Dara düşənlərin dadına yetər,*
*Səqirə, fəqirə ehsanat edər.*
*Hər kəs qapısına borc pula gedər,*
*Verməyə niyyəti olub Fazilin.*

*Əl də tutar, dua edər hər kəsə,*
*Namaz qılar, oruc tutar, ya nəsə.*
*Çağır cəddin işin düşəndə nəsə,*
*Cəddinə biyəti olub Fazilin.*

*Halal ocaqdandı, halal süddəndi,*
*Mir Cəlal oğludu, bizim kənddəndi.*
*Babası timsallı, o niyyətdəndi,*
*Kəramət, qüdrəti olub Fazilin.*

*Bir niyyət tut, döy qapısın ün elə,*
*Niyyət qəbul, kəs qurbanın, dön elə.*

*Xudam, ona budaqları min elə,*
*Kafirə nifrəti olub Fazilin.*

*Xudanın sirridi Əli mürtəza,*
*Kömək əli çatdır bizi muraza.*
*Cəddi həmin nə çoxadı, nə aza,*
*Əzəl mərifəti olub Fazilin.*

*Harda yaşayırsa ocağı birdi,*
*Ayağı dəyən yer inanın, pirdi.*
*Çəkdiyi cəfadı, bilin əcirdi,*
*Qəlbdə mərhəməti olub Fazilin.*

*Hacı İlyas, nə görübsən onu yaz,*
*O yolun yolçusu olsun peşnamaz.*
*Çağır cəddin gündə min yol, pis olmaz,*
*Xudadan hörməti olub Fazilin.*

**Hacı İlyas**
*Bakı, 28.08.20013*

Mirqasım ağanın 9 övladı olmuşdur – Əvəzağa, Asif, Südabə, Səltənət, Lətafət, Mirtağı, Xuraman, Mahirə və Faiq. Mirqasım ağanın oğlan nəvələrindən Saleh, Mirqasım və Mirsadıq. İnşallah, bu balalar babalarının yolunu layiqincə davam etdirərlər.

* * *

Mirqasım ağanın 3-cü övladı Mirtağı 1967-ci ildə Seyidlər ocağında dünyaya gəlmişdir. O, çox mərd və qorxmaz bir insan idi. Mirtağı vətənimizin azadlığı uğrunda gedən meydan hərəkatlarında fəal iştirak etmişdir. Bu meydan hərəkatında sovet əsgərləri tərəfindən baş nahiyəsindən ağır zərbə almışdı və 1989-cu il noyabr ayının 19-da xalqımızın azadlığı uğrunda gedən ilk şəhidlərdən olmuşdu.

* * *

Mirsəccad ağanın 4-cü övladı Mirkazım 1937-ci ildə anadan olmuşdur. O, bütün ömrünü öz halal əməyi ilə yaşamışdı. Mirkazım ağa uzun müddət kolxozda briqadir işləmiş və ictimaiyyətlə yaxından təmasda olmuşdur. Mirkazım əmi çox sadəlövh bir insan idi. O, ağır təbiətli və gözəl əxlaqı ilə başqalarından fərqlənirdi. Həmişə az danışar, çox dinləyərdi. Kəndin bütün xeyir və şərində yaxından iştirak edərdi. Necə ki, cəddi İmam Əli (ə.s) belə buyurub: ***"Möminin sevinci üzündə, qüdrəti dinində, kədəri qəlbindədir".***

Mirkazım ağa 1987-ci il aprel ayının 3-də Həsənqaya kəndində dünyasını dəyişmişdir. Mirkazım əminin 8 övladı olub. Övladlarından Arzu, Azər, Azad, Yeganə, Sona, Mənzər, Arzuman və Pərvanə. Oğlan nəvələrindən Nicat

və Samir. Bu Mirsəccad ağanın Mirkazım oğlundan olan nəslidir.

* * *

Mirsəccad ağanın 5-ci oğlu Baba 1940-cı ildə anadan olub, Bərdə rayonunun Həsənqaya kəndində yaşayıb. 2010-cu ildə dünyasını dəyişib. Baba əminin 5 övladı var – İman, İradə, Etibar və Elnarə. Oğlan nəvələri Pərviz, Ağa və Elsevər. Bu övladlar da Mirsəccad ağanın oğlu Baba tərəfindən gələn nəslidir.

* * *

Mirsəccad ağanın 6-cı qız övladı Ağabəyim bibidir. Hal-hazırda Salyan rayonunun Şorsulu kəndində yaşayır.


Seyid Qəzənfər Ağa

* * *

Mirağanın 4-cü və son övladı Mirqəzənfər ağa olub. O, 1905-ci ildə Sədərək kəndində anadan olub. Qəzənfər ağa gözünü dünyaya açanda azan səsi, Quran nəfəsi ilə pərvəriş edir, böyüyür və püxtələşir. O, öz fərasəti və dinə bağlılığı ilə heç də özündən böyük qardaşlarından fərqlənmir. Qəzənfər ağa zahirən böyük qardaşı Miryaqub ağaya çox oxşayırdı. Onlar öz gözəl əxlaqı və rəftarları ilə bir-birinə bənzəyirdilər. Qəzənfər ağanın ömrünün ən çətin vaxtı repressiya illərinə düşməsi idi. O zaman Stalinin əmri ilə hər yerdə olduğu kimi, doğma Azərbaycanımızda da repressiya oldu. O zaman bu qan içən insanların əmri ilə hər yerdə baş bilənləri, alimləri, seyidləri, din xadimlərini öz doğma yurd-yuvalarından sürgün edirdilər. Məscidləri bağlayırdılar, onlardan taxıl anbarı kimi istifadə edirdilər. Stalinin əmri ilə 1946-cı ildə Qərbi Azərbaycandan, o cümlədən Naxçıvandan, Sədərəkdən bir sıra insanları öz doğma ocaqlarından məcbur edib köçürürdülər. Talehin bu acınacaqlı günləri Seyidlər ocağından da yan keçmədi. Mirqəzənfər ağanı qardaşı Mirsəccad ağanın ailəsi ilə birlikdə Neftçala rayonunun şoran bir düzənliyinə sürgün ediblər. Bu çətin yolu onlar

iki aya qət ediblər. Onlar burada məskunlaşana qədər çox əzab-əziyyət çəkiblər. Bu yerdə nə bir ağac, nə də ki, bir qurtum təmiz su olub. Ancaq Kürün lilli suyundan istifadə ediblər. Ağanın dediyinə görə, həmin vaxtlar bu çöllərdə çoxlu insan xəstəlik tapıb dünyasını dəyişib. Qəzənfər ağa öz ailəsi və qardaşının ailəsi ilə burada qalmağa məcbur olur. Qardaşı Mirsəccad ağa müharibəyə getmişdi və geri dönməmişdi. Ona görə də onun da ailəsinə Qəzənfər ağa baxırdı. Onlar bu acınacaqlı çöldə 3 il məcburi qalırlar. Bir sıra çətinliklərlə üzləşirlər. Və nəhayət, Qəzənfər ağa imkan tapıb Bərdə rayonuna gəlir. Köhnə dostlarını tapır və onlarm köməyi ilə Bərdənin Həsənqaya kəndində özlərinə yer alırlar. Bu kənddə əvvəllər bir neçə erməni ailəsi də yaşadığından bu kəndə el arasında İrəvanlı kəndi də deyirdilər. Əksəriyyət camaat gəlmə idi. Qəzənfər ağa burada yeni məhəllə alandan sonra Neftçalaya özünün və qardaşının ailəsinin dalınca gedib onları da Bərdəyə gətirir.

Bu hadisə 1949-cu ildə baş verir. Ağanın dediyinə görə, çox çətinliklə gəlib çatırlar. Qəzənfər ağanın böyük qızı Sara xanım qardaşı oğlu Mirqasıma nişanlı idi. Mirqasım ağa Mirsəccadın 3-cü oğlu idi. Yolda Sara xanım çox ciddi xəstələnir. Kəndə çatandan sonra Saranın vəziyyəti getdikcə ağırlaşır və onun xəstəliyi ölümlə nəticələnir. Qəzənfər ağa çox

kədərlənir. Həm övlad dərdi, həm də nişanlı olduğu üçün. Xülasə məqam ki, gəlir meyidi yuyub, kəfənləməyə. Xəbər verirlər ki, su yoxdur. Qəzənfər ağa həyat yoldaşına deyir ki: "Get Saranı yumağa su hazırla". Həyat yoldaşı ona deyir ki: "Suyu mən hardan alım, özün bilirsən ki, çox uzaq məsafədən suyu güclə içməyə gətiririk. Saranı yumağa çox su lazımdır". Qəzənfər ağa cavanlara tapşırır ki, gedin olmasa atla, araba ilə kanaldan su gətirin. Cavanlar at sürüb gedib görürlər ki, kanalda su yoxdur. Kənddə artezian da yox idi. Artıq qızın ölümü yox, suyun olmaması bir başqa dərd olmuşdu. Ağanın xanımı Surə nənə çox narahat idi. Deyirdi ki, indi biz nə edəcəyik. Ağa isə onları sakitləşdirirdi və deyirdi ki, "Allah-kərimdi. Narahat olmayın, Allah bizi naümid qoymaz, bir çarə, əlac tapılar. İnşallah...». Hava yavaş-yavaş qaralırdı. Qəzənfər ağa göstəriş verdi ki, meyidin üzərini örtün. Hamı istirahətə çəkilmişdi. Ancaq Qəzənfər ağa səhərə qədər namaz qılıb dualar edirdi. Ulu Rəbbindən kömək diləyirdi. Bu ağanın ən böyük kəramətlərindən idi. Səhər açılanda evdəkilər çölə çıxıb gördülər ki, evin yanındakı tut ağacının dibindən göz yaşı kimi bulaq axır. Qəzənfər ağa evdəkilərə deyir, durun, Ulu Tanrıdan kömək gəldi. Yuyucunu çağırın və Saranı yuyun. Qonum-qonşu, ev

əhli sanki dərdlərini unudub bu möcüzəyə görə qəlbən çox sevinmişdilər. Və rəhmətlik Saranı o su ilə yuyub, qüsl edib dəfn etmişdilər.

Necə ki, cəddi İmam Sadiq (ə.s) buyurub: ***"Hər kəs Allahdan xeyir istəyib. Onun verəcəyinə razı olarsa, Allahın ona xeyir verəcəyindən əmin olsun".*** Həmin su düz 7 gün axır. Ağagildə su ilə məclisi yola salırlar. Allaha şükürlər olsun ki, o suyu görən və ondan içən insanlardan bu gün də sağ olanlar var. Biri də Səccad ağanın oğlu Bəhlul ağadır. Bu hadisə Qəzənfər ağanın kəramət sahibi olduğunu bir daha sübut edir. Allaha ibadətdə xalis olan saleh və hürriyyətli insanlar haqdadır. Allah-təala öz müqəddəs kitabında belə buyurmuşdur: ***"Bax gör camaatın bəzisini bəzisindən necə üstün və fəzilətli etmişik. Axirətdə isə daha yüksək dərəcə, daha böyük üstünlük vardır" (İsra surəsi, 21-ci ayə).***

Eşq və məhəbbət üzündən olan bəndəlik bağlılıqlardan ruhunu azad etmiş, azad ruhlu saleh insanlara məxsusdur. Məhz Qəzənfər ağa cismən saleh bəndələrdən idi. Ağanın bu böyük kəraməti insanlar arasında tez yayılmağa başladı. Onun hörməti nəinki Bərdə rayonunda, hətta ətraf rayonlarda da yayıldı. Qarabağ camaatı seyidlərə çox ehtiram edən camaatdır. Hətta orada olan yerli sakin rəhmətlik Seyid Yusif ağa bu hadisədən sonra Qəzənfər ağaya çox böyük ehtiram qoyardı. Qəzənfər ağa

məclislərə gedəndə Miryusif ağa həmişə ayağa durardı və deyərdi ki, bu seyidlərin ocağı bizim ocaqdan da kəramətlidir, onlara ehtiram etmək vacibdir. Qəzənfər ağa Həsənqaya kəndinə gələndən sonra o kənddə ilk dəfə olaraq məhərrəmlik mərasimləri, Aşura tədbirləri keçirməyə başlayıblar. Ağa hər yerdə İslam dinini təbliğ edirdi. İnsanları Allahın zikrinə dəvət edirdi. Quran ayələrini, təvsirini onlara başa salırdı. Ağa insanlara başa salırdı ki, ən böyük bədbəxtlik Allahın nəzərindən kənarda qalmaqdır. Səadət və kamala çatmaq istəyən insan öz yaradanına qarşı diqqətli olmalıdır. Allahı unudan isə özünü unudur. O, nə üçün yaradıldığını və səadətə aparacaq doğru yolu unutmaqla cəhənnəmə üz tutur. Bütün bunları insanlara çatdırmaq nə qədər çətin olsa da, Qəzənfər ağa bunu sevərək edirdi. Çünki o, yaxşı bilirdi ki, "yaxşı işlərə dəvət etmək, pis işdən çəkinmək" onun boynunda vacib bir dini vəzifə idi.

Qəzənfər ağa çox sadə bir insan idi. O, yaxşı bilirdi ki, İslam dini ***"Əmr be mərruf və nəhy əz münkər"*** məcmuəsində möhkəmlənib və bu günə kimi gəlib çatmışdır. Müsəlman mömin şəxs bilə-bilə onu tərk etsə, Allahla öz arasında olan rabitəni qırmış olur. İnsanları ancaq əmr və Nəhy cəhalətdən, zülmətdən xaric edib səadətə gətirib çıxarmışdır. İmam Əli (ə.s) oğlu İmam

Həsən (ə.s) və İmam Hüseyn (ə.s) belə buyurur: ***"Oğlum, əmr və Məərruf və Nəhy əz münkəri tərk etməyin. Əgər belə olsa tərk olunsa, zalim şəxs sizlərə hakim olar. Hər nə qədər onun zülmündən nicat tapmaq üçün dua etsəniz də, Allah-təala qəbul etməz".***

Allah-təala bizləri ***"əmr və məruf" və "Nəhy əz münkər"*** edənlərdən, nəsiyyət qəbul edənlərdən və əməl edənlərdən öz haqqımızı bilənlərdən qərar versin. Peyğəmbər (s.ə.v) və onun Əhli-Beytini bizlərdən razı, bizlərə onların ziyarətini və şəfaətini qismət etsin. Amin!

Qəzənfər ağa 1993-cü il iyulun 1-də məhərrəm ayının 10-da Aşura günü vəfat etmişdir. Onun 4 övladı olmuşdur - Mirağa, Əmir, Sara, Firəngiz. Qəzənfər ağanın oğlan nəvələrindən Teymur, Bilal, Xeyrulla, Hilal, Yadulla, Hidayət, Vilayət və Tariyel. Ağanın nəticələrindən Bünyamin, Fərrux, Ceyhun, Fərid, Samir, Əmir, Qəzənfər və Yusif. Bu övladlar Qəzənfər ağadan seyidlər ocağına  yadigardır.

* * *

Kərbəlayi Seyid Qənbərin 5-ci övladı Mirbağır ağa idi. O, Qara Seyidin 5-ci oğlan nəvəsi idi. Mirbağır ağa gözünü açandan Quran nəfəsi ilə qidalanır. O, mömin ailədə böyüyür, boya-başa çatır. Bu dindar ailə heyvandarlıq və əkinçiliklə məşğul olurdu. Amma Mirbağır

ağa ticarətə meylli olduğu üçün böyüyəndən sonra öz ata-anasının rizası ilə ticarətlə məşğul olmağa başlayır. Ağa qonşu dövlətlərə ticarət etməyə gedərdi. İran və Türkiyədən mallar gətirib sataraq əldə etdiyi gəlirdən kimsəsiz, imkansız insanlara kömək edərdi. Mirbağır ağa öz doğma qardaşları ilə birlikdə Kərbəla ziyarətinə gedib. Bu müqəddəs torpaqları ziyarət edib. Necə ki, İmam Əli (ə.s) buyurub: ***"Haqq şəxsiyyətlərlə tanınmır. Haqqı tanı ki, onun əhlini də tanıyasan".*** Məhz Mirbağır ağa haqq əhlini tanıdığı üçün o ağır şəraitdə keşməkeşli yollarla böyük əzab-əziyyətlərlə dəfələrlə piyada Kərbəlaya üz tutmuşdur. Bu seyidlərdə İmam Hüseyn (ə.s) məhəbbətləri, eşqləri nəsilbənəsil davam edirdi. Ağanın 2 oğlan övladı olub. Böyük oğlu Mirəli Məşhəd ziyarətində olub. Onun da 2 oğlu olub - Məşədi Ağabala və Kərbəlayi Nemət. Kərbəlayi Nemətin bir övladı olub Hilal. O da Böyük Vətən müharibəsinə gedib, amma tale elə gətirib ki, onun da qara kağızı gəlib. Məşədi Ağabala isə öz babası Mirbağır ağanın getdiyi yolu davam etdirir, kəndin mərkəzində özü üçün bir dükan tikdirib, ticarətlə məşğul olur. Bunun da bir əhvalatı var. Rəhmətlik Səriyyə nənə Ağabala ağanın xanımı idi. O, deyərdi ki: "Günlərin bir günü iki nəfər gəlib Ağabala ağanın dükanını arxadan yarıblar, içəri daxil olub oradakı

malları oğurlamaq istəyiblər. Bu həmin iki nəfər malları kisəyə doldurub, həmin yardıqları yerdən istəyiblər çıxsınlar, lakin görürlər ki, yarığın ağzında iki dənə böyük ilan var. Həmin bu oğrular geri çəkilib əllərindəki malları yerə qoyurlar. Görürlər ki, ilanlar da geri çəkilirlər. Yenə də malları götürüb aparmaq istəyəndə yenə əvvəlki iki ilan yuxarıdan sallanaraq onları çölə çıxmağa qoymurlar. Bu hal axşamdan səhərə qədər təkrarlanır. Səhər azanı oxunanda Məşədi Ağabala ağa namazını qılıb dükana gedir. Qapını açıb görür ki, iki nəfər dükanın içindədi. Özü də malları kisələrə yığıb oturublar. Ağa nəzər edir ki, dükanın arxa divarı yarılıbdır. Həmin iki nəfər Məşədi Ağabala ağadan çox xəcalət çəkərək üzr istəyirlər. Ağa onlardan soruşur ki, niyə burada oturubsunuz? Axı istədiyiniz malları buradan apara bilərdiniz? Onlar xəcalət çəkərək ağaya cavab verirlər ki, biz buradan çıxmaq istəyirdik, həm də yığdığımız bu malları da özümüzlə aparmaq istəyirdik. Ancaq ağa, sən bizi bağışla, sizin ocağınızın kəramətindəndir ki, bu iki ilan bizi səhərə qədər buradan çıxmağa qoymayıblar. Məşədi Ağabala ağa onlara cavab verir ki, həmin gördüyünüz bu iki ilan biri ağ rəngdədir, biri də qırmızı ilandır. Bu heyvanlar dədə-babadan bu ocaqda yaşayırlar. Ağa həmin iki nəfərə deyir ki: “Mən sizi bağışlayıram, sizi buraxıram, gedin. Allah rizası üçün tövbə edin ki, bir daha belə

haram iş görməyəsiniz. Bu malları da Allaha xatir sizə verirəm, bu dəfə halal olur. Aparın özünüzə iş-güc tapana qədər bu malları satıb dolanarsınız. Mən də söz verirəm ki, bu iş bizim aramızda sirr olaraq qalacaq. Arxayın olun ki, sizin kim olduğunuzu heç kəs bilməyəcək". Rəhmətlik Səriyyə nənə deyərdi ki, sonra biz nə qədər etdiksə Məşədi Ağabala ağadan həmin o iki nəfərin adını öyrənə bilmədik. Əziz Peyğəmbərimiz Məhəmməd (s.ə.v) belə buyurub: ***"Səxavətli olanlar Allaha xoş güman olduqları üçün səxavətli olurlar".***

Məşədi Ağabala ağanın bir kəraməti də bu olub ki, Ağanın heyvan sürüsünü otaran çobanı var idi. Həmin bu çoban yazda heyvanı yaylağa aparır, payız isə gətirirdi. Çox vaxt Ağrı dağının ətəyində yurd salıb 5-6 ay heyvanı orada saxlayıb otarırdı. Heyvanları yaylaqdan qaytarmaq vaxtı gəlib çatır. Çoban Araz çayının sahilinə çatanda görür ki, Sovet ordusu sərhədlərə tikanlı sim çəkiblər. Çoban bu işdən çox narahat olur. Sürünü çayın kənarında saxlamağa məcbur olur. Belə ki, çoban və ailəsi bir aya qədər Araz çayının o tayında məcbur qalırlar. Bu bir ayda onlar yalnız süd və qatıqdan istifadə edirlər. Bir gün çobanın xanımı yoldaşına deyir ki, gəl bu quzudan birini kəsək, həm dişimizi dəyişək, həm də ki, bilmirik nə vaxt yol açılacaq. Çoban buna razı

olur. Ağanın sürüsündən bir quzu kəsirlər, sonra quzunu doğrayıb xörək hazırlayırlar. Elə ki, quzunu qoyurlar ocağın üstünə qaynasın, bir az keçməmiş baxıb görürlər ki, qazanın kənarından qanlı su axır. Gəlib qazanı açırlar və görürlər ki, qazanda qan qaynayır. Çoban işi başa düşür və çox narahat olur. Öz xanımına deyir ki, Seyid malıdı, biz bunu yeyə bilmərik. Mən mütləq nəyin bahasına olursa-olsun ağanın yanına getməliyəm. Ondan halallıq almalıyam, bu mal hər mala bənzəməz. Çoban ailəsi ilə halallaşıb özünü Araz çayına vurur. Çayın dayaz yerindən birtəhər keçib Sədərəyə gəlir. Çoban kəndin mərkəzinə çatır və görür ki, Məşədi Ağabala ağa oturub çayxanada, öz yoldaşları ilə söhbət edir. Çoban bunu görən kimi sevincək ağanın yanına gəlib, salam verir. Ağa da onu hörmətlə qarşılayır və öz yanında əyləşdirir. Çoban başına gələn bütün əhvalatı danışır. Ağa da, ətrafındakı insanlar da onu diqqətlə dinləyirlər. Bir az sakitlik çökür, hamı Məşədi Ağabala ağanın üzünə baxır ki, görək ağa nə qərara gəlir. Nəhayət, ağa sakitliyi pozaraq deyir ki: "Çoban qardaş, sən indi qayıt get öz ailənin, uşağının yanına. Heyvanları da sahibsiz qoyma. Əgər imkan olsa, yol açılsa gətirərsən. Yox əgər imkan olmasa, onda sürü anadan əmdiyin süd kimi halal xoşun olsun". Çoban cavab verir ki: "Ağa, hamısını deyirsən, axı heyvanın sayı analı, balalı

300-dən çoxdur". Ağa cavab verir ki: "Bəli, hamısını deyirəm".

Bu hadisə Məşədi Ağabala ağanın necə də səxavətli olduğunu sübut edir. Çoban gedir və bir daha geri dönmür. Ağanın bu səxavəti uzun illər Sədərək camaatının yadında qalır. Məşədi Ağabalanın cəddi İmam Əli (ə.s) necə də gözəl buyurub: ***"Rəhbəriyyət, böyüklük, ağalıq, ağsaqqallıq böyük bir dəryaya bənzər ki, ondan kiçik çaylar, göllər ayrılar. Əgər dəryanın suyu şirin olsa, çayların və göllərin də suyu şirin olar. Əgər dəryanın suyu şor olsa, çayların və göllərin də suyu şor olar".*** Heç şübhəsiz ki, Məşədi Ağabala ağa öz ata-babaları kimi səxavətli və dindar bir mömin idi. O, həmin şirin sudan içmişdi və ondan şirin əməllər, gözəl əxlaq zahir olurdu.

Hər dövrdə olduğu kimi, o dövrdə də paxıl və bədgüman insanlar əfsuslar olsun ki, olub. Məşədi Ağabala ağanı oğlu Bilal ilə birlikdə bir salxım üzüm üstündə 1937-ci ildə sürgün edirlər. Bilal dayı kolxozdan evə qayıdarkən bir salxım üzüm dərir, bunu görən namərdlər hökumətə xəbər verirlər. Bu hadisəyə görə ata və oğlu tutub aparırlar və bir daha geri dönmürlər. Əslində bu bir salxım üzüm bir bəhanə idi. Hər yerdə olduğu kimi, Stalinin casusları Sədərəkdə də var idi. Məşədi Ağabala ağanın yaxşı şəraiti olduğu üçün, həm də oğlu

ali təhsilli hesabatçı olduğu üçün bəzilərinin xoşuna gəlmirdi. İşi elə qurdular ki, ata-oğulu bir yerdə tutub apardılar. Məşədi Ağabala ağanın oğlu Bilaldan Arifə adlı bir qız uşağı yadigar qalır. O vaxt Bilal dayı yeni evlənmişdi. Onu tutanda qızı Arifənin altı ayı təzə tamam olmuşdu.



Seyid Mirhüseyn Ağa

* * *

Məşədi Ağabalanın iki oğlu, iki qızı olub - Bilal və Mirhüseyn, Səkinə və Fatimə. Səkinə cavan ikən vəfat edib. Mirhüseyndən isə 3 oğlu olub: Vahid, Nemət, və Rəhman. Qızı Fatimə isə Miryaqub ağanın oğlu Mircalal ağa ilə evlənib və ondan 6 övladları olub. Mirhüseynin oğlan nəvələrindən Ağa, Sənan və Mirhüseyn. Bu Məşədi Ağabala tərəfindən davam olunan nəslidir. Böyük oğlu Mirqafar və kiçik oğlu Məşədi Məhəmməd. Mirqafarın 3 övladı olub: Kamil, Həvva və Zərifə. Məhəmməddən 3 övladı olmuşdu: Vilayət, Şücayət və Elmira. Kərbəlayi Seyid Qənbərin sonuncu və altıncı övladı olan Mircəfər ağadan 2 oğlu olmuşdur. Böyük oğlu Mirheydər və Mirhəsən. Mirheydərdən Mirqasım, Mirhəsəndən də Hidayət və Tofiq. Hidayətdən Vaqif, Asif, Nurəddin və Bəxtiyar, Tofiqdən Malik və Mədət.

## Müəllifdən son söz

İstəkli oxucu!

Mənsub olduğum Seyidlər nəslinin tarixinə dair, bu nəsildən olan müqəddəs insanların kəramətləri haqqında görüb, eşidib, bildiklərimi yazıb tamamladım beləcə. Elə bilirəm ki, mənim toplayıb qələmə aldığım bu məlumatlar, hadisələr, faktlar Seyidlər ocağını tam əhatə etmir, bəlkə də ocaq haqqında olub-keçənlərin cüzi bir hissəsidir. Bəlkə də seyidlərlə bağlı əhvalatların bundan da çox hissəsi el arasında, dillərdə dolaşmaqda, yaddaşlarda yaşamaqdadır.

Bu kitabı siz oxucuların ixtiyarına verməklə bu kitabda bəhs olunan müqəddəslərə bir daha Ulu Tanrıdan qəni-qəni rəhmət diləyirəm. Sizlərə öz hörmət və ehtiramımı bildirirəm.

Allah yar və yardımçınız olsun!

**Qeyd**



Kərbəlayi Qara Seyid
Kərbəlayi Seyid Qənbər
Kərbəlayi MirYusif
Kərbəlayi MirQasım
Kərbəlayi MirHeydər
Kərbəlayi Mirkazim Aga
Kərbəlayi MirBagır
Kərbəlayi MirCəfər
Əhəd Aga
Kərbəlayi MirBaba
Qəzənfər Aga
Kərbəlayi Miraga
Səccat Aga
Lətif Aga
Məşədi MirƏli
Hacı MirƏziz
Mir Heydar
Mir Həsən
Mir Yasin Aga
İzzət Aga
Əmir
Miraga
Bəhlul,Mehdi, Mirkazım,Mir Baba
MirQasım
Məşədi Agabala
Kərbəlayi Nemət
MirQafar
Məşədi Məmməd
Həyyat
Huseyin
Yavər
Əvəz, Asif,Faiq
Bilal 1937
MirHuseyin
Hilal
Kamil
Vilayət
Sucayyət
Baba
Mirhəsən
Kərbəlayi Damət
Rza
İlqar
Hacı Oktay
Məşədi Musviq
Dilavər
Əfqan
Kərbəlayi Vahid
Kərbəlayi Nemət
Əziz.Məhəmməd,Fariz
Hidayyət, Vusal
Tural, Cavid
İmran MirEmil
Səyyat, Emin
Yasin,Orxan
Elcan,Şahin
Hilal,Yadullah, Hidayət,Taryel
Teymur,Bilal, Xeyrulla
Aga, Sənan,MirHuseyin
MirQasım
Yusif ,Fazil, Yaqub
Hidayət
Hacı Tofiq
Vaqif,Asif, Nurəddin, Bəxtiyar,Cəfər
Malik,Mədəd
Kərbəlayi MirYaqub Aga
Seyid Muzəffər
MirƏli (1941-1945)
Seyid MirCəlal
MirAbbas
Məşədi Səttar
Məhərrəm
Miraga
İlkin
İntiqam
Lətif
Elmir Samir
Yəhya
Ceyhun
Asəf
Yusif
Əziz
Nicat, Kənan
Elnur, Tural
Məhəmməd, Yunis
Arif
Akif
MirƏli
Kərbəlayi Namiq
Səttar,Sultan
Natiq
MirKazım
Hacı Mirfazil
MirYaqub
Mürsəl
Kərbəlayi Murad
Seyid Malik
MirCəlal
MirCamal
MirKamal
Erol
Elvin

**«Elm və təhsil» nəşriyyatının direktoru:**
**professor Nadir MƏMMƏDLİ**

**Kompüter dizayneri:** Zahid Məmmədov
**Səhifələyici:** Tünzalə Tağıyeva
**Korrektor:** Ələsgər Talıboğlu

*Çapa imzalanmış 05.01.2016*
*Şərti çap vərəqi 9. Sifariş №559*
*Kağız formatı 60x90 1/16. Tiraj 500*

*Kitab «Elm və təhsil» nəşriyyat-poliqrafiya*
*müəssisəsində səhifələnib çap olunmuşdur.*
*E-mail: nurlan 1959@gmail.com*
*Tel: 497-16-32; 050-311-41-89*
*Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.*